Lakin, digər tədqiqat işində [37] göstərilmişdir ki, ŞD-i olmayan pasientlərdə MAU-nın yüksəlməsi ED ilə korrelyasiya olunmur. DN ilə mikroangiopatiya arasındakı əlaqəni izah edən ən populyar hipotezalardan biri albuminin sidiklə ekskresiyasının (ASE) artması hesab edilir ki, bu da generalizələşmiş ED markeri hesab edilir [38] . XBÇ mərhələsində ED-nın daha da dərinləşməsi, azot oksidinin (NO) güclü endogen inhibitoru olan asimmetrik dimetilargininin (ADMA) klirensinin azalması hesabına qanda toplanması nəticəsində baş verir [39]. ED ilə əlaqəli olan vazodilatasiyanın pozulması, damar trombositar homeostazının aktivləşməsi və damar divarının xronik iltihabı aterogenez prosesinin kəskin sürətlənməsinə səbəb olur. Qanda bu proseslərin markerləri olan Villebrand faktorunun, C-reaktiv zülalın, iltihabönü sitokinlərin, adheziyanın həll olan molekulların səviyyələrinin artması baş verir. ED artması, damar divarının iltihabı, albuminuriyanın artması ilə dərinləşir və bu da xəstələrin letallıq göstəricilərinin markeri rolunu oynayır . Bu məsələlər tam axıra qədər araşdırılmamış və sonrakı tədqiq olunmasını tələb edir.

İnsulinərezistenlik sindromu və ŞD zamanı ED-nın mexanizmi mürəkkəbdir və hədəflər hələlik sona qədər aydınlaşdırılmamışdır. Kliniki təcrübədə endotelin funksional aktivliyi əsasən instrumental üsulların köməyi ilə qiymətləndirilir. Bu məqsədlə endoteldənasılı vazodilatasiya, farmakoloji sınaqlar, reaktiv hiperemiya sınağı, soyuq və ya mental stress sınağı (miokardda qan cərəyanının tədqiqi) və digər sınaqlarla tədqiq olunur. ŞD zamanı ED-nın aşkar edilməsinin digər üsulu laborator diaqnostikası hesab edilir. Belə ki, bu zaman endoteldə əmələ gələn müxtəlif maddələrin tutumu qanda təyin edilərək qiymətləndirilir. Hal-hazırda qanda praktiki olaraq endoteldə əmələ gələn bütün məlum maddələrin (NO, prostasiklin, P-selektin, plazminogenin toxuma aktivatoru, Villebrand faktoru, Endotelin-1, E-selektin, trombomodulin və s.) aşkar edilməsi metodikası mövcuddur. Endotelin vəziyyətinin qiymətləndiril- məsinin daha bir üsulu endoteliumu zədələyən və qanda səviyyəsinin ED ilə korrelyasiya edən amillərin tədqiq edilməsidir. Bu cür amillərə hiperxolesterinemiya (ASLP, ÇASLP-ın səviyyəsi), hiperhomosisteinemiya, assimmetrik dimetilarginin, lipoprotein, ksantinoksi daza, sitokinlər və MAU-nı göstərmək olar-. Albuminuriyanın dinamikada təyininə müalicə və profilaktikanın təsirinin qiymətləndirilməsi üsulu kimi də baxmaq olar [22]. Bununla belə bütün qeyd olunan proseslərin əsasında DN zamanı insulinorezistentlik durur [2].

Beləliklə, ŞD-li xəstələrdə aterogenezin inkişafında vacib rol oynayan ED konsepsiyası formalaşmaqdadır. Aparılan tədqiqatlardan əldə edilmiş məlumatlar göstərir ki, stressə məruz qalmış endotelə təsir etməklə yaxud angiogenezi stimulyasiyasına nail olmaqla "hədəf-orqan" ların funksiyasının saxlanılmasına və patoloji prosesin proqresinin ləngiməsinə nail olmaq olar. Ədəbiyyat mənbələrinin məlumatlarının analizi göstərir ki, DN zamanı ÜDS tərəfindən çoxsaylı ağırlaşmalar müşahidə edilir və bunların müxtəlifliyi, müşahidə olunma tezliyi və ağırlıq dərəcəsi şəkərli diabetin ağırlıq dərəcəsinin artması ilə yüksəlir [40]. Bu ağırlaşmaların meydana çıxmasının əsas səbəbi metabolik, hemodinamik, hormonal, iltihab və s. pozğunluqlar təşkil edir. Qeyd olunan dəyişikliklərin hamısının damar divarı ilə təması endotelium hüceyrələri səviyyəsində baş verir və ona görə bu hüceyrələrin fəaliyyətinin tədqiq edilməsi böyük klinik əhəmiyyət kəsb edir. Ona görə bu problemin ardıcıl surətdə öyrənilməsi ŞD zamanı böyrəyin zədələnməsində ED- nın rolu, kliniki xüsusiyyətlərinin dəqiqləşdirilməsi və bu proseslərin qarşılıqlı əlaqəsinin qiymətləndirilməsi ilə yanaşı patogenetik müalicə tədbirlərinin tətbiq olunmasını əsaslandırmaqla nəticələrin yaxşılaşdırılmasına imkan verəcəkdir.

## ƏDƏBİYYAT

1. Дедов И. И. федеральная целевая программа «сахарный диабет», метод. Рекомендации; И. И. Дедов, М. В. Шестакова, М.А. Максимова. М. 2002, с.88

2. Дедов И.И., Шестакова М.В. Сахарный диабет. М.: Универсум паблишин, 2002, 37с.
3. Дедов И.И. Современная диабетология // Медицинская кафедра, 2004, №1, с.18-20
4. Шестакова М. В. Дисфункция эндотелия - причина или следствие метаболического синдрома? // РМЖ, 2001, №9, с.22-26.
5. Балаболкин М.И., Креминская Е.М. Патогенез и механизмы развития ангиопатии при сахарном диабете // Кардиология, 2000, №10, с.47-87
6. Bakris G.İ., Fonseca V., Katholi R.İ.metabolic effects of Carvedilol and Metoprolol in patients with type 2 Diabetes melitus and Hypertension // JAMA, 2004, v.292, p 2227-2236
7. Татарченко И.П., Позднякова Н.В., Дудукина Е.А., Морозова О.И. Комплексная оценка эпизодов ишемии и вазомоторной функции сосудистого эндотелия у больных сахарным диабетом 2-го типа // Кардиология, 2007, №4, с.28-31.
8. Касаткина С. Г., Касаткин С. Н. Значение дисфункции эндотелия у больных сахарным диабетом 2 типа // Fundamental Research, 2001, №7, с.248-252
9. Юшук Е.Н. Эндотелиальная дисфункция при заболеваниях сердечно - сосудистой системы и методы ее коррекции // Клиническая фармакология и терапия, 2005, №3, с.85-87.
10. Иванова О.В., Рогова А.Н., Балаханова Т.В. и др. Определение чувствительности плечевой артерии к напряжению сдвига на эндотелии как метод оценки состояния эндотелий- зависимой вазодилатации у больных с гипертонической болезнью и лиц с гиперхолестеринемией по данным ультразвука высокого разрещения // Кардиология, 2998, №3, с.37-41
11. Небиеридзе Д.В. Дисфункция эндотелия и ее коррекция при артериальной гипертонии // Русский медицинский журнал, 2006, №2
12. Маршынов А.И. Гороховская Г.Н. и др. перспективы медикаментозного лечения эндотелиальной дисфункции // Фарматека, 2005, №9, с.31-40
13. Шестокова М. В. Дисфункция эндотелия - причина или следствие метаболического синдрома? // РМЖ, 2001, №9, с.22-26.
14. Реутов В.П., Сорокина Е.Г., Косицын Н.С. Проблемы оксида азота и цикличности в биологии и медицине // Успехи современной биологии, 2005, №25(1), с. 41-65.
15. Kahn R., Buse J., Ferannini E., Stern M. The metabolic syndrome : time for critical appraisal : Joint of ADA and EASD // Diabetology, 2005, v.48, p.1684-1699
16. Гомазков О.А. Пептиды в кардиологии. Биохимия. Физиология. Патология. Информация. Анализ. Материк. М.: Альфа, 2000, с.143
17. Becker R.C. The role of blood viscosity in the development and progression of coronary artery disease. Cleve Clin // J. Med., 1993, v.60(5), p.353-358
18. Петрищев Н.Н. Дисфункция эндотелия. Причины, механизмы, фармакологическая коррекция. СПБ, 2003, с. 4-38
19. Feleton M., Vanhoutle P.M. The alterantive: EDHF // J. Mol.Cell. Cardiol., 1993, N31, p 15-22
20. Kato T., Iwama I., Okumura K. et al. Prostoglandin H2 may be the endotelium - derived contracting factors released by asetylcholine in the aorta of the rat // Hypertension, 1990, v.15, p.475-482
21. Lippincot M.F., Carlow A., Desai A. et al. Relation of endotelial function to cardiovascular risk in women with sedentary occupations and without known cardiovascular disease // Am. Coll. Cardiol., 2008, v.102(3), p.643-647
22. Шишкин А.Н. Лындина М.Л. Эндотелиальная дисфункция, метаболический синдром и микроальбуминурия. // Нефрология, 2009, N3, с.24-32.
23. Ройтберг Г.Е. Метаболический синдром. М.: МЕД- пресс- информ, 2007
24. Storey A.M. Endothelial disfunction in type 2 diabetes // British J. of Diabetes and Vascular disesae, 2001, v.1, p.22-27
25. Jude E.B. Peripheral arterial disease indiabetes and nondiabetes patient // Diabetes Care, 2001, v.24, p.1433-1437
26. Karalliede J., Veberti G. Microalbuminuria and cardiovascular risk // Am. J. Hipertens, 2004, v.17, p. 986-993
27. Gerstein H.C., Mann J. F.,Yi Q. et al. Albuminuria and risk of cardiovascular events, death and heart failure in diabetic and nondiabetic individuals // JAMA, 2001, v.(286), p.421-426
28. American Diabetes Association: standarts of medical care in diabetes-2008 // Diabetes care, 2008, v.31 (suppl.1), p.12-54

29. Шишкин А.Н. Лындина М.Л. Дисфункция эндотелия и микроальбуминурия. Клиническое значение и терапевтические подходы. Передовые медицинские технологии практическому здравоохранению. СПБ, 2008, с. 193-199.

30. Ronco C., Haapio M., House A. Cardiorenal syndrome // J of the Am. Col. Of Cardiol., 2008, v.52, N4, p.1527-1539.

31. Volpe M. Microalbuminuria screening in patients with hypertension: recomendation for clinical practice // Int. J. Clin. Pract., 2008, v.62(1), p.97-108

32. Rossing P., Hommel E., Smidt U.M. et al. Impact of arterial blood pressure and albuminuria on the progression of diabetic nephropathy in IDDM patients // Diabetes,1993, v.42, p.715-719.

33. Jassal S.K., Langenberg C., von Muhien D. et al. Usefulness of microalbuminuria versus metabolic syndrome as a predictor of cardiovascular disease in women and men 40 years of age (from theRancho Bernardo study) // Am. J.Cardiol., 2008, v.101, p.1275-1280

34. Vaur L., Gueret P., Lievre M. et al. Development of congestive heart failure in type 2 diabetic patients with microalbuminuria or proteinuria: observations from the DIABHYCAR (type 2 Diabetes, Hypertension, Cardiovascular events and Ramipril study) // Diabetes Care, 2003, v.26, p. 855-860.

35. Gimeno-Orna J.A. Microalbuminuria accounts for the increased vascular disease risk in diabetic patients with metabolic syndromes // Rev. Esp. Cardiol., 2007, v.60 (11), p.1202-1205

36. Diercks G.F., Stroes E.S., van Boven A. J. et al. Urianaryalbumin excration is realated to cardiovascular risk indicators , not to flow- mediated vasodilatation in apparently healthy subjects // Atherosclerosis, 2002, v.163(1), p.121-126

37.Clausen P., Jensen J.S., Jensen G. et al. Elevated urinary excretion is associated with impaired arterial dilatory capacity in clinacally healthy subjects // Circulation, 2001, v.103(14), p.1869-1874.

38. Widlansky M.E., Gokce N., Keaney J.F. et al. The clinical implications of endothelial dysfunction //J Am CollCardiol., 2003, v.42, p.1149-60.

39. Fliser D., Kielstein J.X., Haller I. et al. Assymmetricdimethylarginine: Acardiovascular risk factor in renal disease // Kidney International, 2003, v.63, Suppl.84, p.37-40.

40. Обрезан А.Г., Бицадзе Р.М. Структура сердечно-сосудистых заболеваний у больных сахарным диабетом 2 типа, диабетическая кардиомиопатия как особое состояние миокарда // Вестник Санкт-Петербургского университета, 2008, вып.2, с.47-53

**Резюме**

**Эндотелиальная дисфункия при сахарном диабете 2-го типа осложненным хроническими болезнями почек**

**М.М.Агаев, Ш.О.Исмаилова**

В статье исследовано роль эндотелиальной дисфункции при развитии почечной недостаточности у больных сахарным диабетом типа 2. Было показано, что сахарном диабете типа 2 причиной наблюдаемой микро или макроангиопатии является эндотелиальная дисфункция. По мнению многих авторов у больных сахарным диабетом тип 2 в развитии наблюдаемой нефропатии пусковым патогенетическим механизмом является эндотелиальная дисфункция. Несмотря на то, что на сегодняшний день нет связи между сосудистой патологии и сахарным диабетом, можно считать, что основой сосудистых осложнений при сахарном диабете является нарушение регулирующий функции эндотелия. Отмеченные факторы повышают актуальность научного и практического интереса этой проблемы. В настоящее время еще не сформировано важность роли концепции эндотелиальной дисфункции в развитии атерогенеза.

**Summary**

**Endothelial disfunkiya with type 2 diabetes complicated by chronic kidney disease**

**M.M.Agayev, Sh.O.Ismailova**

The paper investigated the role of endothelial dysfunction in the development of renal failure in patients with diabetes mellitus type 2. It has been shown that type 2 diabetes cause of the observed micro or macroangiopathy is endothelial dysfunction. According to many authors in patients with type 2 diabetes observed in the development of nephropathy triggering pathogenetic mechanism is endothelial dysfunction. Despite the fact that today there is no connection between vascular disease and diabetes, it can be assumed that the basis of vascular complications in diabetes mellitus is a violation of the regulatory function of the endothelium. Reported factors increase the relevance of scientific and practical interest in this problem. At the present time it has not yet formed the concept of the importance of the role of endothelial dysfunction in the development of atherogenesis.

Daxil olub:29.01.2016

# ASTARA RAYONUNDA SİDİK DAŞI XƏSTƏLİYİNİN YAYILMA XÜSUSİYYƏTLƏRİ

**R.A.Ramazanov**
*Lənkəran Müalicə Diaqnostika Mərkəzi, Lənkəran, Azərbaycan*

***Açar sözlər:*** sidikdaşı xəstəliyi, yayılma dərəcəsi
***Ключевые слова:*** мочекаменная болезнь, распространённость
***Key words:*** urolithiasis, the prevalence

Sidik daşı xəstəliyi ən geniş yayılmış uroloji xəstəliklərdən biri olub son illər daha da artması ilə səciyyələnir. Bu xəstəliyin müxtəlif zamanlarda epidemioloji xüsusiyyətlərinin tədqiqi fərqli nəticələrin göstərilməsinə gətirib çıxarmışdır. Bəzi müəlliflərə görə sidik daşı xəstəliyi əhalinin 1-3%-də və ən çox əməkqabiliyyətli yaşlarda (20-50yaş) rast gəlinir [2]. Digər müəlliflərə görə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə xəstəliyin rastgəlmə tezliyi fərqlidir (müvafiq olaraq 2-13% və 0,5-1%) [4]. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, 1993-1994cü illərdə İtaliyada sidik daşı xəstəliyinin yayılması 1,72%, İspaniyada 10,0%, Türkiyədə 14.8% olmuşdur. Dünyanın inkişaf etmiş ölkələrindən hesab olunan Almaniyada hər il təxminən 750000 xəstələnmə hadisəsi qeydə alınır [14]. Tədqiqatlar zamanı sidik daşı xəstəliyinin illər getdikcə artması aşkarlanmışdır. Belə ki, Amerika Birləşmiş Ştatlarında bu xəstəlik 1964-1972-ci illərdə 2,62%, 1976-1980-cı illərdə 3,8%,1982-ci ildə isə 5.4% qeyd olunmuşdur [16].

Uşaqlarda sidik daşı xəstəliyinin geniş yayılması bu problemin aktuallığını bir daha gündəmə gətirir. Belə ki, tədqiqatlara görə [12] ABŞ-da 2,7 milyon pediatrık xəstəyə 3815 urolitiazlı uşaq düşmüşdür (685 pediatrik xəstəyə 1 urolitiazlı uşaq). Bu uşaqlar arasında qızlar oğlanlardan 1,5 dəfə çox xəstələnmişlər. Xəstələrin yarısı (53,1%) 13 yaşdan kiçik olmuşdur.

Hamilə qadınlarda sidik daşı xəstəliyi əsasən II və III trimestrlərdə (39% və 46% uyğun olaraq) rast gəlinir [13]. Spontan daşxaricolma qadınlarda 47%, hamilələrdə isə 81% qeyd olunur.

Yaşlılarda simptomsuz sidik daşı xəstəliyinin yayılması 7,8%-dir [5]. Belə ki, 5047 yaşlıdan 395 simptomsuz xəstə aşkarlanmışdır.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, 1996-cı ildə Azərbaycanda sidik daşı xəstəliyi ilə xəstələnmə hər 100000 nəfərə 72,1 olmuşdur [1]. Respublikamızda əsasən yuxarı sidik yolları daşları və prostat vəzi adenomasından əziyyət çəkən xəstələrdə sidik kisəsi daşları rast gəlinir. Uretra və prostat vəzi daşları çox az təşkil edir (0,74%).

Əhalinin əsasən əməkqabiliyyətli yaşlarında rast gəlməsi, bəzi hallarda əmək qabiliyyətini müvəqqəti və ya daimi itirməsi sidik daşı xəstəliyinin aktuallığını bir daha sübut edir. Sadalananları nəzərə alaraq aparılmış tədqiqatın sidik daşı xəstəliyinin müalicə-profilaktika prosesinin təşkilində müəyyən əhəmiyyət daşıyacağını, yeni istiqamətlər formalaşdıracağını güman edirik.

**Məqsəd.** Tədqiqatın aparılmasında məqsəd Astara rayonu nümunəsində müraciət əsasında sidik daşı xəstəliyinin epidemioloji xüsusiyyətlərinin araşdırılması olmuşdur.

**Tədqiqtaın material və metodları.** 2010-2014-cü illər ərzində Astara Mərkəzi Rayon Xəstəxanasının ambulator xəstənin tibbi kartları (AZS-025) əsasında bütün sidik daşı ilə xəstələnmə hadisələri əsas götürülmüşdür. Tədqiqat vahidi sidik daşı diaqnozu təsdiqlənmiş xəstə olmuşdur.

Astara rayonunda müraciət əsasında əhalinin sidik daşı ilə xəstələnmə hadisələrinin sayı 2010-2014cü illərdə ayrı-ayrılıqda öyrənilmişdir. Bu illər ərzində rayonda 531 sidik daşı diaqnozlu xəstə (o cümlədən kişilər-336, qadınlar-195) aşkarlanmışdır. Müxtəlif illər üzrə əhalinin orta illik sayı nəzərə alınmaqla hər 100000 nəfərə düşən ümumi,eləcə də kişi və qadın xəstələnmə hadisələrinin sayı və onun orta xətası müəyyən edilmişdir. Eyni hesablamalar müxtəlif yaş qrupları üzrə də təyin edilmişdir. Tədqiqat işində xəstələnmə hadisələrinin yaş strukturu müvafiq yaş qruplu əhalinin hər 10000 nəfərinə görə araşdırılmışdır. Kişi və qadın qruplarının xəstələnmələri arasındakı fərqin dürüstlüyü həm say, həm də orta yaş nəzərə alınmaqla ümumilikdə və ayrı-ayrı illər, yaş qrupları üzrə hesablanmışdır.

Alınmış nəticələrin analizi Excel proqramının köməyi ilə təsviri statistik metodlarla aparılmışdır. Müxtəlif qruplar arasındakı fərqin dürüstlüyü t-kriteriyasına görə qiymətləndirilmişdir [3].

**Alınmış nəticələr.** 2010-2014cü illərdə Astara rayonunda sidik daşı xəstəliyinin yayılması 1-ci cədvəldə göstərilmişdir. Hesablamalar nəticəsində məlum olmuşdur ki, Astara rayonunda hər 100000 nəfərə orta hesabla 105,42±4,58, o cümlədən kişilər

arasında 133,47±7,29,qadınlar arasında isə 77,40±5,55 xəstələnmə hadisəsi düşür.

Bu illər ərzində xəstələnmə hadisələrinin təhlili zamanı məlum olur ki, 2010-cu ildə hər 100000 nəfərə 95,14±9,86 xəstələnmə hadisəsi düşürdüsə artıq 2014-cü ildə bu göstərici 134,62±11,41 olmuşdur. Oxşar müqayisəni ayrılıqda kişilər və qadınlar arasında da aparmaq mümkündür. İldən ilə hər 100000 nəfərə düşən xəstələnmə sayının dəyişikliyini araşdırsaq 2012-2013-cü illərdə ümumən və qadınlar arasında xəstələnmədəki artımın statistik dürüst olması qənaətinə gələ bilərik.

Sidik daşı ilə xəstələnmə hadisələrini cinslər üzrə araşdırdıqda məlum olur ki,bu xəstəlik kişilərdə qadınlara nisbətən çoxluq təşkil edir (1,72:1). Bu nisbətin ayrı-ayrı illər üzrə də özünü doğrultduğunu görə bilərik. Hər 100000 nəfərə düşən kişi və qadın xəstələnmələrinin xronoloji orta göstəriciləri arasındakı fərq statistik olaraq dürüstdür (t=6,12).

**Cədvəl 1**

**2010-2014-cü illərdə Astara rayonunda sidik daşı xəstəliyinin yayılması**

| İllər | Ümumi əhali | | | Kişilər | | | Qadınlar | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | N(min nəfər) | n | $\frac{n}{N}$*100000 | N(min nəfər) | n | $\frac{n}{N}$*100000 | N(min nəfər) | n | $\frac{n}{N}$*100000 |
| 2010 | 97.75 | **93** | 95.14± 9.86 | 48.65 | **58** | 119.22± 15.65 | 49.1 | **35** | 71.28± 12.04 |
| 2011 | 99.05 | **100** | 100.96± 10.09 | 49.45 | **60** | 121.33± 15.65 | 49.6 | **40** | 80.65± 12.75 |
| 2012 | 100.5 | **79** | 78.61± 8.84* | 50.25 | **53** | 105.47± 14.48 | 50.25 | **26** | 51.74± 11.14* |
| 2013 | 101.9 | **120** | 117.76± 10.74* | 50.95 | **76** | 149.17± 17.07 | 50.95 | **44** | 86.36± 13.01* |
| 2014 | 103.25 | **139** | 134.62±11 .41 | 51.7 | **89** | 172.15±18 .23 | 51.55 | **50** | 96.99±13. 71 |
| | | **531** | 105.42±4. 58 | | **336** | 133.47±7. 29 | | **195** | 77.40±5.5 5 |

Qeyd:N-əhalinin orta illik sayı,n-xəstələnmə hadisələrinin sayıdır,əhalinin orta illik sayı məlumatı Dövlət Statistika Komitəsinin məlumatından götürülmüşdür. *-bu qruplar arasında fərqin dürüst olmasını göstərir.

**Cədvəl 2**

**Xəstələrin yaşının təsviri statistikası**

| | 2010 | | 2011 | | 2012 | | 2013 | | 2014 | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | K | Q | K | Q | K | Q | K | Q | K | Q | K | Q |
| Orta yaş | 48.36 | 43.57 | 54.52 | 49.75 | 54.34 | 47.38 | 49.58 | 47.66 | 51.48 | 49.50 | 51.51 | 47.79 |
| Standart xəta | 2.26 | 2.47 | 2.04 | 2.33 | 2.11 | 3.24 | 2.21 | 1.64 | 1.94 | 2.10 | 0.95 | 1.02 |
| Mediana | 49 | 42 | 54 | 47.5 | 54 | 47.5 | 48 | 48 | 54 | 51 | 52.5 | 48 |
| Moda | 52 | 35 | 54 | 45 | 49 | 26 | 28 | 48 | 17 | 45 | 54 | 48 |
| Standart təmayül | 17.22 | 14.59 | 15.82 | 14.74 | 15.34 | 16.56 | 19.23 | 10.85 | 18.34 | 14.85 | 17.46 | 14.21 |
| Dispersiya | 296.55 | 212.90 | 250.25 | 217.27 | 235.46 | 274.25 | 369.87 | 117.67 | 336.32 | 220.62 | 304.83 | 201.88 |
| İnterval | 69 | 55 | 69 | 57 | 72 | 57 | 76 | 54 | 81 | 72 | 82 | 72 |
| Minimum | 19 | 20 | 15 | 18 | 11 | 17 | 9 | 19 | 10 | 3 | 9 | 3 |
| Maksimum | 88 | 75 | 84 | 75 | 83 | 74 | 85 | 73 | 91 | 75 | 91 | 75 |
| Cəmi | 2805 | 1525 | 3271 | 1990 | 2880 | 1232 | 3768 | 2097 | 4582 | 2475 | 17306 | 9319 |
| n sayı | 58 | 35 | 60 | 40 | 53 | 26 | 76 | 44 | 89 | 50 | 336 | 195 |

Xəstələrin yaş strukturunda ən kiçik yaş 3, ən böyük yaş isə 91 olmuşdur. 2010-2014-cü illərdə ayrı-ayrı cinslər üzrə xəstələrin yaşının təsviri statistikası 2-ci cədvəldə göstərilmişdir. Kişi xəstələrin orta yaşı 51,51±0,95, qadınlarda isə 47,79± 1,02 olmuşdur. Bu göstəricilər arasındakı fərq statistik olaraq dürüstdür (t=2,67).

Astara rayonunda sidik daşı ilə xəstələnmələrin yaş qrupları üzrə səciyyələndirilməsi cədvəl 3də göstərilmişdir. Əhalinin yaşı artdıqca xəstələnmə də artır. 0-19 və 20-39 yaş qrupları arasında ümumi (0,93±0,23 və 7,21±0,64), kişi (1,23± 0,37 və 8,81±1,00) və qadın (0,61±0,27 və 5,58±0,81) xəstələnmə göstəricilərin fərqi statistik dürüstdür (müvafiq olaraq t=9,23; 7,11; 5,82). 20-39 və 40-59 yaş qrupları arasında ümumi (7,21±0,64 və 19.80±1,29), kişi (8,81±1,00 və 23,82± 2,05) və qadın (5,58±0,81 və 16,10±1,62) xəstələnmə

göstəricilərin fərqi də dürüstdür (müvafiq olaraq t=8,74; 6,58; 5,81). 40-59 və 60-79 yaş qrupları arasında ümumi (19,8±1,29 və 40,0±3,40) və kişi (23,82±2,05 və 62,08±6,35) xəstələnmə göstəricilər arasında fərq dürüst, qadın (16,10±1,62 və 22,45±3,42) göstəricilərin fərqi isə dürüst deyil (müvafiq olaraq t=5,59; 5,73; 1,68). 60-79 və 80 yaşdan yuxarı yaş qrupları arasında ümumi (40,05±3,40 və 40,80±9,60), kişi (62,08±6,35 və 93,65±21,97) və qadın (22,45±3,42 və 0) xəstələnmə göstəricilərin fərqi dürüst deyil (müvafiq olaraq t=0,07; 1.38; 6,56).

Kişi və qadın xəstələnmələri arasındakı fərq 0-19 yaş qrupunda dürüst deyil (t=1,35). Digər qruplarda isə bu göstəricilər əhəmiyyətli dərəcədə fərqlənmişdir (20-39, 40-59, 60-79 yaş qruplarında müvafiq olaraq t=2,51; 2,95; 5,49).

**Cədvəl 3 Astara rayonunda ilə sidik daşı xəstələnmə hadisələrinin yaş qrupları üzrə səciyyələndirilməsi**

| Yaşlar və cinslər | | 2010-2014 | | |
|---|---|---|---|---|
| | | N | n | $\frac{n}{N}$*10000 |
| 0-19 yaş | Ü | 172028 | 16 | 0.93±0.23 |
| | K | 89666 | 11 | 1.23±0.37 |
| | Q | 82362 | 5 | 0.61±0.27 |
| 20-39 yaş | Ü | 173384 | 125 | 7.21±0.64 |
| | K | 87384 | 77 | 8.81±1.00 |
| | Q | 86000 | 48 | 5.58±0.81 |
| 40-59 yaş | Ü | 118192 | 234 | 19.80±1.29 |
| | K | 56685 | 135 | 23.82±2.05 |
| | Q | 61507 | 99 | 16.10±1.62 |
| 60-79 yaş | Ü | 34459 | 138 | 40.05±3.40 |
| | K | 15304 | 95 | 62.08±6.35 |
| | Q | 19155 | 43 | 22.45±3.42 |
| 80 və yuxarı | Ü | 4412 | 18 | 40.80±9.60 |
| | K | 1922 | 18 | 93.65±21.97 |
| | Q | 2490 | 0 | 0 |

Qeyd: N-müvafiq yaş qruplu əhalinin sayı,n-xəstələnmə hadisələrinin sayıdır,müvafiq yaş qruplu əhalinin sayı məlumatı Astara Statistika İdarəsinin məlumatından götürülmüşdür.

**Alınmış nəticələrin müzakirəsi.** 2000-ci ildə Amerika Birləşmiş Ştatlarında əhalinin hər 100000 nəfərinə 116, 2005-ci ildə Yaponiyada 114,3, 2002-ci ildə İspaniyada 350 xəstələnmə hadisəsi düşdüyünü [16] nəzərə alsaq Astarada 2010, 2011, 2012-ci illərdə bu göstəricinin az olması, 2013, 2014-cü illərdə isə nəticənin ABŞ və Yaponiyadan çox, İspaniyadan az olduğu göstərilə bilər.

ABŞ-ın Roçester şəhərində aparılmış tədqiqata görə [8] 1970-2000-ci illərdə əhalinin hər 100000 nəfərinə 121,0±7,2 (o cümlədən kişilər arasında 170,1±12,5, qadınlar arasında 75,4±7,5) sidik daşı

diaqnozlu xəstə düşür. 1-ci cədvələ nəzər salsaq ümumi və kişilər arasındakı göstəricinin az, qadınlar arasındakı göstəricinin isə çox olduğunu görə bilərik.

M.D.Cavadzadə, R.K.Həsənovun Lənkəran, Şəki-Zaqatala və Gəncə ərazisində apardığı tədqiqata görə isə əhalinin hər 10000 nəfərinə 1965-ci ildə 11,2; 1985-87-ci illərdə isə 22,2-34,8 xəstələnmə hadisəsi düşür [1]. Aldığımız nəticələrin (Cədvəl 1) bu göstəricilərin bəziləri ilə uyğunluq təşkil etdiyini qeyd edə bilərik.

Kişi və qadınların xəstələnmələri arasında aldığımız 1,72:1 nisbəti bəzi mənbələrdə verilmiş göstəricilər ilə uyğunlaşır [6] (2,5:1), [11] (2,03:1), [15] (2,4: 1), digərləri ilə isə ziddiyyət təşkil edir [7] (0,79:1).

**Nəticələr:** 1.2010-2014-cü illərdə Astara rayonunda əhalinin hər 100000 nəfərinə orta hesabla 105,42±4,58 (o cümlədən kişilər arasında 133,47±7,29, qadınlar arasında 77,40±5,55) xəstələnmə hadisəsi düşür. Bu müddətdə xəstələnmənin artımı 2012-2013-cü illərdə ümumən və qadınlar arasında statistik dürüstdür. 2.Sidik daşı ilə xəstələnmə hadisələri kişilər arasında qadınlara nisbətən çoxluq təşkil edir (t=6,12). Bu fərq yalnız 0-19 yaş qrupunda dürüst deyil,digər qruplarda isə bu göstəricilər əhəmiyyətli dərəcədə fərqlənmişdir (t>2,5). 3.Kişi xəstələnmələrinin orta yaşının (51,51±0,95) qadınların orta yaşından (47,79±1,02) fərqi də statistik olaraq dürüstdür (t=2,67). 4.Əhalinin yaşı artdıqca xəstələnmə də artır.

## ƏDƏBİYYAT


1. Джавадзаде С.М. Мочекаменная болезнь в эндемическом регионе. Баку: Военное из-во, 1996, 126 с.
2. Тиктинский О.Л., Александров В.П. Мочекаменная болезнь. СПб: “Питер“, 2000, 384 с.
3. Стентон Гланц. Медико-биологическая статистика. М/: Практика, 1999, 459с.
4. Ketabchi A.A., Aziziolahi G.A. Prevalence of Symptomatic Urinary Calculi in Kerman, Iran // Urology Journal, 2008, v.5, №3, p.156-160.
5. Cody J.B., Perry J.P., Edward M.L. et al. Prevalence of Urolithiasis in Asymptomatic Adults: Objective Determination Using Low Dose Noncontrast Computerized Tomography // The Journal of Urology, 2010, v.183, issue 3, p. 1017-1021.
6. Qaader D.S., Yousif S.Y., Mahdi L.K. Prevalence and etiology of urinary stones in hospitalized patients in Baghdad // Eastern Mediterranean Health Journal, 2006, v.12, №.6, p. 853-861.
7. Emanuele C., Pietro M.F., Luca T. et al. Prevalence of renal stones in an İtalian urban population: a general practice-based study. Urol.Res., Springer-Verlag 2012.
8. Lieske J.C., Pena L.S. de la Vega, Slezak J.M. et al. Renal stone epidemiology in Rochester, Minnesota: An update // Kidney Internat. Official journal of the Inter. Society of Nefrology, 2006, v.69, p.760-764.
9. Khamgembam S.M., Sachdeva M.P. İncidence of Renal Stone: An İnvestigation among the Aimol Tribe of Manipur //Stud Tribes Tribals, 2010, v.8(1), p.45-48
10. Mary F.R., Mary J.S., Wood C. et al. Prevalence of Renal Stones in a Population-based Study with Dietary Calcium, Oxalate, and Medication Exposures // Am. J. of Epidemiology, 2016, v.147, p. 914-920.
11. Bouatia M., Benramdane L., Draouri M. An epidemiological study on the composition of urinary stones in Morocco in relation to age and sex // African J. of Urology september,2015, v.21(3), p.194-197.
12. Bush N.C., Xu L., Brown B.J. et al. Hospitalizations for Pediatric Stone Disease in United States, 2002-2007 // The Journal of Urology, 2010, v.183, p.1151-1156.
13. Meria P., Hadjadj H., Jungers P., Daudon M. Stone Formation and Pregnancy: Pathophysiological Insights Gained From Morphoconstitutional Stone Analysis // The J of Urology, 2010, v.183, p.1412-1416.
14. Strohmaier W.L. Socioeconomic aspects of urinary calculi and metaphylaxis of urinary calculi [in German] // Urologe A., 2000, v.39, p.166-70.
15. Knoll T., Schubert A.B., Fahlenkamp D. et al. Urolithiasis Through the Ages: Data on More Than 200000 Urinary Stone Analyses // The Journal of Urology, 2011, v.185, issue 4, p 1304-1311.
16. Romero V., Akpinar H., Assimos D.G., Stones K. A Global Picture of Prevalence, Incidence, and Associated Risk Factors. // Rev Urol., 2010, v.12 (2-3), p.86-96



**Резюме**

**Р.А.Рамазанов**

**Особенности распространения мочекаменной болезни в Астаринском районе**

Цель исследования мочекаменной болезни- это исследование эпидемиологических особенностей мочекаменной болезни на основе обращений на примере Астаринского района. За основу были взяты все случаи мочекаменных заболеваний на основании медицинских карт (AZS-025) амбулаторных пациентов Центральной районной больницы Астары за 2010-2014 гг. За эти годы в районе были выявлены 531 больных с диагнозом мочевых камней (в том числе 336 мужчин, 195 женщин). С учётом

среднегодовой численности населения были определены количество и средняя погрешность случаев болезней, приходящихся на каждые 100000 человек в целом, а также на мужчин и женщин. Те же вычисления были назначены и среди разных возрастных групп. Прозрачность различий среди разных возрастных групп были оценены по t-критериям. Было выявлено, что в Астаринского районе на каждые 100000 человек в среднем приходится 105,42±4,58, в том числе среди мужчин 133,47±7,29, среди женщин 77,40±5,55 случаев болезни. По отношению к женщинам это заболевание в большинстве приходится на мужчин (1,72:1). Средний возраст пациентов мужского пола был 51,51±0,95, а для женщин – 47,7±91,02. Заболевания увеличиваются с увеличением возраста населения.

**Summary**

**R.A.Ramazanov**

**Urinary stone disease spreading specification in Astara region**

The aim of the study refer to the case on the basis of Astara region was to investigate the characteristics of the spread of urinary stone disease. Astara Central Hospital outpatient patient's medical cards (AZS-025) was based on the events of the urinary stone disease during the 2010-2014 years. Over the years the 531 regions diagnosis of urinary stone patients (including men-336, women-195) were identified. Talking into account the average annual number of population per every 100000 in total, as well as the number of male and female morbidity and its average error has been fixed. The calculations have been determined in different age groups. The accurancy of the difference between different groups evaluated according to the criteria t. It was revealed that an average morbidity of Astara region is 105,42±4,58 per 100000 population, including 133,47±7,29 among men, while women account for 77,40±5,55. The disease in men are in the majority than women (1,72:1). The average age of male patients 51,51±0,95, 47,79±1,02 was in women. Tne age of population increases morbidity increases.

Daxil olub:08.02.2016

---

# РАСПРОСТРАНЕННОСТЬ ФАКТОРОВ ВЫСОКОГО РИСКА ПЕРИНАТАЛЬНЫХ ПОТЕРЬ СРЕДИ БЕРЕМЕННЫХ ЖЕНЩИН В МАСАЛЛИНСКОМ РАЙОНЕ АЗЕРБАЙДЖАНА

**С.Н.Мамедова**

*Азербайджанский Медицинский Университет, г.Баку*

***Açar sözlər:*** hamilə qadınlar, perinatal itkilər, risk amilləri

***Ключевые слова:*** беремнные женщины, перинатальные потери, факторы риска

***Key words:*** pregnant women, perinatal losses, risk factors

Всемирная организация здравоохранения для профилактики перинатальной смертности рекомендует такое урегулирование репродуктивного поведения, когда минимизируются факторы высокого риска (роды в возрасте моложе 18 лет, старше 34 лет, интервал между родами менее 24 месяцев, четвертые и последующие роды). Последствие этих факторов представлены в работах ряда авторов [1-6]. Распространенность факторов высокого риска перинатальных потерь в различных популяциях друг от друга отличается и колеблется в широких интервалах [1]. Региональные особенности распространения отмеченных факторов в Азербайджанской популяции не изучены. Поэтому в этой работе поставили цель оценить распространенность факторов высокого риска перинатальныхпотерь в крупном сельском районе Азербайджана - в Масаллинском районе.

**Материалы и методы исследования.** В работе использованы материалы родовспомогательных служб Масаллинского района за 2012, 2013 и 2014 годы (8752 завершенных случаев беременности). Из первичных учетных документов были получены сведения об акушерском анамнезе (порядковый номер беременности и родов, применение контрацептивных средств и искусственных абортов перед последним завершенным случаем беременности, интервал между родами и возраст рожениц). Были выделены следующие группы женщин по признакам:

- первые роды в возрасте 18-34 лет;
- роды в возрасте моложе 18 лет;
- роды в возрасте старше 34 лет;

−интервал между родами менее 24 месяцев;

−четвертые и последующие роды;

−интервал между родами менее 24 месяцев при возрасте старше 34 лет;

−четвертые и последующие роды в возрасте старше 34 лет;

−четвертые и последующие роды в возрасте старше 34 лет при интервале между родами менее 24 месяцев;

− четвертые и последующие роды при интервале между родами менее 24 месяцев;

− отсутствие перечисленных факторов риска;

− применение контрацептивных средств перед последней беременностью;

− искусственные аборты перед последней беременностью.

Для каждой группы определялся количество случаев завершение беременности спонтанным абортом в сроках гестации до 22 полных недель, мертворождением в сроках гестации после 22 полных недель беременности (масса тела ≥ 500 грамм), с исходом смерти плода в течение первой недели после рождения. Все отмеченные случаи условно были названы перинатальными потерями. Рассчитали уровни, стандартные ошибки, 95% доверительный интервал (ДИ) следующих показателей:

−доля каждой группы с фактором риска в общей совокупности (распространенность факторов риска);

−доля беременностей с перинатальными потерями в группах с факторами риска.

Сравнение долей проводилось критериями $\chi^2$ и t для качественных признаков [7]. В качестве контрольной группы была использована группа, в которой отсутствовали факторы риска. Относительный риск (ОР) определялся путем соотношения уровней перинатальных потерь в группах с факторами риска к таковому в контрольной группе.

**Полученные результаты.** Полученные результаты приведены в таблице. Наиболее часто встречаемым фактором риска является первые роды в возрасте 18-34 лет (26,9±0,47%; 95% ДИ: 25,96-27,84%). На фоне этого фактора риска уровень перинатальных потерь (0,64±0,16%; 95% ДИ: 0,32-0,96%) статистически значимо выше чем в контрольной группе (0,014±0,09 %; $\chi^2$=4,8; υ=1,0; p<0,05). При этом размер относительного риска составляет 4,6.

**Таблица**

**Распространенность факторов высокого риска перинатальных потерь**

| Признаки и группы | Распространенность (n); %; S $\bar{p}$ | Перинатальные потери (n); %; S $\bar{p}$; ОР | p |
|---|---|---|---|
| Первые роды в возрасте 18-34 лет | (2350)26,9±0,47 | (15) 0,64±0,16<br>4,6 | <0,05 |
| Роды в возрасте до 18 лет | (151)1,7±0,14 | (1)0,66±0,66<br>4,7 | >0,05 |
| Роды в возрасте старше 34 лет | (490)5,6±0,25 | (7)1,43±0,54<br>10,2 | <0,05 |
| Интервал между родами <24 месяцев | (1312)15,0±0,38 | (9)0,69±0,23<br>4,9 | <0,05 |
| Четвертые и последующие роды | (436)5,0±0,23 | (6)1,38±0,56<br>9,9 | <0,05 |
| Интервал между родами <24 месяцев, при возрасте > 34 лет | (396)4,5±0,22 | (5)1,26±0,56<br>9,0 | <0,05 |
| Четвертые и последующие роды, при возрасте > 34 лет | (312)3,6±0,20 | (6)1,92±0,78<br>13,7 | <0,05 |
| Четвертые и последующие роды, интервал между родами <24 месяцев, возрасте> 34 лет | (278)3,2±0,19 | (6)2,16±0,87<br>15,4 | <0,05 |
| Четвертые и последующие роды, интервал между родами <24 месяцев | (412)4,7±0,23 | (6)1,46±0,59<br>10,4 | <0,05 |
| Отсутствие этих факторов риска | 1424<br>16,3±0,39 | 2<br>0,14±0,09 | контроль |
| Применение контрацептивных средств перед последней беременностью | (168)1,9±0,16 | (2)1,19±0,83<br>8,5 | <0,05 |
| Искусственные аборты перед последней беременностью | (179)2,1±0,15 | (2)1,12±0,79<br>8,0 | <0,05 |

Примечание: N- количество завершенных случаев беременности в группах; S $\bar{p}$ -стандартная ошибка доли; OP- относительный риск.

Роды в возрасте менее 18 лет в Масаллинском районе встречаются редко (1,7±0,14%; 95% ДИ: 1,42-1,98%). На фоне этого фактора уровень перинатальных потерь (0,66 ±0,66%) существенно не отличается от такового в контрольной группе ($\chi^2$ = 1,8; υ=1,0; p>0,05).

Роды в возрасте старше 34 лет были отмечены у 5,6±0,25% (95% ДИ: 5,1-6,1%) беременных, которые в 1,43±0,54% случаях (95% ДИ: 0,35-2,51%) завершались перинатальными потерями. Вероятность перинатальных потерь существенно выше по сравнение с контрольной группой и размер относительного риска очень высок (10,2).

Интервал между родами менее 24 месяцев так же является сравнительно распространенным явлением (15,0±0,38%). На фоне этого фактора 0,69±0,23% (95 % ДИ: 0,23-1,05%) беременностей завершается перинатальными потерями. По сравнении с контрольной группой (0,14%) эта величина существенно высока (χ=4,7; υ=1,0; p<0,05), размер относительного риска составляет 4,9.

Четвертые и последующие роды наблюдались в 5,0±0,23% случаях, при этом уровень перинатальных потерь составлял 1,38±0,56% (95% ДИ: 0,26-2,50%), а размер относительного риска – 9,9.

Очевидно, что из четырех факторов высокого риска только роды в возрасте до 18 лет не ассоциировались высокой вероятностью перинатальных потерь, остальные три фактора (роды в возрасте >34 лет, интервал между родами <24 месяцев, четвертые и последующие роды) достоверно повышают риск перинатальных потерь от 4,9 до 10,2 раза. Эти факторы часто сочетаются друг с другом. Так на пример, интервал между родами менее 24 месяцев и возраст женщин старше 34 лет отмечались у 4,5 ±0,22%, четвертые и последующее роды в возрасте старше 34 лет – у 3,6±0,20%, четвертые и последующие роды в возрасте старше 34 лет при интервале между родами до 24 месяцев -у 3,2±0,19%, четвертые и последующие роды при интервале между родами менее 24 месяцев – у 4,7±0,23% женщин. Все сочетанные варианты факторов высокого риска ассоциируются статистически значимыми высокими уравнениями перинатальных потерь (≥1,26±0,56%). Размеры относительного риска перинатальных потерь колебались в интервале от 9,0 до 15,4. Самый высокий риск перинатальных потерь (2,16±0,87%) наблюдался в группе женщин с сочетанностью 3-х факторов риска (возраст >34 лет; интервал между родами <24 месяцев; порядковый номер родов ≥4).

Известно, что для регулирования репродуктивного поведения женщин применяются либо контрацептивные средства, либо искусственное прерывание не запланированной беременности. Эти факторы отмечались соответственно у 1,9±0,16 и 2,1±0,15% беременных женщин, у которых соответственно в 1,19±0,83 и 1,12±0,79% случаях беременность завершалась перинатальной потерю. Относительный риск перинатальных потерь составлял 8,5 и 8,0.

Таким образом, факторы высокого риска, искусственные аборты и применение контрацептивных средств ассоциируется высоким риском перинатальных потерь.

**Обсуждение полученных результатов.** [1] на основе мета-анализа отмечает, что роды без факторов высокого риска в различных популяциях мира колеблятся в интервале от 9 до 43%. Данные по Масаллинскому району (16,3±0,39%) находится внутри указанного интервала. Сравнение полученных нами данных с данными мета-анализа показало, что распространенность первых родов в возрасте 18-34 лет (26,9±0,47% и 8-52%), родов в возрасте менее 18 лет (1,7±0,14% и 0,5-17%) и старше 34 лет (5,6±0,25% и 0,1-6%), интервал между родами менее 24 месяцев (15,0±0,38% и 3-19%), четвертых и последующих родов (5,0±0,23% и 1-33%) находится в пределах общего интервала. Это свидетельствует о сходстве ситуаций по распространенности факторов высокого риска перинатальных потерь. Однако, обращает на себя внимание то, что доля родов в возрасте до 18 лет близка к нижней границе, а доля родов в возрасте старше 34 лет- к верхней границе интервала этих показателей в популяциях разных стран. Более выраженное различие наблюдается при сравнении долей родов в возрасте старше 34 лет при интервале между родами менее 24 месяцев (4,5±0,22% и 0-0,6%). Это свидетельствует о том, что многорожавшие женщины в Масаллинском районе слабо регулирует репродуктивность путём использования контрацептивных средств и искусственных абортов.

**Выводы: 1.**В Масаллинском районе перинатальные потери в основном обусловлены факторами повышенного риска (роды в возрасте старше 34 лет, интервал между родами <24 месяцев, четвертые и последующие роды), которые часто встречаются в сочетанном варианте;

2.Распространенность факторов повышенного риска перинатальных потерь в женской популяции Масаллинского района не выходит за пределы их распространения в других популяциях; 3.Перинатальные потери могут быть существенно сокращены путём планирования репродуктивной функции, нацеленное на снижение факторов повышенного риска.

**Xülasə**

**Azərbaycan Respublikasının Masallı rayonunda hamilə qadınlar arasında perinatal itkilərin yüksək risk amillərinin yayılması**

**S.N.Məmmədova**

Tədqiqtaın məqsədi ölkəmizin iri rayonu – Masallı rayonu nümunəsində perinatal itkilərin yüksək risk amillərinin yayılma səviyyəsini səciyyələndirməkdir. 2012-2014-cü illərdə qeydə alınmış 8752 sayda 22 tam həftəlik hestasiyadan sonra bitmiş hamiləlik hadisəsinin müşahidəsi əsasında yüksək risk amillərinin (18 yaşa qədər və 34 yaşdan sonra doğuşlar, 4 və çox sayda doğuşlar, doğuşlar arası interval <24 ay) yayılmasının keyfiyyət əlamətlərinin statistikasının metodları ilə qiymətləndirilməsi. Perinatal itkilərin səviyyəsi ən yüksək olan (1,43±0,54%) 34 yaşdan sonra doğuşların xüsusi çəkisi 5,6±0,25%, nisbətən yüksək olan (0,66±0,66%) 18 yaşa qədər doğuşların xüsusi çəkisi isə 1,7±0,14% təşkil etmişdir. Masallı rayonunda perinatal itkilər əksər hallarda yüksək risk amilləri ilə bağlıdır. Dünyanın müxtəlif populyasiyaları ilə müqayisədə Masallı hamilə qadın populyasiyaında risk amillərinin yayılma səviyyəsinin kənara çıxması qeydə alınmır. Hesab edilir ki, Masallıda perinatal itkilərin profilaktikası yüksək risk amillərinin azaldılması yolu ilə reallaşdırıla bilər.

**Summary**

**Prevalence of the high-risk factors for perinatal losses among pregnant women in Masalli district of Azerbaijan**

**S.N.Mammadova**

The purpose was study of country's largest district – to determine the level of high prevalence of risk factors of perinatal losses on sample of Masalli district. Assessment of high risk factors according observation of 8752 cases of pregnancy finished after 22 full weeks of hestation (pregnancy before age of 18 and elder than age of 34, 4 and more births, intervals between births less than 24 months) by method of statistics of quality factors. Special weight of births after age of 34 years with the highest level of perinatal losses (1,43±0,54%) is 5,6±0,25%, special weight of births before age of 18 years with relatively high level of perinatal losses (0,66±0,66%) is 1,7±0,14%. Perinatal losses in Masalli district mostly are connected with high risk factors. In comparison qith different populations of the world, there wasn't observed any variation of prevalence level of risk factors of perinatal losses among women population of Masalli district. It is considered that prevention of perinatal losses in Masalli district may be realized by means of minimizing of high risk factors.

Daxil olub:14.12.2015

---

# YENİYETMƏLƏRDƏ PARODONTUN İLTİHABİ XƏSTƏLİKLƏRİNİN PROFİLAKTİKASI MƏQSƏDİLƏ KOMBİNƏEDİLMİŞ GİGİYENA ÜSULUNUN TƏTBİQİ

**R.A.Abbasova**

*Azırbaycan Tibb Universiteti, uşaq stomatologiya kafedrası, Bakı*

***Açar sözlər:*** parodont, iltihab, yeniyetmələr, profilaktika, gigiyena

***Ключевые слова:*** пародонт, воспаление, профилактика, гигиена

***Key words:*** periodontal inflammation, prevention, hygiene

Parodont xəstəlikləri stomatologiyada ən mürəkkəb problemlərdən biri sayılır. Bu problemin əhəmiyyəti parodont xəstəliklərin bütün dünyada yayılması, onların gedişatının ağırlığı, insanın sağlamlığına olan neqativ təsiri ilə təyin edilir [1,2,3,4]. Çoxsaylı tədqiqatların məlumatlarına görə parodont xəstəliklərinin yayılması 98% çatır. Əhalinin demək olar ki, hamısı müxtəlif yaş dövrlərində parodont xəstəliklərini müəyyən forma və ağırlıqda keçirirlər. Dişləri fırçaladıqda, sərt qida qəbul etdikdə diş ətinin qanaması iltihabın erkən əlamətidir və hətta uşaq yaşlarında belə-6-7

yaşdan başlayaraq, özünü biruzə verir. Adekvat müalicəvi - profilaktik tədbirlər olmadıqda xəstəlik qələcəkdə proqressiya edir və daha ağır mərhələyə keçir [1,2,3]. Parodontun iltihabi xəstəlikləri dişlərin itirilməsinin ən mühüm səbəblərindən biridir. Baxmayaraq ki, əsas stomatoloji xəstəliklərin etiologiyası və patogenezi demək olar ki çoxuna məlumdur, bü günki gündə bu problemə dair çoxsaylı tədqiqatlar aparılır və parodont xəstəliklərinin profilaktikası hələ də vacib tibbi problem olaraq qalır. Ağız boşluğunun gigiyenasının stomatoloji xəstəliklərin profilaktikasında rolu çox yaxşı məlumdur. Gigiyenanın qənaətbəxş olmayan səviyyəsi ağız boşluğunun mikroflorasının, ağız suyunun tərkibi və xüsusiyyətlərinin neqativ dəyişikliklərinə səbəb olaraq, dişlərin sərt toxumalarının və parodont xəstəliklərini törədir [4]. Epidemioloji tətqiqatların bir çoxunda uşaqların, xüsusən də yeniyetmələrin müxtəlif qruplarında stomatoloji statusa aid olan işlərdə aşağı gigiyenik göstəricilər aşkar edilir.

Bu fonda ağız boşluğunun professional gigiyenasının səviyyəsini artırmaq hal-hazırda çox aktualdır. Gigiyenik metodların aparılması, və onların effektivliyi müxtəlif çap olunmuş işlərdə işıqlandırılıb. Ev şəraitində ağız boşluğunun gigiyenasına ən yaxşı riayət belə professional gigiyenanı əvəz edə bilməz və əmələ gələn ərpi ev şəraitində kənar etmək çox çətindir, bir çox hallarda isə bunu etmək demək olar ki mümkün deyil [5,6,7,8,9]. Professional təmizləmə üsullarından ən optimal Air Flow texnologiyasıdır. Prosedura zamanı dişlərin səthləri suyun və maddənin hissəciklərinin (natrium bikarbonat əsasında) qarışığı ilə dozalaşmış yüksək təzyiq altında işlənilir. Toz dişin səthinə dəyərək ərpi kənar edir və o, işlənilmiş su ilə birgə xüsusi stomatoloji toz sorana yığılır. Prosedura 30 dəqiqəyə yaxın davam edir və ağrısız keçir. Bu zaman diş ərpindən və bakteriyalardan nəyinki dişin minası və dişarası məsamələr təmizlənir, hətta minanın özü də pardaxlanır.

Air Flow texnologiyası ağız boşluğunun ən çətin təmizlənən yerlərini əhətə edir, bir seansa dişlərin minasını üç çalara qədər ağardır. Hal-hazırda Air Flow texnologiyası dişlərin təmizlənməsinin ən tez, sadə və ağrısız üsullardan biri olaraq, diş ətinin və dişlərin xəstəliklərinin profilaktikasına səbəb olur, çünki qida qalıqları və ağız boşluğunun ərpi bakteriyalarınçoxalması üçün əlverişli mühitdir və diş ətinin toxumalarının iltihabına və dişlərin dağılmasına gətirib çıxarır. Dişlərin Air Flow ilə təmizlənməsi onların daha dərin ağardılması və parodontun iltihabi xəstəliklərinin qarşısını almaqüçün yaxşı əsas hesab olunur.Lakin Air Flow texnikasında istifadə edilən standart toz bahadır və təmizləmə prosesi çox vaxt aparır. Ona görə də Air Flow üçün yeni ucuz və keyfiyyətli preparatların axtarışı hələdə aktualdır.

Yuxarıda deyilənləri nəzərə alazaq və üsulun keyfiyyətini artırmaq məqsədilə biz Air Flow standart tozu əvəzinə Sanum firmasının Alkala-N tozunu istifadə etmək qərarına qəldik.

Məlumdur ki, qanın PH-nı qələvi tərəfə cuzi dəyişiklikləri belə xəstəliklərin müalicəsində (o cümlədən parodontun) mühüm rol oynayır. Alkala-N preparatı turşu-qələvi tarazlığının qorunub saxlanmasına kömək edir. Onun tərkibində dişlərin təmizlənməsinə səbəb olan natriumhidrogen karbonat 13,40g, kaliumhidrogen karbonat 2,67 g, natriumsitrat X 2H2O var. Preparat qələvi qarışığıdır, o orqanizmdə turşu-qələvi tarazlığını bərpa edir və bir çox xəstəliklərin müalicəsində daxilə qəbul edilir. Preparat toxuma asidozu və endogen intoksikasiya ilə müşahidə olunan və ya onu yaradan hər hansı bir orqanın funksiyasının çatışmazlığına gətirib çıxaran bütün xroniki xəstəliklərin müalicəsində per-os qəbul edilir.Tərkib hissəsinə görə o dişin səthlərində olan ərpi də kənar edə bilər.Bütün deyilələri nəzərə alaraq, biz Alkala-N preparatını Air Flow sistemi ilə birgə dişlərin təmizlənməsi məqsədilə istifadə etmək qərarına gəldik.

**Tədqtqatın məqsədi**: professional gigiyena üsulu qismində Alkala-N preparatını Air Flow sistemi ilə birgə dişlərin təmizlənməsi üçün istifadə edilməsi.

**Tədqiqatın material və metodları**. Biz Alkala-N preparatını dişləri təmizləmək məqsədi ilə yüngül və orta ağırlıq dərəcəli 11 praktiki sağlam yeniyetmədə diş daşları ultrasəs ilə kənar edildikdən sonra istifadə etdik. Nəzarət qismində 10 xəstədə dişləri təmizləmək məqsədi ilə standart toz istifadə edilib. Standart Air Flow metodikasına nisbətən(ən azı 30 dəqiqə), Alkala-N ilə istifadə etdikdə prosedura cəmi 10 dəqiqə çəkib və dişlərin ərp və piqmentasiyadan tam təmizlənməsi əldə olunub. Proseduradan sonra xəstələr heç bir narahatçılıq hiss etməyib. Proseduranın aparılması nəticəsində tədqiqat qrupun 98% xəstələrinin bütün dişlərində ərp təmamilə kənar edilib.Nəzarət qrupunun 95% xəstələrində ərp təmamilə kənar edilmişdir. Bundan əlavə növbəti gün yoxladıqda gingiviti olan xəstələrdə diş ətinin iltihab əlamətləri xeyli azalmışdır. Tədqiqat qrupun 98% xəstələrində ödem, hiperemiya, xoşagəlməz hissiyat həm xəstənin sözlərindən, həm də kliniki müayinəyə əsasən nəzarət qrupun göstəricilərinə nisbətən xeyli azalmışdır. Ağız boşluğunun gigiyenik vəziyyəti gigiyenik indeksinin koməyi ilə giymətləndirilib. Parodont toxumalarının vəziyyəti isə papilyar-marginal-alveolyar indeksinin dinamikası əsasında öyrənilib.

Анализ полученных результатов по $\chi 2$ показал, что по первому признаку ( нормальное течение беременности) достоверные различия выявлены между всеми тремя нозологиями ($\chi 2$=2,21 $p<0,05$). Наиболее выраженная разница отмечалась между БА и БЛД ($\chi 2$=1,33 $p<0,01$). Ни в одном случае БЛД не наблюдалось нормальное течение беременности. Наиболее ранним и частым осложнением беременности является токсикоз. Полученные результаты указывают на тот факт, что во всех группах этот признак имел место, но с различной частотой встречаемости. Для БА был характерен токсикоз первого триместра беременности, тогда как при ОБ и БЛД в основном наблюдался поздний токсикоз, который представляет опасность для здоровья беременной и плода. Основными симптомами токсикоза при БА были тошнота, которая имела место у рожениц в 4-6 недельном сроке беременности и выявлялась в 23 (20,5%) случаев и рвота у 11(10%) женщин. Причем тяжелое течение токсикоза с применением внутривенных инфузий растворов Рингера, 5% раствора глюкозы отмечалось лишь в 6 (5,3%) наблюдениях. В отличие от группы с БА пр ХОБ и БЛД имели место токсикозы второй половины- гестозы, которые характеризовались среднетяжелым при ХОБ 72 (52%) и 24 (23,3%) при БЛД и тяжелым течением у 21 (15,1%) при ХОБ и у 60 (58,2%) беременных с БЛД. Среднетяжелое течение характеризовалась умеренными отеками нижних конечностей и незначительном повышением артериального давления. При тяжелом гестозе имели место выраженные отеки конечностей, высокое стойкое артериальное давление (180/100 мм ртутного столба), протеинурия в моче, что являлось прямым показанием к прерыванию беременности с помощью кесарева сечения. Сравнительный анализ показал, что токсикоз беременности наиболее часто встречался при ОБ и БЛД по сравнению с БА (с достоверностью $p<0,01$ и $p<0,001$соответственно). Среди анализируемых групп многоплодная беременность чаще встречалась при БЛД, что осложняло течение нормальной беременности вероятностью следующих осложнений: преждевременные роды, низкий вес при рождении, задержка внутриутробного развития плода, преэклампсия, гестационный диабет, отслойка плаценты, кесарево сечение. Критерий согласия Пирсона $\chi 2$ показал достоверную принадлежность данного признака БЛД по сравнению с БА и ОБ ($p<0,005$ и $p<0,001$ соответственно).

Угроза прерывания может возникнуть в течение всей беременности; ее причины могут быть разнообразными. Если это состояние возникает на сроке до 28 недель, говорят об угрозе самопроизвольного аборта (выкидыша), а на сроках от 28 до 37 недель - об угрозе преждевременных родов. Сравнительный анализ данного признака между БА и БЛД

показал наибольшую частоту встречаемости при БЛД с достоверностью p<0,001(χ2= 1,96), несколько реже угроза прерывания при сравнении с БЛД наблюдалась при ОБ (χ2=8,25 p<0,05). Наиболее частой причиной угрозы прерывания беременности являются гестозы, урогенитальные инфекции. Хронические заболевания будущей мамы, имеющиеся у нее еще до беременности, особенно заболевания сердечно-сосудистой системы (гипертоническая болезнь, пороки сердца), заболевания почек и других органов могут стать причиной прерывания беременности на любом сроке. Так, при БА 19(17,2%) беременных страдали различными аллергическими заболеваниями: атопическим риноконьюктивитом 8(7,1%), бронхиальной астмой 7(6,2%), кожными проявлениями аллергии (атопический дерматит, крапивница) 5(3,5%). В 11 (10,1%) случаях была диагносцирована урогенитальная инфекция: хламидиоз у 4(3,5%) беременных, трихомониаз в 3(3,1%) рожениц, герпес у 4 (3,5%) женщин. В группе с ОБ наиболее часто встречающейся патологией беременности была урогенитальная инфекция ( микоплазмоз -6(4,3%), цитомегаловиру-4 (3,1%), уреоплазмоз- 7 (5%), хламидиоз- 6 (4,3%). 4 (3,1%) беременных страдали сахарным диабетом, в двух случаях (1,4%) отмечалась лекарственная аллергия в анамнезе, у 5(3,5%) женщин был выявлен хронический бронхит.

Наиболее неблагоприятная ситуация отмечалась у будущих матерей в группе с БЛД. Железодефицитной анемией страдали 37 (36,1%) женщин, хронический нефрит был выявлен у 8(8,1%), хронический ревматоидный артрит -у 6(6,1%) рожениц, сахарный диабет отмечался у 7(7,1%) будущих матерей в 12(12,1%) случаев диагностировался хламидиоз, микоплазменная инфекция была выявлена в 11 случаях (11,1%), кандидоз имел место среди 25 (24,2%) женщин, тогда как трихомониаз отмечался у 14 (13,5%) обследованных. У 16(15,5%) обследованных во время беременности отмечались повторные эпизоды ОРЗ. Сравнительный анализ частоты встречаемости болезней у беременных показали, что наиболее неблагоприятная ситуация сложилась в группе с БЛД по сравнению с БА (χ2= 1,39 p<0,01) и ОБ (χ2= 1,44 p<0,01) соответственно.

Анализ течения родов при указанных заболеваниях выявил достоверные различия в зависимости от нозологической формы. Как видно из таблицы 2, наиболее различающим признаком, характеризующим неблагоприятное течение родов, является их преждевременность. Преждевременными являются роды, которые произошли в 28 - 37 недель беременности, а масса плода при этом составляет от 1000 до 2500 г.

**Таблица 2**

**Течение настоящих родов**

| Нозология / Признак | БА | ХОБ | БЛД |
|---|---|---|---|
| Нормальные роды | 48 (43%) | 32(23%) | 0 |
| Преждевременные роды | 9 (8%) | 6 (4,3%) | 95 (92,2%) |
| Стремительные роды | 2 (2,1%) | 9 (6,4%) | 3 (3,1%) |
| Длительный безводный период | 17 (15,1%) | 31 (22,3%) | 20 (19,4%) |
| Стимуляция в родах | 14 (12,5%) | 30 (22,4%) | 18 (17,4%) |
| Кесарево сечение | 0 | 14 (10%) | 51 (49,5%) |
| Др. методы родовспоможения | 10 (9,1%) | 4 (3,1%) | 3 (3,1%) |

Однако, в настоящее по определению Всемирной Организации Здравоохранения (ВОЗ) если беременность прерывается при сроке 22 недель и более, а масса плода составляет 500 г и более, и новорожденный выживает в течение 7 дней, то роды считают преждевременными с экстремально низкой массой плода. В группе с БА оказалось, что сроки начала родов соответствовали 32-36 неделям беременности с массой плода 2900-3000г.

Наиболее неблагоприятная ситуация сложилась в группе с БЛД. Почти во всех случаях (92,2%) имели место прерывание беременности. В 6 (6,2%) случаях сроки беременности составляли 23-24 недели и отмечалась глубокая недоношенность плода с весом 650-700г. В 89 (86%) наблюдениях сроки беременности составляли 25-28 недель с массой новорожденного от 1200 до 2400г. В группе с ХОБ случаев глубокой недоношенности не отмечалось, сроки беременности находились в пределах 29-36 недель. Сравнительный анализ данного признака подтвердил достоверное различие в группах БА и БЛД (χ2=182,33

p<0,001). Для БЛД также не характерно нормальное течение родов, тогда как при БА и ХОБ они не были отягощены у 48 и 32 рожениц соответственно. Достоверность различий по данному признаку составил в группах БА и ХОБ ($\chi2$=10,89 p<0,001), в сравнении БА и БЛД ($\chi2$=53,82 p<0,001). Такие признаки отягощенности родов, как длительный безводный период, стимуляция в родах, стремительные роды и различные методы родовспоможения встречались с одинаковой частотой и не представили диагностической ценности.

Неблагоприятное течение беременности, причиной которого был гестоз, вынуждало врачей к проведению кесарева сечения. Так, в 51 (49,5%) случаях в группе с БЛД была проведена это оперативное вмешательство, что явилось достоверным дифференциально-диагностическим признаком при БА и БЛД ($\chi2$=70,53 p<0,001).

Таким образом, изучение акушерского анамнеза при БА, ХОБ и БЛД, позволило установить ряд особенностей в течение беременности и родов. Анализ определенных признаков позволяет использовать их в дифференциально-диагностических целях при хронической бронхолегочной патологии у детей. Так характерными особенностями течения беременности при БЛД оказались гестозы ( токсикозы второй половины беременности), протекающие тяжело, сопровождающиеся угрозой прерывания беременности. В результате указанных осложнений имели место преждевременные роды, кесарево сечение с последующим рождением подчас глубоко недоношенного плода. Многоплодная беременность, характерная для БЛД, также может быть использован как критерий диагностики заболевания.

Указанные отличительные особенности течения беременности и родов позволяют использовать их в дифференциальной диагностике хронических обструктивных бронхолегочных заболеваний у детей.

**ЛИТЕРАТУРА**

1. Голобородько М.М. Распространенность и факторы риска формирования болезней мелких бронхов у детей на примере г.Санкт-Петербурга и Ленинградской области: Автореф. дис ... канд. мед. наук. СПб, 2009, 27 с.
2. Дементьева Г.М. Болезни бронхолегочной системы у новорожденных / Под ред. Ю.Е. Вельтищева: М., 2004, 87 с.
3. Каракушикова К.В., рахимова Г.М. Особенности иммунного статуса недоношенных детей с перинатальной патологией в раннем неонатальном периоде// Педиатрия, 2010, №1, с.20-24
4. Миралиева У.С. Особенности течения раннего неонатального периода в зависимости от фактора риска перинатальной патологии: Автореф. дисс. … к.м.н., Душанбе, 2004, с.110
5. Неонатология.Практические рекомендации / Под ред. Райнхард Рооз. М.: Медицинская литература, 2011, 568 с.
6. Грачева Л.В., Кузьмина Т.Б., Дементьева Г.М. и др. Хронические бронхолегочные заболевания у детей, находившихся в неонатальном периоде на искусственной вентиляции легких. / Сб. научных трудов к 60 летию ГКБ №13 "Актуальные вопросы практической медицины". М.:РГМУ, 2000, с.454-457
7. Balasubramaniam V. Neonatal Chronic Lung Disease // ACCP AAP Ped Pul Brd. Rev., 2010, No.1, p.193-198
8. Cutz E., Chiasson D. Chronic lung disease after premature birth // N Engl J Med., 2008, vol.358, p.743-745
9. Kaplan A.P. Kinins,airway obstruction andanaphylaxis//Chem. Immunol. Allergy, 2010, 67-84
10. Tibboel D., Jobe A.H. Update in Pediatric Lung Disease 2009 // Am. J. Respir. Crit. Care Med., 2010, v.181, No.7, p.661-665

**Xülasə**

**Uşaqlarda kiçik bronxların xəstəliklərində neonatal dövrün xüsusiyyətlərinin differensial-diaqnostik əhəmiyyəti**

**İ.A.Mustafayev**

112 bronxial astma (BA), 139 xroniki obliterasiya olunan bronxiolit XOB), 103 bronxopulmonal displaziyalı (BPD) xəstələrin neonatal dövründə hamiləliyin və doğuşun xüsusiyyətləri öyrənilmişdir. Gestozlar, keysəriyyə əməliyatının tədbiqi, vaxtından əvvəl doğuş və nəticədə yarımçıq doğulmuşlar, çoxdöllü hamiləlik kimi əlamətlər qeyd olunan xroniki obstrukriv bronx-ağ ciyər patologiyalarının differensiasiyasında önəmli rol oynayırlar.

**Summary**

**Differential diagnostic values of the state of the neonatal period in diseases of small airways in children**

**I.A.Mustafayev**

The 112 children with bronchial asthma (BA), 139- with bronchiolithis obliterans (BO), 103 patients with bronchopulmonal dysplasia (BPD) were under observation. Studied especially the neonatal period. Analysis of pregnancy and childbirth has shown that such symptoms as preeclampsia, preterm delivery, caesarean section, multiple pregnancy can be used in the differential diagnosis of chronic obstructive pulmonary disease in children.

Daxil olub:14 01.2016

---

# RETROSTERNAL DÜYÜNLÜ URLARIN DİAQNOSTIKASI VƏ CƏRRAHİ MÜALİCƏSİNƏ MÜASİR BAXIŞLAR

**N.A.Ağayeva**

Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə, Bakı

***Açar sözlər:*** döş sümüyü arxası düyünlü ur, cərrahi müalicə, proqnoz

***Ключ слова:*** загрудинный узловой зоб, хирургическая тактика, прогноз

***Key words***: retrosternal nodular goiter, surgical treatment, prediction

Retrosternal düyünlü urlar zamanı əməliyyat vaxtı cərrahi kəsiyin hansı növünün seçilməsi, yəni kəsiyin boyundan aparılması və ya sternotomiyanın aparılması bu gün də cərrahları düşündürən məqamlardandır.

Döş sümüyü arxasında yerləşmiş qalxanabənzər vəzi ilk dəfə 1749 – cu ildə Albrecht von Haller tərəfindən təsvir edilmişdir. "Disputationes Anatomicae Selectae" adlı əsərində o, həmçinin qeyd etmişdir ki,döş sümüyü arxasında yerləşmiş qalxanabənzər vəzi üzrəində cərrahi əməliyyatın aparılması zamanı müəyyən çətinliklərlə üzləşiləcək. Döş sümüyü arxasında yerləşmiş qalxanabənzər vəzinin ilk dəfə tireoidektomiya əməliyyatını 1820-ci Klein adlı cərrah yerinə yetirmişdir [1].

Döş qəfəsi daxili qalxanabənzər vəzilər birincili və ikincili olmaqla 2 qrupa bölünür.Birincili döş qəfəsi daxilində qalxanabənzər vəzi nadir rast gəlinir və bütün retrosternal vəzilərin təxminən 1%-ni təşkil edir. Bu vəzilər anadangəlmə olaraq divararalığında abberant yerləşmiş qalxanabənzər vəzidən inkişaf edir və çox vaxt normal boyunda yerləşmiş vəzi ilə heç bir əlaqəsi olmur. Döş qəfəsi arxası yerləşmiş qalxanabənzər vəzilərin böyük əksəriyyəti boyunda yerləşmiş vəzinin boyunun fassiyaları ilə aşağıya doğru döş qəfəsinə doğru yayılması nəticəsində formalaşır ki, bunlar da ikincili retrosternal vəzilər adlanır [2].

Əməliyyat vaxtı qalxanabənzər vəzin döş sümüyünün arxasına doğru sirayət etdiyi və yaxud düyünün böyük olduğu hallarda boyundan aparılan kəsiklər əməliyyatın adekvat icra edilməsinə müəyyən çətinliklər törədir. Qalxanabənzər vəzinin lokalizasiyasını öncədən dəyərləndirilmədiyi hallarda, xəstələrdə kəsiyin aparılmasının düzgün seçilməsində problemlər yaranır. İxtisaslaşmış klinikalarda təcrübəli cərrahlar tərəfindən qalxanabənzər vəzinin boyundan aparılan kəsiklə çıxarılmasının mümkün olub-olmamasının müəyyənləşdirməyin bəzi subyektiv kriteriləri mənimsənilmişdir. Lakin qalxanabənzər vəzinin və ya düyünün lokalizasiyasından asılı olaraq sternotomiyanın aparılmasına göstərişi müəyyən edən klinik instrumental müayinələrin nəticələrinə əsaslanmış obyektiv yanaşma yoxdur [3,4].

Döş sümüyü arxasında yerləşmiş düyünlü urlar zamanı əməliyyatın öncədən planlaşdırılmasının daha bir əhəmiyyəti ondan ibarətdir ki, əgər əməliyyat sternotomik kəsiklə icra ediləcəkdirsə, o halda döş qəfəsi cərrahı və ya ürək cərrahiyyəsi ilə məşğul olan cərrahları əməliyyat otağında iştirakı təmin olunmalıdır. Sternotomiyanın aparılması ilə icra edilən əməliyyatın davametmə vaxtının və eləcə də əməliyyatdan sonrakı dövrdə stasionarda qalma müddətinin uzun olacağı barədə xəstə və qohumaları öncədən məlumatlandırılmalıdır. Bəzi hallarda xəstələr sternotomiyanın riskləri, ola biləcək fəsadlaşmaları barədə informasiyanı aldıqdan sonra dərman terapiyasının davam etdirilməsini üstün tuturlar. Lakin bu seçim

təbiidir ki, yanlışdır. Çünki qismən və ya tamamilə döş sümüyü arxasında yerləşmiş urlar zamanı, düyünün və ya vəzinin aorta qövsünün şaxələrinin sıxması, tənəffüsün çətinləşməsi kimi hallara gətirib çıxarır ki, bu narahatlıqları artıq medikamentoz dərman preparatları müalicə etmək mümkün deyil [5,6,7].

Uzun illər ərzində qalxanabənzər vəzinin cərrahiyyəsi ilə məşğul olan və retrosternal ur ilə kifayət qədər sayda əməliyyat icra etmiş cərrahlar belə bir mülahizə ilə çıxış etmişlər ki, bu xəstələrdə boyundan aparılan kəsiklə əməliyyatı başa çatdırmaq mümkündür. Lakin daha sonralar digər bir konsepsiya formalaşdır ki, 1-11% hallarda retrosternal yerləşmiş urların cərrahi müalicəsi zamanı sternotomiyaya ehtiyac duyulur [2,8].

Ümumiyyətlə, ədəbiyyat araşdırması zamanı retrosternal uru olan xəstələrin boyunda aparılmış kəsik vasitəsilə icra edilmiş cərrahi əməliyyatların yaxşı nəticələrini dərc etdirən kliniki tədqiqata rast gəlinməmişdir. Boyun və sternotom kəsiklər aparılmış xəstələrin cərrahi müalicəsinin nəticələrinin müqayisəli analizini aparan müəlliflərin son fikri isə sternotom kəsiyin daha üstün olması ilə nəticələnmişdir. Vəzinin ümumi həcminin 50%-ə qədərinin retrosternal yerləşmiş urların boyun kəsiyindən aparılmış tireoidektomiya əməliyyatı zamanı şişin profilaktikası məqsədilə tam radikal cərrahi əməliyyatın aparılması şübhə altında olmuşdur. Digər tərəfdən, retrosternal urlar zamanı vəzinin qanla təchiz edən damarların anomaliyaları və yerdəyişmələri çox rast gəlinidiyindən, hemostazın tam dəyərli icra edilməsinin manevr baxımından daha zəif imkana malik olmasını nəzərə alaraq boyundan aparılan kəsik zamanı cərrahi əməliyyatın qarşıya qoyduğu problemləri adekvat həll etmək tam mümkün olmur [9,10,11,12].

Qismən döş sümüyü arxası və ya retrosternal yerləşmiş qalxanabənzər vəzinin cərrahi əməliyyatları zamanı kəsiyin növünün seçilməsi zamanı ilk növbədə vəzinin anatomo- topoqrafik yerləşməsinə nəzər yetirmək lazımdır. Palpator fizikal müayinənin imkanları retrosternal urlar üçün çox zəifdir. USM zamanı məqsədyönlü olaraq müəyyən ölçülərin götürülməsi ilə müəyyən qədər məlumat toplamaq mümkündür. Lakin hazırda tibbdə daha dəqiq və informativ olan müayinə üsulu kompyüter tomoqrafiya üsulu mövcuddur [12,13].

İxtisaslaşmış cərrahi endokrinoloji klinikalar və ya şöbələrdə düyünlü ur ilə cərrahi əməliyyata hazırlanan xəstələrin gündəlik rutin planında yalnız döş qəfəsinin rentgenoskopiyası mövcuddur. Böyük ölçülü düyünlər zamanı, əgər traxeya və qida borusuna kompressiya əlamətləri varsa, onda xəstələrə həzm traktının kontrast rentgen müayinəsi yerinə yetirilir. Kontrast rentgen müayinə zamanı qida borusunun kompressiyası və ya yerdəyişməsi vizualizasiya etmək mümkün olduğu halda, qalxanabənzər vəzinin özünün lokalizasiyası və ölçüləri haqda informasiya almaq olmur. Bu zaman cərrahi əməliyyatın aparlması hansı kəsiyin seçilməsi də tam dürüstlüklə müəyyən edilmir [14,15].

Kompyüter Tomoqrafiya müayinəsi döş qəfəsi arxası yerləşmiş urlar zamanı kifayət qədər məlumat verə bilər. Lakin heç də bütün hallarda xəstələrə düyünlü ura görə KT müayinəsi aparılmır və vəzinin qismən döş qəfəsində yerləşməsi yalnız cərrahi əməliyyat zamanı aşkara çıxır. Döş qəfəsində lokalizasiya olunmuş və ya qismən döş qəfəsi arxasında yerləşmiş düyünlü urların əməliyyatdan öncə kəsiyin növünün seçilməsinin klinik-instrumental müayinələrin köməyi ilə təyin etmək cərrahların işində mühüm əhəmiyyətli faktor ola bilər.Qeyd edilənlər bizə bir araşdırmanın aparılması üçün təkan vermişdir ki, USM və KT- nin, eləcə də kontrast Rentgen müayinələrinin imkanlarından istifadə edərək, kompleks yanaşma yolu ilə retrosternal yerləşmiş urların əməliyyat kəsiyinin növünü müəyyənləşdirməyin mümkünlüyünü araşdıraq [4,7,16].

Əgər nəzərə alsaq ki, ümumiyyətlə, dünya əhalisinin təxminən 5%-i, endemik zonalarda yaşayanların isə 10%-ə qədərində düyünlü ur aşkar etmək mümkündür, retrosternal yerləşmiş urların yayılma faizi tireoidektomiya olunanlar arasında 2% ilə 26% arasında dəyişir. Bu inter= valın geniş olmasının əsas səbəbi, müxtəlif müəlliflər tərəfindən retrosternal urların dəyərləndirilməsində müxtəlif kriteriyalardan istifadə edilməsidir. Bəzi müəlliflər hesab edirlər ki, əgər vəzinin sərhədləri döş qəfəsinin girəcəyindən aşağıda yerləşmişsə, ona retrosternal demək olar. Digər bir dəyərləndirməyə əsasən isə vəzin ümumi kütləsinin 50%-i və daha çox döş qəfəsi girəcəyindən aşağı yerləşdiyi hallarda bu halda onu döş sümüyü arxası lokalizasiyaya malik olmasından danışıla bilər [16,17].

Tibbi ədəbiyyatda döş qəfəsində yerləşmiş qalxanabənzər vəzilərin ən geniş yayılmış aşağıdakı təsnifatlarına rast gəlinir. Tarixinə görə ilk məlumat 1939-cu ildə Crile tərəfindən verilmişdir və o bildirmişdir ki, o vəzilərə döş sümüyü arxası demək lazımdır ki, onlar aorta qövsünə qədər uzanır. Onun ardınca Lindskog və Goldenberg kimi müəlliflərin fikri ədəbiyyatda işıqlandırılmışdır. Müəlliflər hesab etmişlər ki,

Rentgen müayinəsi zamanı əgər qalxanabənzər vəzidən inkişaf etmiş düyün və ya vəzinin aşağı qütbü IV döş fəqərəsinə qədər uzanırsa, o halda döş sümüyü arxasında yerləşmiş urlardan söhbət gedə bilər. Hedayati və McHenry tərəfindən təklif edilmiş dəyərləndirmənin əsas mahiyyəti ondan ibarətdir ki, döş sümüyünün dəstəyindən (manubrium) aşağı düşmüş istənilən vəzi döş sümüyü arxası qalxanabənzər vəzi kimi qeydə alınmalıdır. Katlic və həmm. tərəfindən verilmiş klassifikasiya isə daha çox populyarlıq qazanmışdır. Bu klassifikasiyaya əsasən vəzi kütləsinin əgər 50%-dən çox hissəsi döş qəfəsinin girəcəyindən aşağıda yerləşmişsə, onda bu vəziləri döş sümüyü arxası vəzilərə aid etmək lazımdır.

Terminologiya ilə yanaşı döş sümüyü arxası yerləşmiş düyünlü urların diaqnostikası və cərrahi müalicəsində olan yanaşmalarda da biri – birindən əhəmiyyətli fərqlənən strategiyalara rast gəlinmişdir.

Boyun nahiyyəsinin və döş qəfəsinin kompyüter tomoqrafik müayinəsi döş qəfəsi daxilində yerləşmiş urların ölçü, sərhədlərini müyyənləşdirmək ilə yanaşı, vəzinin toxuma tərkibinin differensasiya edilməsini təmin edir. Michel və Bradpiece kimi müəlliflər kliniki araşdırmaları nəticəsində müəyyən etmişlər ki, retrosternal urlar zamanı kompyüter tomoqrafiyanın diaqnostik həssaslığı 100%, USM- in həssalığı 77%, döş qəfəsinin rentgen müayinəsinin həssaslığı isə 59% təşkil edir.

Araşdırmalar göstərmişdir ki, döş qəfəsi daxilində yerləşmiş qalxanabənzər vəzi toxumasının radioaktiv yodu udmaq qabiliyyətinə malik deyil, bu səbəbdən $^{131}$J maddəsi ilə retrosternal urların radioizotop dəyərləndirilməsi heç bir diaqnostik əhəmiyyəti yoxdur. Maqnit-Rezonans Tomoqrafiyanın (MRT) döş qəfəsi daxili urların differensial diaqnostikasında rolunun dəyərləndirilməsində də müəyyən ziddiyətlər mövcuddur. Bəzi müəlliflər hesab edirlər ki, MRT informativliyi yüksəkdir, digərləri isə tamamilə əks mövqedə duraraq, yenə KT müayinəsinin imkanlarını yüksək dəyər- ləndirirlər [18,19].

Döş qəfəsi daxili yerlşmiş urların diaqnostikası əksər hallarda o zaman aparılır ki, xəstələrdə ya yuxarı boş venanın, yaxud da traxeyanın sıxılması və bu kompressiya ilə əlamətlər meydana çıxır. Düyünlü uru olan hallarda isə xəstə əməliyyata hazırlanan zaman diaqnostikanın profili daha da genişləndirilir [20,21].

Dəqiq differensasiya olunmuş düyünlü uru olan xəstələrdə cərrahi əməliyyata göstəriş qoyulduqdan və razılıq alındıqdan sonra xəstələr əməliyyata götürülür. Artıq qeyd edildiyi kimi, əksər cərrahlar boyundan aparılmış kəsiklə əməliyyatın adekvat icra edilməsini kliniki tədqiqatlarla sübut etmişlər. Raffaelli M. və həmm. tərəfindən dərc edilmiş məqalədə qeyd edilir ki, tireoidektomiya olunmuş 2263 xəstədən 355 nəfərində qalxanabənzər vəzi döş sümüyü arxası yerləşmişdir. Yalnız 2 xəstədə (0,6%) sternotomiya aparılmasına ehtiyac olmuşdur. Xəstələrin birində qalxanabənzər vəzinin birincili olaraq döş sümüyü arxasında yerləşməsi, digərində isə residiv bədxassəli törəmə olmuşdur. Müəlliflər kliniki tədqiqatlarının nəticələri əsasında sübut etməyə çalışmışlar ki, retrosternal urların böyük əksəriyyətini boyundan aparılın kəsiklə tam çıxarmaq mümkündür [18].

Bu fikri bölüşən bir sıra digər müəlliflər də, retrosternal urlar zamanı boyundan aparılan kəsiyin üstünlüklərini qeyd edir, ağırlaşma faizinin aşağı, ölüm faizinin isə ümumiyyətlə olmamasını fakt kimi göstərirlər [2].

Servikal və ya sternotom kəsiyin aparılmasının tərəfdarları qeyd edilən konteksdə daim qarşılıqlı ziddiyətli mövqelərdə dururlar. ABŞ-ın Nyu York şəhər xəstəxanasında tireoidektomiya olunmuş 33,900 xəstənin cərrahi müalicəsinin nəticələrinin analizi göstərmişdir ki. bu xəstələrdən 1153 nəfərində qalxanabənzər vəzi retrosternal yerləşmişdir. Müəlliflər tərəfindən boyunda yerləşən və retrosternal urların cərrahi müalicəsinin nəticələrini müqayisə edilmişdir. Məlum olmuşdur ki, servikal kəsiklə retrosternal urlar xaric edilmiş xəstələrdə qayıdan qırtlaq sinirinin zədələnməsi, postoperasion qanaxma, dərin venaların trombozu və tənəffüs çatmamazlığı kimi ağırlaşmalara daha çox təsadüf edilir [11,23]

İnternet portalında araşdırma aparılan zaman çoxsaylı oxşar və qarşılıqlı ziddiyət təşkil edən diskusiyalara rast gəlinir. Lakin uzun sürən mübahisələrdən sonra nəhayət ki, müəyyən ortaq məxrəcə gəlmək mümkün olmuşdur.

Alman alimlərinin kliniki materialında qeyd edilir ki, 88 retrosternal yerləşmiş qalxanabənzər vəzinin xaric edilməsi zamanı 27 xəstədə (30,7%) sternotomiyanın aparılmasına ehtiyac yaranmışdır. Son nəticə olaraq belə qərara gəlinmişdir ki, residiv döş sümüyü arxası yerləşmiş düyünlü urlar, birincili retrosternal yerləşmiş vəzilər, arxa divararalığına sirayət etmiş vəzilər və abberant zoblar sternotomiyanın aparılması üçün risk faktorları hesab edilir.

Risk faktorlarının varlığında sternotomiyanın aparılmasını tələb edən daha bir neçə kliniki tədqiqatların nəticələri də dərc edilmişdir. Tədqiqatçılardan bəziləri, qeyd edirlər ki, retrosternal düyünlü urları servikal kəsiklə çıxarmaq mümkündür, lakin bu əməliyyatı sternotom kəsiklə daha rahat və radikal etmək mümkün olardı [10].

Bir sıra kliniki tədqiqatlarda retrosternal yerləşmiş residiv düyünlü urlar zamanı əgər əvvəllər xəstəyə servikal kəsiklə əməliyyat icra edilmişdirsə,indi mütləq sternotomiyanın aparılmasını təkid edirlər. Həmçinin retrosternal qalxanabənzər vəzinin bədxassəli şişinə şübhə vardırsa, radikallıq nöqteyi nəzərdən sternotom kəsiklə əməliyyatı başlamağı tövsiyyə edirlər [13]

Bütün qeyd edilənləri yekunlaşdıraraq qeyd etmək istərdik ki, döş sümüyü arxası düyünlü urlar üçün cərrahi əməliyyat kəsiyinin düzgün seçilməsi, istər əməliyyatın nəticələrinin yaxşılaşdırılması, istərsə də xəstənin əməliyyatdan sonrakı residivsiz rahat həyat sürməsi baxımından çox vacibdir. Bu istiqamətdə aparılmış kliniki tədqiqatların nəticələrinin analizi sübut etmişdir ki, əməliyyatdan öncə risk faktorlarına əsasən kəsiyin servikal və sternotom olmasını proqnozlaşdırmaq olar [23,24,25,26]. Bizim tədqiqatın qarşıya qoyduğu vəzifələrdən biri də məhz bu məsələnin həllinə doğru istiqamətlənmişdir. Bizdə belə bir fikir formalaşmışdır ki, bu vaxta qədər retrosternal düyünlü urlara görə əməliyyat olunmuş xəstələrin müayinə və müalicəsinin nəticələrini, xüsusən də, USM, KT və Rentgen müayinələrinin cavablarını və şəkillərin müəyyən hissələrini, fraqmentlərini çarpaz korrelyasion üsul ilə analiz etsək, növbəti bu tip kontingentli xəstələrdə sternotom kəsiyin aparılmasını tələb edən kriteriləri təyin edə bilərik.

## ƏDƏBİYYAT


1. El Hammoumi M., El Oueriachi F., Arsalane A., El Hassane K. Surgical Management of Retrosternal Goitre: Experience of a Moroccan Center // Acta Otorrinolaringol Esp., 2014,v.65,p.177-182.
2. Abboud B., Sleilaty G., Mallak N., AbouZeid H., Tabchy B. Morbidity and mortality of thyroidectomy for substernal goiter //Head Neck., 2010, v.32(6), p.744-749.
3. Acprzak G., Karas J., Rzechonek A., Blasiak P. Retrosternal goiter located in the mediastinum: surgical approach and operative difficulties // Interact CardiovascThorac Surg., 2012, v15, p.935-937.
4. Ahmed M., Ahmed E., Mahadi S. Retrosternal goiter: the need for median sternotomy // World J Surg., 2006, v.30(11), p.1945-1949.
5. Bizakis J., Karatzanis A., Hajiioannou J., Bourolias C., Maganas E., Spanakis E. et al. Diagnosis and management of substernal goiter at the University of Crete // Surg Today, 2008, v. 38, p.99-103.
6. Burns P., Doody J., Timon C. Sternotomy for substernalgoitre: an otolaryngologist's perspective // J Laryngol Otol., 2008, v.122, p.495-499.
7. Cannon CR, Lee R, Didlake R. Management of the substernal goiter: a team approach // J Miss State Med Assoc., 2010, v. 51(7), p.179-182.
8. Chauhan A., Serpell JW. Thyroidectomy is safe and effective for retrosternal goiter // Aust NZ J Surg., 2006, v.76, p.238-242.
9. Casella C., Pata G., Cappelli C., Salerni B. Preoperative predictors of sternotomy need in mediastinal goiter management // Head and Neck 2010, v.32(9), p.1131-1135.
10. Cichonr S., Anielski R., Konturek A., Baczynr ski M., Cichonr W., Orlicki P. Surgical management of mediastinal goiter: risk factors for sternotomy // Langen. Arch Surg., 2008, v.393, p.751-757.
11. Cohen JP. Substernal goiters and sternotomy // Laryngoscope,2009, v. 119(4), p.683-688.
12. Coskun A., Yildirim M., Erkan N. Substernal Goiter: When is a Sternotomy Required? // Int Surg., 2014, v. 99, p.419-425.
13. De Perrot M., Fadel E., Mercier O. et al. Surgical management of mediastinal goiters: when is sternotomy required? // ThoracCardiovasc Surg., 2007, v.55, p.39-43.
14. Erbil Y., Bozbora A., Barbaros U., Ozarmagan S., Azezli A., Molvalilar S. Surgical management of substernal goiters: clinical experience of 170 cases // Surg Today 2004, v. 34(9), p.732-736.
15. Flati G., De Giacomo T., Porowska B., Flati D., Gaj F., Talarico et al. Surgical management of substernal goiters: when is sternotomy inevitable? // Clin Ter., 2005, v.156(5), p.191-195
16. Sakkary M., Abdelrahman M., Mostafa A. et al Retrosternal goiter: The need for thoracic approach based on CT findings: Surgeon's view // Journal of the Egyptian National Cancer Institute, 2012, v.24, p.85-90.
17. Shen W., Kebebew E., Duh Q., Clark OH. Predictors of airway complications after thyroidectomy for substernal goiter // Arch Surg., 2004, v.139(6), p.656-659
18. Raffaelli M., De Crea C., Ronti S. et al Substernal goiters: incidence, surgical approach and complications in a tertiary care referral center // Head Neck. 2011, v. 33(10), p1420-1425.
19. Huins C., Georgalas C., Mehrzad H.., Tolley N. A new classification system for retrosternal goitre based on a systematic review of its complications and management // Int J Surg., 2008, v.6, p.71-76.

20.Neves M., Rosano M., Hojaij F. et al A critical analysis of 33 patients with substernal goiter surgically treated by neck incision // Braz J Otorhinolaryngol., 2009, v.75, p.172-176.
21.White M., Doherty G., Gauger P. Evidence-based surgical management of substernal goiter // World J Surg., 2008, v. 32(7), p.1285-1300.
22.Pieracci F., Fahey TJ 3rd. Substernal thyroidectomy is associated with increased morbidity and mortality as compared with conventional cervical thyroidectomy //J Am Coll Surg., 2007, v. 205,p1-7.
23.Pace-Asciak P., Higgins K. Management of intrathoracic goiter // Can J Surg. 2008, v.51, p.111-112.
24.Rosenthal R., Oerteli D. Multinodular, retrosternal goiter. In:Oertli D, Udelsman R, editors. Surgery of the thyroid and parathyroid glands. Springer, 2007, p.179-90.
25.Rugiu M., Piemonte M. Surgical approach to retrosternal goitre: do we still need sternotomy? // ActaOtorhinolaryngol Ital. 2009, v.6, p.331-338.
26.Sancho J., Kraimps J., Sanchez-Blanco J.et al. Increased mortality and morbidity associated with thyroidectomy for intrathoracic goiters reaching the carina tracheae // Arch Surg., 2006, Vol. 141(1), p.82-85

**Резюме**

**Современные взгляды на диагностику и лечение загрудинного узлового зоба**

**Н.А.Агаева**

Целью данного исследования явилось, изучить и проанализировать разные подходы в лечении загрудинного зоба. Вопрос о проведении шейного разреза или стернотомии остается актуальным. Имеются разные данные о результатах хирургического лечения загрудинного зоба. Прогнозирование метода доступа до хирургического вмешательства имеет огромное значение. С помощью различных фрагментов из протоколов инструментальных методов можно определить адекватный доступ для хирургического вмешательства.

**Summary**

**Modern views on the diagnosis and treatment of retrosternal nodular goiter**

**N.A.Agayeva**

The aim of this study was to examine and analyze the different approaches in les chenii retrosternal goiter. The issue of cervical incision or sternotomy is still relevant. There are different data on the results of surgical treatment of retrosternal goiter. Prediction of the access method before surgery is crucial. Using the various fragments of the protocols instrumental methods can determine the appropriate access to the surgical intervention.

Daxil olub:13 01.2016

---

# POSTERİOR C1-C2 TRANSARTİKULYAR VİDA YERLƏŞDİRMƏ (MAGERL) VƏ POSTERİOR C2-C3 STABİLİZASİYA (HANGMAN) TEXNİKASI

**F.Ə. Qaralov**

*Azərbaycan Tibb Universiteti, Neyrocərrahiyyə kafedrası, Bakı*

***Açar sözlər:*** oynaqlar, posterior C1-C2, posterior C2-C3
***Ключевые слова:*** связки, постериор C1-C2, постериор C2-C3
***Keywords:*** bundle, posteriori C1-C2, C2-C3 posteriori

Atlantoaksial oynaq boynun rotasion hərəkətlərinə imkan verən oynaqdır. Oynaqların səthi buna görə düzdür və arada disk yoxdur. Ayrıca sarı, ön boylama və arxa boylama bağ çox azdır və ya yoxdur. Köndələn bağ odontoidi C1 fəqərə səviyyəsində spinal kanalın ön qismində tutaraq həm rotasiyaya yardım edir, həm də arxaya sürüşərək onurğa beyninə təzyiq etməsinə mane olur. Köndələn bağın qopması halında atlantoaksial qeyri-stabillik əmələ gəlir. Xüsusilə travma, infeksiyalar, revmatoid artrit kimi sistem infeksiyalar səbəbilə köndələn bağ zədələnə bilər. Odontoid sınıqlarında anterior və ya posterior yanaşma ilə cərrahiyyə tətbiq edilə bilər. Cərrahiyyə əməliyyatlarının aparılması yolunun seçilməsi cərraha və xəstəyə görə dəyişdiyi qeyd olunur [1,2]. Posterior fiksasiya yaxşı füzyon əmələ gətirməklə bərabər boynun hərəkətlərini

məhdudlaşdırır. Anterior odontoid vida ilə fiksasiyanın boyun hərəkətlərini nə qədər qoruduğu düşünülsə də, klinik tədqiqatlarda postoperativ dönəmdə boyun hərəkətlərinin məhdudlaşdığı göstərilir [10].

Posterior transartikulyar vida ilə fiksasiya xüsusilə köndələn bağın qopduğu odontoid sınıqlarında, anterior odontoid vidalamanın aparıla bilinməyən qısa boyunlu, obez və ya digər komorbidliyi olan xəstələrdə, anterior odontoid vida taxılmış, lakin fiksator çatışmazlığı və psevdoartroz əmələ gələn xəstələrdə reviziya məqsədilə, ser vikal immobilizasiyanın daha rahat tolerə edildiyi heriatrik xəstələrdə, boylama və köndələn xarakterdə qeyri-stabil C2 sınıqlarında, C1-C2 laminalarının rezeksiya edil diyi və bu səbəbdın telləmə aparılmayan hallarda, posterior subluksasiya göstərən odontoid sınıqlarında, odontoidin patoloji sınıqlarında, osodontoidin genetik liqamentoz laksite (Larsen sindromu) və qeyri-stabil Cefferson sınıqlarında tətbiq edilir [8,11]. C2-nin qövs sınıqları əsasən yıxılma, suya atılama və nəqliyyat qəzası kimi deselerasiya qüvvələri nəticəsində əmələ gəlir. Bu əsasən lateral fleksiyanın da iştirakı olan hiperekstensiya və aksial yüklənmə ilə olur. Hiperfleksiyanı izləyən hiperekstensiya daha nadir görülən bir mexanizm olmaqla yanaşı ən ciddi sınıq çıxıqlı paternləri bu mexanizmdə əmələ gəlir (4). Bu sınıq paterni üçün C2-nin travmatik spondilolistezi və aksisin həlqə sınıqları terminləri istifadə edilməklə birlikdə əksər hallarda "Hangman" sınığı olaraq qeyd edilir. Əslində Hangman sınığı dəyişik mexanizm ilə əmələ gələn və dəyişik radioloji görüntüləri olan bir qrup zədələnmələrin toplusudur və hamısı tam olaraq asılmalarda görülən və Vood-Jones tərəfindən təsvir edilən sınığa bənzəmir [11]. Müasir dövrdə bu sınıqlar ən çox motosiklet qəzaları sonrasında yaranır və 6,5% nisbətində onurğa beyni yaraları ilə birlikdə baş verir [9,12]. Hangman sınıqları böyük bölümü"halo-cast" və "halo-vest" kimi üsullarla konservativ olaraq müalicə edilməklə birlikdə, bir qismi də cərrahi müalicə tələb edir. Hangman sınıqlarını Effendi və əməkdaşları sınığın əmələ gəlmə mexanizminə görə üç yerə ayırmışlar. 1-ci tip sınıqlar aksial yüklənmə və hiperekstensiya ilə əmələ gəlir. 2-ci tip sınıqlar hiperekstensiya və buna görə əmələ gələn hiperfleksiya ilə yaranır. 3-cü tip sınıqlardakı əsas yüklənmə isə fleksiya yönündədir. Bu təsnifata daha sonra Levine və Edvards fleksiya-distraksiya mexanizmi ilə əmələ gələn 2 a tipini də, əlavə etmişlər [5,7]. 1-ci tip Hangman sınıqları non-deplasedir və stabildir. Sərt boyunlu, sterno-oksipito-mandibulyar imobilizasiya korseti və ya Minerva ortezi ilə müalicə edilir [4]. 2 və 2 a tip sınıqlar qeyri-stabil olma ehtimallarına baxmıyaraq serviko-torasik ortezlər ilə müvəffəqiyyətlə müalicə edilə bilir [3]. Konservativ müalicə ilə uğurlu olmayan və ya ortez istifadəsini tolerə edə bilməyən xəstələrdə cərrahi müalicə göstərişdir. 3-cü tip sınıqlar qapalı olaraq reduktə edilməyib, açıq reduksiya və daxili fiksasiya tələb edir. Bu zaman cərrahi müalicənin müddəti,xəstənin tibbi durumu ,spinal təzyiq miqdarı, artan nevroloji defisitin olması ,əməliyyatxana və briqadanın uyğunluğu nəzərə alınaraq təyin edilməlidir. Uyğun şərtlər əldə edildikdə erkən mobilizasiya və reabilitasiya üçün cərrahi müalicəni mümkün olan ən qısa zamanda aparılması düşünülür.

Tədqiqatın **məqsədi** posterior C1-C2 transartikulyarvida yerləşdirmə və posterior C2-C3 stabilizasiya texnikasının tətbiqinin nəticələrinin araşdırılması olmuşdur.

**Tədqiqatin material və metodları.** Tədqiqatlara 64-ü qadın, 170-i isə kişi olmaqla cəmi 234 xəstəyə posterior servikal fiksasiya tətbiq edilmi xəstə daxil edilmişdir. Qadın xəstələrin yaş həddi 23-81(orta hesabla 53,9), kişi xəstələrin yaş həddi isə 16-82( orta hesabla 53,3) arasında olmuşdur.Xəstələrin 125-i servikal spondilotik mielopatiya, 64-ü travma, 16-sı servikal spinal şişləri, 15-i genetik anomaliya və 4-ü isə revmatik xəstəliklərlə bağlı əməliyyat edilmişdir.Xəstələrin 23-nə eyni zamanda qonşu seqment olaraq oksipitoservikal, 14-nə isə servikotorakal nahiyyə fiksasiyası tətbiq edilmişdir.

Bütün bu xəstələrə 1520 lateral mass vida taxılmışdır. Vidaların ölçüləri orta hesabla 14-20x3,5-4 mm olmuşdur. Cərrahi olaraq Magerl texnikası tətbiq edilmişdir.Dəyərləndirdiyimiz xəstələrin 5,55%-də infeksiya əmələ gəlmiş, toplam 10 xəstə(4,27%) isə dərin yara yeri infeksiyası səbəbi ilə müalicə ( reviziya ) edilmişdir.Bütün xəstələrin 6,83% və ya 16-sında fiksator problemi ilə əlaqədar olaraq təkrari (reviziya) cərrahiyyəsi aparılmışdır.

**Tədqiqatın nəticələri və onun müzakirəsi.** Tədqiqatlar aparılarkən ilk olaraq posterior C1-C2 transartikulyar vida yerləşdirmə (Magerl) texnikası tətbiq edilmişdir.Bunun üçün xəstə prone pozisiyasında mismarlı başlığı alınaraq və baş qismi fleksiyaya gətirilərək fiksə edilir. Fleksion pozisiyanın iki önəmli avantajı vardır. Densin normal pozisiyaya gəlməsinə imkan yaradır və vida istiqamətinin uyğun pozisiyaya gəlməsinə imkan yaradaraq vida göndərilməsini asanlaşdırır. Floroskopiya ilə C1-C2 oynağı əldə edilir, vida istiqamətində xəta olmaması üçün

pozisiyanın tam yan olmasına xüsusi diqqət edilməlidir. Xəstənin kürəyinə qədər steril olaraq təmizliyinin əldə edilməsi və örtülməsi lazımdır. Çünki vida giriş dəliyi vida istiqamətinə görə buralara qədər enə bilər.Xəstə örtüldükdən sonra C0-C3 ortalayacaq şəkildə kəsik aparılır. Subperiostal seksiya ilə faset kapsulasına zərər vermədən C1-in posterior qövsü, C2-nin tin çıxıntısı, laminaları və C2-C3 faset oynağı əldə edilir. Xüsusilə C2-nin istmus qisminə tamamilə hakim olunmalıdır. Bunun üçün atlantoaksial oynağın posterior kapsulası açılır, əyri disektor yardımı ilə C2 kökü və onu çevrələyən venoz elementlər kraniala doğru diqqətlə ekartə edilir. Əgər C2 kökü ətrafındakı venoz kələfdə qanaxma olarsa, surgicell və ya süngər C2 istmusu ilə venoz kələf arasına yerləşdirilərək qanaxma dayandırılır. Diseksiya nəticəsində C2 istmusu tamamilə ortaya çıxarılır. C2-nin istmusunun sıyrıla bildiyi qədəri vidanın içindən keçəcəyi xəttin başlanğıc qismini təşkil edir. C2 giriş nöqtəsi C2 inferior fasetin alt hüdudundan 2-3 mm yuxarı, C2-C3 fasetinin medial kənarından 2-3 mm lateraldır. Giriş nöqtəsindəki kortikal sümük ilk dəlici ya da dril yardımı ilə dəlinib rəhbər telin girəcəyi bir çalışma teli yaradılır. C1-C2 transartikulyar vida yerləşdirmək üçün sagital planda olduqca çox açmaq lazımdır və açdığımız kəsik xətti buna imkan verməz. Bu səbəbdən üst torakal bölgədə uyğun ölçüdə vida yollanmasına imkan verən yardımçı kəsiklər aparılmalıdır. Uzun bir rəhbər tel lateral floroskopiya yardımı ilə lazımı vida pozisiyasında tutulur və sagital planda dəriyə qarşı gələn qismi işarələnir. Daha sonra anteroposterior planda bilateral C2 istmusunun bərabərindən bir xətt çəkilir və sagital planda aşkar etdiyimiz nöqtə ilə birləşdirilərək yardımçı kəsik yeri təyin edilir. Kəsik yeri təyin edildikdən sonra hər iki tərəfə 1.5 sm-lik mini kəsik aparılır. Hemostatik klemplər vasitəsilə açılan kəsiklərdən dərialtı və fassiya genişləndirilir. Əgər istifadə olunacaqsa rəhbər boruya yer açılır. Ardından vida yerləşdirmək üçün uyğun açıqlıqda və giriş nöqtəsini hədəf alacaq şəkildə rəhbər boru birləşdirilə bilər. Buna görə rəhbər tel elektrikli dril yardımı boru içindən yeridilir və ucu giriş nöqtəsinə yerləşdirilir. Rəhbər tel giriş nöqtəsinə yerləşdirildikdən sonra dril yardımı ilə C1-in ön qövsünün orta qismini təşkil edən anterior qabarcıq hədəf alınacaq şəkildə istmusun içindən yuxarıya doğru və təxmini olaraq $10^0$ mediala yönlənəcək şəkildə göndərilir. Burada tel C2 pedikuluna doğru deyil, pars interartikulyarisdən C1-C2 oynağını keçəçək şəkildə yeridilməli və bütün iş sırasında lateral və AP floroskopik görüntülərdən faydalanılmalıdır. Rəhbər tel C1-2 oynağını keçib C1-in ön qövsünün ortasına gəldiyində dayandırılır. Rəhbər tel yerləş-dirildikdən sonra gedəcək vidanın boyu rəhbər tel üzərindən ölçülərək uyğun vida uzunluğu təsbit edilir. Vida rəhbər tel yardımıyla göndəriləcəyi üçün uyğun vida sistemi istifadə edilir. Normalda vidanın lag vida olması lazım olmaz, çünki vidanın yaradacağı kompressiv yüklənməyə ehtiyacımız yoxdur. Əgər C1-in anterior subluk-sasiyası varsa lag vida istifadə olunur və vida boyu ölçülən vida uzunluğundan 1-2 mm daha qısa olmalıdır. Əksər hallarda uzunluq olaraq 40 mm, çap olaraq 3,5-4 mm qalınlığında vidalar seçilməlidir. Əgər sümüyün quruluşu yumşaq-dırsa, uyğun vida rəhbər tel üzərindən yerləşdirilə bilər. Sümüyün quruluşu sərt olduqda isə vida yerləşdirilmədən öncə 2 və ya 2,5 mm dril ilə C1-ə girdiyində cərrah atlas və aksisin təxminən sıxıldığını hiss edə bilər. Vida yerləşdirildikdən sonra lateral floroskopik görüntü ilə uyğun vida pozisiyası doğrulanmalıdır. Vida pozisiyası doğrulandıqdan sonra rəhbər tel dril yardımı ilə çıxarılır və vida yerləşdirilməsi tamamlanmış olur. Bu iş sonra qarşı tərəfə edilir.Əgər xəstədə anormal çıxışlı vertebral arteriya *(high riding vertebral artery)* varsa, vertebral arteriya yaralanması riski çox yüksəkdir. Anormal çıxışlı vertebral arteriya C1 üzərində daha mediala dönüş etməsi, çox yuxarı və ya çox arxada yerləşməsi kimi təsvir edilir və C1 istmusunu daraldır. Anormal çıxışlı vertebral arteriya tək tərəfli isə, normal olan tərəfdən tək vida yeləşdirilə bilər. Lakin bu halda füzyon üçün eksternal immobilizasiya lazımlıdır. Anormal çıxışlı vertebral arteriya olduqda fərqli vasitələr ilə C1-2 vida yerləşdirilməsi təklif edilir. Neo və əməkdaşları, Magerl orta qisminə doğru deyil, C2 istmusunun ən medial və posterior qismindən keçəcək şəkildə yönləndirilməsi təklif edilmişdir [5,6]. Lee və əməkdaşları tərəfindən giriş nöqtəsi olaraq C2-3 faset oynağının orta nöqtəsindən 2 mm medial, 5-6 mm superioru istifadə edilmiş və anterior C1 qövsünün inferior qisminin hədəfləyərək vida yollanması təklif edilmişdir( 4,5 ). Lakin bu üsul zəif tutuş əmələ gətirdiyi üçün və vertebral arteriya yarlanma riskini yetərincə azaltmadığı səbəbindən istifadədən kənarlaşdırılmışdır. C1-2 transartikulyar vida yerləşdirilməsi planlaşdırılan bütün hallarda əməliyyat öncəsi sagital, koronal, aksial, incə kəsikli tomoqrafiya görüntüləri dəyərləndirilməli, cərrahi anatomik quruluşların təyini və lazım olarsa transartikulyar vida yerləşdirməkdən imtina edilməsi kimi ağırlaşmanın qarşısını alma üsuludur.

Vida yerləşdirildikdən sonra sümük qreft ilə birlikdə C1-2 sublaminar telləmə edilir. Sublaminar telləmə edilməsi güclü bir stabilizasiya əmələ gətirir. C1 qövsünün inferior kənarı, C2 tin çıxıntısının və posterior C2 qövsünündril və ya kerrison rongeur yardımı ilə dekortikə edilir. C2 lamina ilə tin çıxınıtının birləşdiyi yerə telin yerləşə biləcəyi şəkildə kerrison rongeur yardımı ilə bilateral kəsik götürülür. Təxminən 4 sm uzunluğunda, 3sm genişliyində trikortikal autoloji sümük qrefti posterior qalça qanadından alınır. Yuvarlaq olan üst kortikal kənar lekssell yardımıyla yonularaq uyğunluq dərəcəsi artrılır və C1-2 məsafəsinə uyacaq şəkildə hazırlanır. Qreftin C1 posterior qövsü səviyyəsində olacaq şəkildə yüksəkliyi uyğunlaşdırılır və C2 tin çıxıntısına gələn qisminə kəsik açılaraq tam olaraq oturması əldə edilir. Son olaraq hazırlanan qreft C1 posterior qövsü ilə C2 arasına diqqətli bir şəkildə yerləşdirilərək yoxlanılır. Daha sonra qreft keçici olaraq və tel yerləşdirmə işinə başlanılır. Yerləşdiriləcək tel ikiyə qatlanır və telin hər iki ucu orta xəttə C1 posterior qövsünün altından keçirilir. Hazırlanan sümük qreft yerinə yerləşdirilir və telin ikiyə qatlanan qismi sümük qreftin üstündən və C2 tin çxıntısının arxasından daha öncə hazırlanan kəsiyə uyacaq şəkildə yerləşdirilir. Telin boşda olan iki ucu döndürülərək sümük qreft C1 və C2 arasında diqqətli sıxışdırılaraq bağlama işi aparılır. Daha sonra posterior C1-2 qövsünün və sümük qreftin səthi drillənərək dekortikasiya edilir. Radioloji olaraq füzyon oluncaya qədər xəstə Philadelphia tipli yarımsərt korset istifadə etməlidir. Əgər posterior elementlərin yoxluğundan dolayı telləmə apar-maq mümkün olmazsa C1-2 arasına lateraldan sümük qreft yerləşdirilməli və 12 həftədən az olmamaq şərti ilə servikal kolar taxılmalıdır.

Posterior C2-C3 stabilizasiya (Hangman) cərrahi texnikası isə aşaöıdakı kimi tətbiq edilmişdir.Bunu üçün xəstə ümumi anesteziya altında intubasiya olunaraq üzü üstə pozisiyaya çevrilir. Xəstənin gövdəsi qarına boş buraxılaraq qarın içi təzyiqi azaldacaq şəkildə altlıq və ya valcıqlar üzərinə çevrilir. Çiyinlər düşmüş pozisiyada qollar vücudun iki yanına alınır. Daha öncədən baş traksiyası tətbiq edilmişsə bu cihaz saxlanılır, əks təqdirdə baş əməliyyat zamanı traksiyaya imkan verəcək bir tutucuya yerləş-dirilməlidir. Bu mərhələdə skopiya ilə ön arxa və yan qrafiyalar alınaraq pozisiya təyin edilməlidir. Əməliyyat sırasında arxa elementləri daha yaxşı ortaya qoyulması üçün boyun maksimum fleksiyaya alınır. Əməliyyat masası, boyun fleksiyası situasiya içərisində dəyişdirilə biləcək şəkildə quraşdırılmalıdır. Xəstənin saçları uyğun şəkildə qırxılır və bundan sonra o müvafiq qaydada hazırlanıb örtülür. Posterior oksipital çıxıntı dəri qələmi ilə işarələnir. C2-dən başlanaraq servikal fəqərələrin tin çıxıntıları əllənərək işarələnir. Daha sonra C2-3 üzərindən orta xətt kəsik ilə açılır. Situasiya boyunca uyğun sıralamanı qorunmasına və qeyri-stabil əzilmiş olan sinir elementlər üzərinə təzyiq edilməməsinə diqqət edilir. Sümük elementlərin arabir dərialtı və paraspinal yumşaq toxumaları da zədələnmiş olduğundan,bu halda kəsiyi normal anatomiyanın qorunduğu bölgələrə uzadaraq orientasiyanın əldə edilməsi uyğun ola bilər. Boyun ardı bağın tam orta xəttən koterizə edilərək açılması qanaxmanı minimuma endirir. Rektus kapitis major və kapitis oblikvus inferior əzələləri sub-periostal olaraq C2 laminasından ayrılır. Yanaş-ma C2 və C3-ün posterior elementləri ilə hüdudda tutulmalıdır. C3-4 faset kapsulası qorun-malıdır. Bu bölgədə subperiostal diseksiya aparılarkən mikrokoretlər və bipolyar koter istifadə edilməlidir. C1-2 faseti üzərində yerləş-miş olan kavernoz venoz pleksus, qanaxmanı qarşısını almaq üçün diqqətlə koterizə edil-məlidir. Situasiyada trombin daxil olan hemostatik agentlərin olması da faydalıdır.

Cərrahi müalicənin iki əsas məqsədi dekom-pressiya və stabilizasiyadır. Dekompressiya quruluşun saxlanılması, təzyiq edən sümük və bağ quruluşlarını uzaqlaşdırılması və hematoma kimi digər yer tutan lezyonlara müdaxilə edilməsi ilə həyata keçirilə bilər. Stabilizasiya üçün isə fiksasiya istifadə edilir və sümük qaynamasının əmələ gəlməsi hədəf tutulur. Fiksasiyada 2,7 və 3,5 mm ölçüdəki və uyğun boylardakı poliaksial titan pedikul vidaları istifadə edilir. C2 üçün üst qismi yivli olmayan vidalar düzəldilmişdir. Bu üsul həm daha stabil bir quruluş əmələ gətirir, həm də kök qanqlionunun irritasiyasının qarşısını alır. Stabilizasiya üçün 3 mm-lik rodlar istifadə edilir. Mümkün olan ən uzun və qalın vidaların istifadəsi və bikortikal tutulmanın əldə edilməsi stabilizasiya baxımından önəmlidir. C2-yə vida qoyulması əsnasında referans nöqtəsi pars interartikulyarisin orta nöqtəsindən keçən cizgi ilə laminanın ortasından keçən cizginin kəsişmə yeridir. Bu nöqtə eyni zamanda pedikul medial divarının 2-3 mm lateralı və inferior faset alt kənarının 2-3mm superiorudur. C2 vidasının C2 pedikulu içərisindən istmus yolu ilə irəliləyərkən medial sərt qişanı, C2 kökünü,vertebral arteriyanı yaralamaması, C1-2 oynağına girməməsi lazım-dır. Transvers planda vida yerləşməsi orta xətt ilə 15-30, sagital planda isə yerə dik düzlən ilə 35 dərəcəlik açılmalıdır. Vidanı uyğun şəkildə yönəldə bilmək üçün C2-nin medial istmusunun

izlənməsinin arabir yoxlayıcı və lateral skopiya görüntüləri də dəfələrlə dəyərləndirilməlidir. C3 üçün giriş nöqtəsi lateral massın orta kəsiyi ilə C2-nin inferior faset hüdudunun 2-3 mm aşağısının kəsişməsidir. C3-ə pedikul vidası transvers planda təxminən 45 dərəcəlik açılma və sagital planda dikə yaxın bir planda yerləşdirilməlidir. Servikal pedikul vidaları yerləşdirilərkən bikortikal tutulma yaradan şəkildə yüksək kalibrasiyada fiksatorlar seçilməlidir. Fiksasiya tamamlandıqdan sonra qatlar anatomiyaya uyğun olan şəkildə bağlanılır. Saç cizgisinidə əhatə edən kəsiklərdə əməliyyat sonrası infeksiya baxımından xüsusilə diqqətli olunmalıdır. Bağlamadan əvvəl çoxlu miqdarda yuyulma aparılmalıdır. Dren istifadəsi hematoma və serum əmələ gəlmə ehtimalını azalda bilər, lakin qəza və ya cərrahi səbəblə sərt qişa açıq olan halllarda diqqətli istifadə edilməlidir. Sərt qişanın ilkin və ya plastikat köməyi ilə bağlanılmadığı halllarda lokal və ya distal intratekal kateter istifadəsi spinal maye axıntısının və yaradan sızıntının qarşısını almaq üçün istifadə edilə bilər.

Əldə olunan məlumatların statistik işlənməsi «Medcalc» proqramından və Microsoft Excel cədvəl redaktorundan istifadə etməklə variasion statistika metodlarının vasitəsilə həyata keçirilmişdir. Sıra göstəricilərində öyrənilən əlamətlərin tezliyinin paylanmasını müqayisə etmək üçün standart $\chi$-kvadratı meyarından istifadə edilmişdir. Fərqlər $p<0,05$ və $p<0,001$ olduqda statistik dürüst hesab edilmişdir.

**Nəticələr və onların müzakirəsi**. Müayinələr aparıldıqdan sonra hamiləliyin adəti erkən pozulması olan qadınların hamısı 2 qrupa bölünmüşdür. Birinci qrupa erkən vaxtlarda hamiləliyi pozulmuş 38 (63,3%) qadın daxildir ki, onlara hamiləliyə hazırlıq dövründə həyat yoldaşının allogen limfositləri ilə LİT aparılmışdır. İkinci qrupa hamiləliyin adəti erkən pozulması qeyd edilən və cütlüklərdə HLA sisteminin antigenləri uyğun olan 22(36,7%) qadın daxildir ki, onlara limfositoimmunterapiya aparılmamışdır. Bu pasiyentlərə birinci trimestrdə ümumi qəbul edilmiş dərman terapiyası aparılmışdır ki, buraya spazmolitik vasitələr, sedativ preparatlar, vitaminlər, antiaqreqantlar daxildir.

Hamiləliyin erkən pozulması təhlükəsi müxtəlif terapiya metodları ilə müalicə olunan qadınların qrupları öz aralarında yaşa, sosial mövqeyinə, mama-ginekoloji anamnez məlumat-

larına, aşkar edilən ekstragenital patologiyanın tezliyinə görə müqayisə olunmuşlar ki, bu da aparılan müalicə tədbirlərinin effektivliyini qiymətləndirməyə imkan vermişdir.

Həyat yoldaşı ilə HLA-uyğunluq zamanı hamiləliyin adəti pozulması qeyd edilən pasiyentlərdə limfositoimmunterapiyanın aparılması alqoritmi şəkil 1-də təsvir edilmişdir.




**Şək. 1. Həyat yoldaşı ilə HLA-uyğunluq zamanı hamiləliyin adəti pozulması qeyd edilən pasiyentlərdə limfositimmunterapiyanın aparılması alqoritmi**

Aparılan hazırlıqdan sonra 6 ay ərzində birinci qrupdakı 38 ər-arvad cütlüyündən 29 (76,3%) qadında hamiləlik baş vermişdir. İkinci qrupda (hansı ki, LİT aparılmamışdır) 22 cütlükdən 8 (36,4%) qadında hamiləliyin erkən vaxtlarından pasiyentlərin hamısına Dyufaston (didrohesteron) 10 mq dozada gündə 2 dəfə 16 həftəyə qədər təyin edilmişdir.

Müayinə qruplarında hamiləliyin birinci trimestrində ən çox rast gələn ağırlaşma - təhlükəli düşüklərdir. Hamiləliyin gedişinin xüsusiyyətlərinin təhlili zamanı hər şeydən əvvəl diqqəti bir fakt cəlb etmişdir ki, ikinci qrupda olan LİT almayan qadınların hamısında (100,0%) birinci trimestrdə hamiləliyin pozulması təhlükəsinin inkişaf etməsi özbaşına düşüklərlə başa çatmışdır.

Birinci qrupdan olan və sxem üzrə LİT alan hamilə qadınlarda nəzarət qrupu ilə müqayisədə hamiləliyin birinci trimestrində hamiləliyin pozulması təhlükəsinin inkişaf etməsi dürüst çox rast gəlmişdir (müvafiq olaraq 100,0% və 0,0%, p<0,001). Hamiləliyin pozulması təhlükəsinin klinik simptomları ultrasəs müayinəsinin məlumatları ilə təsdiq edilmişdir. USM-nin məlumatlarına görə, 29 (100,0%) qadının hamısında hestasiyanın 12-ci həftəsinə qədər uşaqlığın yüksək lokal tonusu (müvafiq olaraq 100,0% və 0,0%, p<0,001) aşkar edilmişdir. Həmçinin 8 (nəzarət qrupunda 0,0% müqabilində 27,6%, p<0,01) qadında döl yumurtasının aralan- masi və 7 hamilə qadında (nəzarət qrupunda 3,3% müqabilində 24,1%, p<0,05) aşağı plasen- tasiya şəklində döl yumurtasının implan- tasiyasının anomaliyası qeyd olunmuşdur (şəkil 2).

Kompleks dərman müalicəsinin və LİT fonunda müayinə olunan qadınların hamısında hamiləliyin müddətini uzatmaq mümkün olmuşdur. Ultrasəs dopplerometrik müayinənin məlumatlarına görə, uşaqlıq-cift və döl-cift qan cərəyanının dəyişiklikləri hestasiyanın 22-24-cü həftəsində 4(13,8%) qadında aşkar edilmiş və I dərəcəyə uyğun olmuşdur. Hestasiyanın 30-32-ci həftəsində hemodinamikanın həm I dərəcəli - 3 (10,3%), həm də II-III dərəcəli- 2(6,8%) aşkar edilmişdir. Hamilə qadınların nəzarət qrupunda hemodinamik dəyişikliklər müşahidə edilmə- mişdir. Bununla bərabər, USM məlumatları onu təsdiq edir ki, hamilə qadınlarda LİT istifadə etməklə aparılan kompleks müalicədən sonra cift çatışmazlığının dolayı əlamətləri az aşkar edilmişdir.

Birinci qrupdakı qadınlarda hazırkı hamiləliyin nəticələrinin təhlili zamanı vaxtından

əvvəl baş verən doğuşlar bir hadisədə hamiləliyin 36-37-ci həftəsində müşahidə edilmişdir. Bu halda doğuşun vaxtındanəvvəl aparılması üçün göstəriş dölün bətndaxili hipoksiyasının inkişaf etməsi olmuşdur. Kompleks müalicənin tərkibində LİT alan birinci qrupdakı qadınlarda hazırkı hamiləliyin nəticələri vaxtında baş verən doğuşların tezliyinin dürüst azalması (nəzarət qrupunda 100,0% müqabilində 82,7%, p<0,01) və erkən vaxtlarda adəti özbaşına düşüklərin tezliyinin yüksəlməsi (nəzarət qrupunda 0,0% müqabilində 13,8%, p<0,01) ilə fərqlənmişdir. Yalnız dərman müalicəsi alan ikinci qrupdakı qadınların hamısında hamiləliyin erkən adəti düşüklərlə nəticələnməsi (nəzarət qrupunda 0,0% müqabilində 100,0%, p<0,001) qeydə alınmışdır. LİT-dən sonra qadınlarda hazırkı hamiləliyin nəticələri müqayisə qrupundakı qadınlardan vaxtında baş verən doğuşların sayının dürüst artması (müvafiq olaraq 82,7% və 0,0%, p<0,001) və hamiləliyin erkən vaxtlarında özbaşına düşüklərin sayının azalması (müvafiq olaraq 13,8% və 100,0%, p<0,001) ilə fərqlənmişdir. Birinci qrupdakı LİT alan qadınlarda cəmi 82,7% hadisədə vaxtında baş verən doğuşlar, 3,4% hadisədə vaxtından əvvəl baş verən doğuşlar və 13,8% hadisədə- erkən özbaşına düşüklər qeydə alınmışdır.




* - p<0,05; **p<0,01; ***p<0,001 nəzarət qrupuna nisbətən

**Şək 2. Hamiləliyin birinci trimestrində müayinə olunan qadınlarda USM-nin göstəriciləri**

Hamiləliyin pozulması təhlükəsi olan qadınlarda təbii doğuş yollarından baş verən doğuşların tezliyi nəzarət qrupu ilə müqayisə edilə bilər (müvafiq olaraq 76,0% və 86,7%, p>0,05). Həmçinin Qeysəriyyə kəsiyi vasitəsilə aparılan operativ doğuşların sayında dürüst fərqlər müşahidə olunmamışdır (nəzarət qrupunda 13,3% müqabilində 24,0%, p>0,05). Qeyd etmək lazımdır ki, çox vaxt dölün kəskin hipoksiyası vaxtındanəvvəl operativ doğuşların aparılmasına göstəriş olmuşdur. Təbii doğuş yolları vasitəsilə baş verən özbaşına doğuşlar hamiləliyin 38-40-cı həftəsinə təsadüf etmişdir.

Doğuş prosesinin ən çox rast gələn ağırlaşması dölyanı suların vaxtındanəvvəl axması olmuşdur ki, o da müşahidə qrupunda 8(32,0%) zahı qadında və nəzarət qrupunda 2 (6,7%) zahı qadında nəzərə çarpmışdır (p<0,01). Daha sonra tezliyinə görə doğuş fəaliyyətinin anomaliyaları- müşahidə qrupunda 7 (28,0%) qadında və nəzarət qrupunda 2(6,7%) qadında nəzərə çarpmışdır (p<0,001). Sonun aralanmasının ləngiməsi müşahidə qrupunda 2(8,0%) zahı qadında rast gəlmişdir və nəzarət qrupundakı qadınlarda qeyd olunmamışdır (p<0,05).

Döl üçün doğuşların nəticəsi və erkən neonatal dövrün gedişi müşahidə qrupunda 25 yenidoğulmuşda və nəzarət qrupunda 30 uşaqda təhlil edilmişdir. Müşahidə qrupunda olan qadınlarda 24 uşaq vaxtında və 1 uşaq yarımçıq doğulmuşdur. Vaxtında doğulmuş uşaqlar arasında normal fiziki inkişaf etmiş 22 (91,7%) uşaq və bətndaxili inkişafın ləngiməsi əlamətləri ilə 2 (8,3%) uşaq doğulmuşdur. Nəzarət qrupunda olan qadınlarda uşaqların hamısı vaxtında doğulmuşdur.

Beləliklə, kompleks müalicədə LİT-in istifadə edilməsi hamiləliyin adəti erkən pozulmasının tezliyinin azalmasına və müvafiq olaraq doğuşların vaxtında baş verməsinə qədər hamiləliyin çatdırılmasına səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, həyat yoldaşı ilə HLA-uyğun olan

qadınlarda yalnız dərman terapiyasının aparılması heç bir halda hamiləliyin saxlanmasına imkan verməmişdir. Əldə olunan nəticələr hamiləliyin adəti pozulması (allogen səbəblərlə şərtlənən) qeyd edilən qadınlarda LİT də daxil edilməklə kompleks saxlayıcı terapiyanın aparılmasının vacibliyini göstərir.

**ƏDƏBİYYAT**

1.Аполихина И.А., Шнейдерман М.Г. Причины невынашивания беременности // Гинекология, 2013, № 5, с.60-65.

2. Батрак Н.В., Малышкина А.И., Крошкина Н.В. Иммунологические аспекты привычного невынашивания беременности //Акушерство и гинекология, 2014, № 12, с.10-14.

3. Ведищев С.И., Прокопов А.Ю., Жабина У.В., Османов Э.М. Современные представления о причинах невынашивания беременности // Вестник Тамбовского университета. Серия: Естественные и технические науки, 2013, № 4-1, с.1309-1312.

4. Кречетова Л.В., Тетруашвили Н.К. Лимфоцитоиммунотерапия в коррекции аллоиммунных нарушений при привычном выкидыше //Акушерство и гинекология, 2014, № 1, с. 9-14.

5. Кречетова Л.В., Тетруашвили Н.К., Вторушина В.В. Динамика выработки антилейкоцитарных антител к отцовским антигенам при иммунизации аллогенными клетками женщин с привычным выкидышем // Акушерство и гинекология, 2015, № 3, с.16-20.

6. Сидельникова В.М. Обследование и ведение супружеских пар с привычным невынашиванием беременности первого триместра // Здравоохранение и мед. техника, 2005, № 9, с.47-49.

7.Сидельникова В.М. Привычное невынашивание беременности. Акушерство: национальное руководство. М.: ГЭОТАР-Медиа, 2007, с.348-364.

**Резюме**

**Лимфоцитоиммунотерапия в комплексном лечении женщин с невынашиванием беременности ранних сроков**

**Г.Х. Мамедли**

В статье рассмотрены вопросы применения лимфоцитоиммунотерапии в составе комплексной терапии при лечении привычного невынашивания беременности ранних сроков среди двух групп обследованных женщин. В первую группу вошли 38 (63,3%) женщин с привычным невынашиванием ранних сроков, которым при подготовке к беременности была проведена ЛИТ аллогенными лимфоцитами супруга. Во вторую группу были включены 22 (36,7%) женщины с привычным невынашиванием беременности и совместимостью антигенов системы HLA у супругов, которым лимфоцитоиммунотерапия не проводилась. При анализе особенностей течения беременности обращал на себя внимание факт, что у всех женщин второй группы (100,0%), не получавших ЛИТ, развитие угрозы прерывания в первом триместре завершилось самопроизвольным выкидышем. На фоне комплексного медикаментозного лечения и ЛИТ удалось пролонгировать беременность у всех женщин первой группы. Всего у женщин, получавших ЛИТ, в 82,7% наблюдений отмечены своевременные роды, в 3,4% наблюдений- преждевременные роды и в 13,8% случаевранние самопроизвольные выкидыши. Полученные результаты свидетельствуют о необходимости проведения комплексной сохраняющей терапии с включением ЛИТ у женщин с привычным невынашиванием беременности, обусловленным аллогенными причинами.

**Summary**

**Lymphocyte immune therapy in complex treatment of women with early pregnancy disorders.**

**G.H. Mammadli**

This article provides the issues of the lymphocyte immune therapy application in the complex treatment of recurrent early pregnancy disorders among the two groups of women examined. The first group included 38 (63.3%) women with recurrent early pregnancy disorders, who in preparation for pregnancy underwent LIT by allogeneic lymphocytes of spouse. The second group included 22 (36.7%) women with recurrent pregnancy disorders and compatibility of HLA system antigens of spouses who didn't undergo lymphocyte therapy. When analyzing the characteristics of pregnancy the attention was attracted by the fact that in all women of the second group (100.0%) who did not receive the LIT, the development of threat of termination in the first trimester ended with spontaneous abortion. With the help of a complex medical treatment and LIT it was possible to prolong pregnancy for all women of the first group. In the number of women who received LIT, in 82.7% of cases- timely

delivery, 3.4% of cases - premature births and 13.8% of the time - early abortions are marked. The results suggest the need for a comprehensive preserving therapy with LIT in women with recurrent pregnancy disorders caused by allogeneic reasons.

Daxil olub:26 11.2015

# BAĞIRSAQ MİKROFLORASI VƏ ALLERGİYA

**S.Y.Mahmudova, F.V.Əlirzayeva**
Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Ailə Təbabəti kafedrası

***Açar sözlər:*** bağırsaq disbakteriozu, allergiya, bronxial astma, övrə, uşaqlar, immunitet
***Ключевые слова:*** дисбактериоз кишечника, аллергия, бронхиальная астма, крапивница, дети, иммунитет
***Key words:*** intestinal dysbacteriosis, allergy, bronchial asthma, urticarial, children, immunity

Hal-hazırda həkimlər arasında artıq belə bir fikir formalaşıb ki, xüsusən uşaqlarda bir çox allergik xəstəliklərin inkişafı bağırsağın normal mikroflorasının pozulması, yeni dizbakterioz fonunda baş verir. Artıq praktikada övrə, bronxial astma, atopik dermatit, ekzema, qida allergiyası olan uşaqlarda paralel olaraq bağırsaq disbakteriozunun olması çox rast gəlir [2].

Uşaqlarda baş verən allergik xəstəliklərin inkişaf mexanizmində onların immun sisteminin bəzi allegenlərə qarşı erkən sensibilizasiyası durur. Məlumdur ki, uşaqlarda immun sistemi 7-10 yaşda formalaşır. Uşaqlarda immun sisteminin natamam olması allergenlərə qarşı yüksək reaktivliklə nəticələnir, yəni, orqanizmə yad olan maddələrlə qarşılaşan zaman uşaqların immun sistemi gözlənildiyindən artıq immun cavab verir ki, bu da uşaq orqanizmində müəyyən zədələnmələrə gətirib çıxarır.[5]

Uşaq orqanizminə allergenin daxil olduğu əsas yer selikli qişadır. Ona görə də məhz disbakterioz zamanı qidalanması və müdafiəsi pozulmuş selikli qişadan allergenlərin artıq miqdarda qana keçməsi prosesi çoxalır, bu isə uzun müddətli və dirəncli sensibilizasiyanı formalaşdırır. Zaman keçdikcə bu hansısa allergik xəstəliklə əvəz olunur, buna görə də allergik xəstəliyi olan uşaqlarda kompleks müalicə zamanı bağırsaq disbakteriozunun korreksiyası vacib şərtdir.

Son illərin təcrübəsi göstərir ki, bağırsaq mikroflorasının vəziyyəti ilə allergiyanın inkişaf riski arasında bir əlaqə var. Doğrudur bu əlaqə bütün yaş qruplarında olur, amma qida allergiyasından əziyyət çəkən körpə uşaqlarda xüsusilə danılmazdır.

Tədqiqatlar göstərir ki, normal bağırsaq florası olan uşaqlarla müqayisədə bağırsaq disbakteriozu olan uşaqlarda övrə, atopik dermatit, ekzema və bronxial astma daha çox rast gəlinir. Bağırsaq mikroflorasını bərpa etmək həm allergik xəstəliklərin yaranma riskini azaldır, həm də onların müalicəsində mühüm amillərdən biridir [10].

Bağırsaq mikroflorası ilə allergik xəstəliklər arasindakı qarşılıqlı əlaqəni göstərən bir neçə klinik tədqiqatlar da aparılıb ki, burada bağırsağın "gigiyenik nəzəriyyəsindən" danışılır. Yəni bu tədqiqatlarla sübut edilir ki, allergiyanin daha çox və daha az yayıldığı ölkələrdə uşaqların nəcisindəki bakterial tərkib müxtəlifdir, allergik xəstəliyi olan uşaqlarda isə ciddi fərqlər var [10].

Ümumiyyətlə allergik xəstəliklərdən əziyyət çəkən və allergiyasi olmayan sağlam insanların müqayisəvi olaraq bağırsaq mikroflorasının tərkibinin öyrənilməsi barədə bir neçə tədqiqatların nəticələri məlumdur.Əvvəlki tədqiqatların biri yüksək allergiya göstəriciləri olan İsveçrə və aşağı allergiya göstəriciləri olan Estoniyada 2 yaşlı uşaqlar arasında mikrofloranın öyrənilməsinə həsr olunub [7].

Hansı ölkədə yaşamasından asılı olmayaraq allergiyasi olan uşaqlarda laktobasillərin koloniziyası az, aerob bakteriyaların, xüsusilə də enterobakteriya və stafilakokkların miqdarı isə çox olub. Müəyyən tədqiqatlarda göstərilib ki, atopik dermatiti və ya hansısa dəri problemi olan usaqlarda həyatlarının ilk 2 ilində enterekokların koloniziyası, ilk 1 ilində isə bifidobakteriyaların koloniziyası az olub. Ümimiyyətlə allergik usaqlarda həyatlarının 1 yaşında bakteroidlər kəskin az, ilk 3 ayında isə klostridilərin miqdarı isə kəskin çox olduğu müəyyən olub. Həmçinin allergik uşağlarda ilk 6 aylarında kontrol qrupla müqayisədə qızılı stafilakokların yüksək koloni - ziyası aşkar olunub.

Aparılan tədqiqatlar sağlam və allergik xəstələrdə bağırsaq mikroflorasının tərkibinin müxtəlif olduğunu təsdiq edir. Bakteriyaların növündən, yəni bifidobakteriya, laktobakteriya, enterobakteriya, bakteroid, klostridilər miqdarından asılı olaraq xəstəliyin hansı istiqamətdə gedəcəyini isə demək olmayıb .

Birbaşa olmayan üsullarla allergiya və klostridilə arasındakı əlaqə öyrənilib. Allergiyadan əziyyət çəkən uşaqların nəcisində clostridum diffisile ilə əlaqəli kaproid turşusu yüksək miqdarda olub, həmçinin sağlam uşaqlarla müqayisədə onların qanında İgG antiteli də yüksək səviyyədə olub [21]. Müəyyən olunub ki, məktəb yaşlı uşaqlarda, istər allergiyası olan, istərsə də atopik dermatiti olanlarda clostridiumun miqdarında ciddi fərq yoxdur [11]. Hər iki halda yüksəkdir. Digər bir tədqiqatda isə Bifidobakteriyaların koloniziyası öyrənilib. Hansı ki, o, uşaqların mikrobiosenozunun dominant göstəricisi sayılır .

Bifidobakteriyaların çox xeyirli effektini nəzərə alaraq onu geniş kütlə üzərində, sağlam, allergik övrə [20], atopik dermatit [9], bronxial astmalı xəstələrdə yoxlayıblar və bu tədqiqatların nəticələri müxtəlifdir [16]. Bu tədqiqatın nəticəsinə görə 5 yaşlı atopik dermatiti olan uşaqlardan heç birində, bronxial astmalı uşaqların isə yalnız birində bifidobakteriyaların kolonizasiyası aşkar olunub. əksinə, atopik dermatitdən və bronxial astmadan əziyyət çəkən uşaqlarda bifidobakteriyaların kolonizasiyası həddindən aşağı olub [12]. Qeyd etmək lazımdır ki, bu tədqiqatın nəticələrinin əksini söyləyən başqa bir tədqiqat aparılmışdır ki, burada da sağlam yenidoğulmuşlardakı xırıltılar [13], atopik dermatitdən və qida allergiyasından [15] əziyyət çəkən yenidoğulmuşlardakı xırıltılar ilə müqayisə olunub.

Bəzi tədqiqatlarda deyilir ki, istənilən atopik sindromdan əvəl bağırsaq mikroflarasının tərkibinin modifikasiyası olur ki, bu da immun sisteminin yetişməsində bakteriyaların əhəmiyyətli rolunu göstərir. Atopik sindromu olan və olmayan 3 həftəlik yenidoğulmuşların nəcisindəki yağ turşularının profili kəskin fərqlənib. Atopiyası olmayan şəxslərə nisbətən atopiyası olan şəxslərin nəcisində klostridiya çox, bifidobakteriya az, yəni bifidobakteriyaların klostridiyalara olan nisbəti əmsalı çox azdır [10]. Hollandiyada aparılan tədqiqatlar bu nəticələri təsdiqlədi, belə ki, onların dediklərinə görə atopik simptom və atopikyanınsensibilizasiyasından əvvəl bağırsaqlarda disbakterioz yaranır [15]. Qeyd olunur ki, bütün atopik simptom və sensibilizasiya klostridium difficile ilə bağlıdır. Belə ki, E.coli bağırsaq çöplərinin çoxalması ekzemanın yaranma riskinə gətirib çıxarır, clostridium difficile koloniyası olan uşaqlarda isə bu risk çox artır və atopik dermatit, bronxial astma, allerqik sensibilizasiyaya səbəb olur. Tədqiqatlar göstərir ki, E.coli bağırsaq çöpləri təkcə ekzema ilə əlaqəli idisə, clostridium difficile bütün atopik nəticələrin əsasında durur. Bir daha qeyd olunur ki. Clostridium difficile 2 yaşa qədər uşaqlarda [8,10,15] allergiyanın inkişafına səbəb olur. Amma başqa tədqiqatlarda bunlar aşkar olmayıb [5] Vael C. [17]-yə görə clostridium coccoldes-in və XIV-cü növünün artıq kolonizasiyası bronxial astmanın erkən indikatoru ola bilər. Həmcinin SL. Verhulst [19] təyin edir ki, erkən yaş dövründə antibiotiklərlə xırıltılar arasında əlaqə var, clostridiumun miqdarının artması xırıltıya qarşı müdafiə rolunu oynayır. Clostridium müxtəlif növlərini tədqiq edən bu axtarışlar belə bir nəticəni ortaya qoydu ki, clostridium- müxtəlif klasterlərə [10] malik olan güclü heteroqen qrupdur.

J. Penders və köməkçiləri belə nəticəyə gəldilər ki, bu növün bütün üzvlərinin insana təsirinin, immun sistem qədər [15] effektiv olması az inandırıcıdır.

Bəzi tədqiqatlarda göstərildi ki, 2 yaşa qədər uşaqlarda bifidobakteriyaların artması və ya azalmasının [8] allerqiya ilə bağlılığı yoxdur. Bəzi tədqiqatlarda [5,15] bifidobakteriyaların kolonizasiyası ilə allergiyanın riski arasında bağlılığı göstərilsə də hələ yekun qəti fikir formalaşmayıb.

S.L. Young və köməkçiləri, [22] atopiyanın ən az yayıldığı yer - Kanada və ən yüksək yayıldığı yer- Yeni Zelandiya və Birləşmiş Krallıqda 25-35 günlük uşaqların nəcisində bifidobakteriyaların populyasıyasını müqayisə ediblər. Aşkar olunub ki, qandan gələn bütün müayinə materialında Bifidobakterium longumun infantis yarımnövü var. Bifidobakterium-un addescentis yarımnövü isə allergik uşaqlarda rast gəldi [8]. Həmcinin allergiyası olan və olmayan uşaqlarda Bifidobakteriyanın catenulatum yarımnövünə rast gəlinir. Bu zaman tədqiqatçılar belə qənaətə gəldilər ki, Bifidobakteriumun özü yox [12], onun hansısa yarımnövü allergiyaya səbəb olur. Amma bu hələ də gəti fikir deyil [20]. Belə fərz olundu ki, bakterial ştamların daxili xüsusiyyətləri oxşar ola bilər. Doğrudan da, probirkada bifidobakteriyaların differensasiyası üçün istifadə olunan material göbək qanından alınmış dentrit hüceyrələrin ifraz etdiyi sitokinlər olunca, hüceyrə səthinin markerləri işə qoşulmuş sayılır. Birləşmiş Krallıq və Yeni Zelandiyadan gəlmiş nümunələrdə B.Bifidum, B. Longum, B.

Psevdocatenulatum yarımnövlər CD83 markerinin miqdarını artırıblar, bu da dentrit hüceyrələrin aktivləşməsinə və IL-10-un cox ifrazına səbəb olub amma Qanadan gələn nümunələrdəki B. Infantis yarımnövü bunu etməyib [22]. Yüksək temperaturla inaktivləşmiş [1] (Bifidobakteriyaların yetişmiş növləri sayılan) B.lonqum və B. Adolescentis iltihan sitokinləri IL-12 və TNF-anı B. bifidum α nisbətən daha çox induksiya ediblər [6]. B. Adolescentis [6] vasitəsilə induksiya olunmuş TH1 limfositi uşaqlarda allergiyanı sürətləndirir [7]. Nəzərə alaq ki, bağırsaqda yaşayan bifidobakteriyanın xüsusiyyəti deformasıyadan asılıdır [8] və özünü immunstimuləedici vəziyyətlərdə daha çox qöstərir[15].

Bacteroidaceae da həmçinin allergiya ilə əlaqələdir, amma, klostridiya və bifidobakteriya kimi onunda barəsində də müxtəlif zidd fikirlər var. Bəzi tədqiqatlarda bacteroides-in bağırsaqda kolonizasiyasının allergiya ilə heç bir əlaqənin olmaması [5,8,10], digər tədqiqatda isə [7] Bacteroidaceae fraqilis-in 3 həftəlik uşaqlarda bronxial astmanın yüksək riskinə səbəb olduğu bildirilir.

Məlim olub ki, Bacteroides-in yüksək kolonizasiyası olan atopik dermatitli uşaqlarda İgE yüksəkdir [11] Yapon badamına qarşı allergik riniti olan pasiyentlərin periferik qanında monositlər tərəfindən istehsal olunan sitokinlərin artması ilə həmin pasiyentlərin nəcisində Bacteroides ştamlarının olması arasında bir uyğunluq görünüb [14] .

Zidd fikirlərin yaranması tədqiqatların müxtəlif metodlarla aparılmasına, ayrı-ayrı yarımnövlərin assosasiyasına əsaslanmasına görə ola bilər. Amma orta fikir budur ki, allergiya riskinin yaranmasında bağırsaq mikroflorasının müxtəlifliyi- əsas determinantdır.

Maraqlıdır ki, 18 aylıq uşaqlar arasında aparılan iri tədqiqatlar allergiyanın inkişafı ilə müxtəlif bakteriyalar arasındakı əlaqəni təsdiqləmir, [5] amma qeyd olunur ki, allergiya ilə xəstələnən yenidoğulmuşların həyatının ilk 1 həftəsində bağırsaq mikroflorasının müxtəlifliyi zəif olub, yəni bakteriyalarla zəngin olmayıb.

Ümumiyyətlə bağırsaq mikroflorasının tərkibinin modifikasıyasının atopik sindromun inkişafına səbəb olması barədə bir neçə tədqiqatlar aparılıb, amma epidemioloji tədqiqatlarda hansı faktorun birinci yaranması göstərilə bilməyib. Atopiya selikli qişadakı bakteriya populyasiyasının bəzilərinin zədələnməsi hesabına, digərlərinin kəskin artması ilə əlaqəli ola bilər. Sicovullar üzərində ararılan qida allergiyası eksperimentinin belə bir nəticəsi olub ki, həm yüksək, həm də aşağı dərəcəli anafilaksiya zamanı bağırsaq mikroflorasının tərkibi müxtəlif olub, yüksək dərəcəli anafilaksayalı sicovullarda stafilakokların kolonizasiyası çox az olub [15].

T. Odamaki və köməkciləri müəyyən ediblər ki, bitkilərin tozlanması zamanı, xüsusilə də fəslin sonuna yaxın dövrdə İgE-dən asılı allergik rinitli pasiyentlərin bağırsaq mikroflorasında Bacteroides fragilis qrupunun dominant kolonizasiyası yüksək rəqəmlərə çatır [14].

Bəzi müəlliflər hesab edir ki, bifido və laktobakteriyalar allergiyanın qarşısının alınmasına müsbət təsir göstərir. Bu xeyirli bakteriyalar tərəfindən ifraz olunan fermentlər qida komponentlərini o qədər kiçik molekullara parçalayır ki, onlar çox az allergen təsir göstərirlər. Məsələn, laktobasillərin ifraz etdiyi proteaza- çox güclü allergen sayılan süd zülalı- kazeinə təsir göstərərək onun allergenliyini azaldır [10].

Bir çox alimlərin fikrinə görə iltihab, allergiya, maddələr mübadiləsi və immunorezistentliyin mexanizmində mikrofloranın xüsusi təyinedici rolu var [14]

Hətta [2] son illərdə insan bədənində məskunlaşan mikroorqanizmlər toplusunu "ekstrakorporal orqan" adlandırıblar.

Ümumiyyətlə qeyri-infeksion xəstəliklərin etiologiya və patogenizində mikrofloranın rolu hələ də diskussiya predmeti olaraq qalır: bəzi alimlər onu müxtəlif orqan və sistemlərin patologiyasında "başla" əmrinə bənzədirlər [2], bəzi alimlər isə [8] onu əsas xəstəliyin yanında yer alan bir faktor kimi görürlər.

Belə müxtəlif fikirlərə baxmayaraq artıq sübut olub ki, insan bədəninin mikrobioloji tərkibi müxtəlif xəstəliklər zamanı spesifik dəyişikliyə uğrayır.

Son illərin tədqiqatları həzm sistemi və tənəffüs sisteminin xəstəlikləri arasında əlaqə olduğunu təsdiqləyir [20].

A. E. Bilev hesab edir ki, bronxial astma zamanı mikrob ekologiyasının dəyişməsinin epidemioloji xüsusiyyəti bağırsaq disbakteriozunun rast gəlmə tezliyi ilə uyğundur və bu zaman bronx-ağciyər aparatında da şərti-patogen mikrofloranın kolonizasıyası yüksəlir[1].

Disbiotik dəyişikliklərin xarakterini təyin edən risk faktoruna, xəstəliyin kəskin və remissiya dövrü, ağırlıq dərəcəsi, qlükokortikosteroidlərin istifadəsi, yanaşı gedən diqər xəstəliklər aid ola bilər. Müəllifin fikrinə görə bronxial astmanın kəskinləşməsi zamanı parazıtar sistemin xüsusiyyəti bağırsaq mikrobiosenozunun disbiotik dəyişikliyinin spesifikliyinə dayanır bu isə özünü bifidobakteriya, laktobakteriya, enterekokların rastqəlmə tezliyinin azalması, stafilakok-

ların konsentrasiyasının artması, eşerixiya populyasiyasının dərin pozğunluğu ilə bürüzə verir.

Bağırsaq disbakteriozunun epidemioloji görünüşü onun subkompensasiya və dekompensasiya mərhələlərinin dominantlığı, şərti-patogen enterobakteriyalarla assosasiya olunmuş stafilakokların qoşulması ilə yekunlaşır [1].

Allergik xəstəliklər tez-tez bağırsaq mikrobiosenozunun pozulması ilə müşayət olunur. Hətta allergik övrə və toksikodermiyalı xəstələrin təxminən yarısında elə ağır bağırsaq disbiozuna rast gəlinib ki, bu şərti-patogen mikroflora 76% pasiyentlərdə residivlərə səbəb olub [10]. Son illər allergik xəstəliklərin durmadan inkişaf edən növü olan övrə bronxial astma və allergik rinitdən sonra yayılmasına görə 3-cü yerdədir [3]. Məlumdur ki, yer kürəsində hər üçünçü adam ömründə hec olmasa 1 dəfə allergik övrə keçirib [23].

Tibbdə müasir dövrdə xroniki övrə hələ də çətin xəstəliklərdən sayılır. Bu sindrom müxtəlif sahədən olan həkimlərin praktikasında rast gəlinir və 1-5% əhali arasında yayılıb[10]. Statistik məlumatlara əsasən xroniki övrənin rast gəlmə tezliyi ildən ilə artır, ən pisi isə onun cavan, iş qabiliyyətli əhali arasında yayılmasıdıır[23].

Uşaqlarda allergik övrəni yaradan infeksion agentlərə helmintlər aiddir. Bağırsaq disbakteriozunun uğurlu müalicəsindən sonra allergik övrə əlamətlərinin keçməsi bu fikri öz-özlüyündə təsdiqləyir[22].

Son vaxtlar allerqodermatozlar ilə Helikobakter pylori arasındakı əlaqəyə xüsusi fikir verilir. Məlum olub ki, Helikobakter pylori infeksiyası zamanı allerqodermatozlar fasiləsiz xarakter alır və remissiya demək olar ki, olmur [2]. Bu əlaqəni təsdiqləyən bir neçə tədqiqat var. Helikobakter pylorinin eradikasiyasından sonra xroniki övrə müalicəsində uzunmüddətli remissiyanın alınması [3] bu tədqiqatların sevindirici sonluğudur. Amma bəzi alimlər bu fikirləri təkzib edirlər[23].

Ailə həkiminin praktikasında mədə-bağırsaq traktının funksiyasının pozulması və bunun nəticəsində yaranan allergik səpkilərdən şikayət edən pasiyentlər çoxdur. 81-86 % hallarda bağırsaq disbiozu ilə yanaşı olan səpkilər ya ləkə ya da papulo-pustulyoz olur. 82% belə pasiyentlərin disbakteriozu II və ya III dərəcəli olub, anaerob floranın kəmiyyət və keyfiyyət dəyişikliyi şərti-patogen floranın çoxalması hesabına olur [6]. 89% hallarda bifidobakteriyaların miqdarının azalması, 62% hallarda laktobakteriyaların miqdarının azalması, 48% hallarda Escherichia coli-nin miqdarının dəyişməsi qeyd edilir. 40% pasiyentlərdə Laktozaneqativ Escherichia coli, 31% pasiyentdə Enterococcus bakteriyaların miqdarının dəyişməsi 33% hallarda Staphylacoccus bakteriyasının artması, 25% hallarda Clostridum bakteriyasının artımı, 27% pasiyentdə isə Klebsiella bakteriyasının artımı aşkar olunub [6].

Kliniki təcrübələr göstərib ki, atopik dermatiti və xroniki övrəsı olan pasiyentlərdə Helikobakter pylorinin eradikasiyası çox hallarda dəri səpkilərinin sönməsinə, sağalmasına gətirib çıxarıb [3].

Aparılan bu təcrübə bir daha allerqodermatoz ilə helicobakter pylori arasında assosasiya əlaqəni sübut edir[4].

Ə.Əliyev adına AzHTİ-nin ailə təbabəti kafedrasında bu tədqiqatların hamısının analizi aparılmış və qərara gəlinmiş ki, ümumi praktikalı həkimlərin xəstə müraciətlərinin 10-15%-i dəri xəstəlikləri ilə bağlıdır. Hər 100 xəstədən 38-ində baxmayaraq ki, dəridə dəyişiklik var, ilkin olaraq xəstələr mədə-bağırsaq traktından şikayət ediblər. Ailə həkimlərinə xəstələr akne, rozasea, atopik dermatıt, kontakt dermatit, ekzema, peroral dermatit kimi diaqnozlarla müraciət edirlər. Xəstələrin bəzisi dəri problemlərinin sağalmamasında mədə-bağırsaq sisteminin pozğunluğunu günahkar görür, bəziləri hətta qeyd edir ki, mədə-bağırsaq fraktının funksiyası pozulandan sonra dəridə səpkilər yaranıb. Bizim fikrimizə görə dermatoloji problemlərin rasional həlli üçün diaqnostika və müalicə üçün kompleks yanaşma lazımdır, disbiotik dəyişikliklərin korreksiyası isə ön planda olmalıdır. Beləliklə, sənayəsi inkişaf edən diğər ölkələr kimi, Azərbaycanda da allergik xəstəliklərin azalma tendensiyası yoxdur.

Bu problem ətrafında zidd fikirlərin olması, müxtəlif virus, bakteriya, göbələklərin törədiciliyi haqda vahid bir qörüşün olmaması, bağırsaq disbakteriozunun dəri problemlərində əhəmiyyətli olması, bronxial astma, xroniki övrə və allergik rinitin etiologiya və patogenezində mikroorqanizmlərin rolunun öyrənilməsinin aktuallığını göstərir. Mikrofloranın tərkibi və allergik xəstəliklər arasındakı səbəb-nəticə əlaqəsi hələ də tam yəqinləşməyib.

## ƏDƏBİYYAT

1. Билев А.Е. Нарушения микробной экологии при бронхиальной астме и хроническом обструктивном бронхите (эпидемиологические и клинические аспекты): Автореф. дисс. … д.м.н. СПб., 2003, 40 с.

2. Завгородняя Е.Ф., Сташкевич Л.А. Атопический дерматит у детей и его связь с дисбиотическим состоянием кишечника // Дальневосточный жур. инфек. патологии, 2013, №22, с.66-70.

3. Колхир П.В. Причины хронической крапивницы // Лечащий врач, 2012, №10, с. 44-50.

4. Ткаченко Е., Успенский Ю., Барышников Н. Оптимизация лечения заболеваний, ассоциированных с Helicobacter pylori // Врач, 2012, №1, с.36-38.

5. Adlerberth I., Wold A.E. Establishment of the gut microbiota in Western infants // Acta Paediatr, 2009, vol.98, p.229-238.

6. Asher M.I., Stewart A.W., Mallol J. et al. Which population level environmental factors are associated with asthma, rhinoconjunctivitis and eczema? Review of the ecological analyses of ISAAC Phase One // Respir Res, 2010, v.11, p.8.

7. Bjorksten B., Naaber P., Sepp E., Mikelsaar M. The intestinal microflora in allergic Estonian and Swedish 2-year-old children // Clin Exp Allergy, 1999, v.29, p.342-346.

8. Bjorksten B., Sepp E., Julge K., Voor T. Mikelsaar M. Allergy development and the intestinal microflora during the first year of life // J Allergy Clin Immunol, 2001, v.108, p.516-520.

9. Gore C., Munro K., Lay C. et al. *Bifidobacterium pseudocatenulatum* is associated with atopic eczema: A nested case-control study investigating the fecal microbiota of infants // J Allerg Clin Immunol, 2008, vol.121, p. 135-140.

10.Kalliomaki M., Salminen S., Poussa T., Isolauri E. Probiotics during the first 7 years of life: a cumulative risk reduction of eczema in a randomized, placebocontrolled trial // J Allergy Clin Immunol, 2007, v.119, p.1019-1021.

11.Kendler M., Uter W., Rueffer A., Shimshoni, R., Jecht E. Comparison of fecal microflora in children with atopic eczema/dermatitis syndrome according to IgE sensitization to food // Pediatr Allergy Immunol, 2006, v.17, p.141-147.

12.Mah K.W., Bjorksten B., Lee B.W. et al. Distinct pattern of commensal gut microbiota in toddlers with eczema // Int Arch Allergy Immunol, 2006, v.140, p. 157-163.

13.Murray C.S., Tannock G.W., Simon M.A. et al. Fecal microbiota in sensitized wheezy and non-sensitized non-wheezy children: a nested case-control study // Clin Exp Allerg, 2005, v.35, p.741-745.

14.Odamaki T., Xiao J.Z., Iwabuchi N. et al. Fluctuation of fecal microbiota in individuals with Japanese cedar pollinosis during the pollen season and influence of probiotic intake // J Investig Allergol Clin Immunol, 2007, v.17, p.92-100.

15.Penders J., Stobberingh E.E., van den Brandt P.A., Thijs C. The role of the intestinal microbiota in the development of atopic disorders // Allergy, 2007, v. 62, Issue 11, p.1223–1236,

16.Sepp E., Julge K., Mikelsaar M., Bjorksten B. Intestinal microbiota and immunoglobulin E responses in 5-year-old Estonian children // Clin Exp Allergy, 2005, v.35, p.1141-1146.

17.Vael C., Vanheirstraeten L., Desager K.N., Goossens H. Denaturing gradient gel electrophoresis of neonatal intestinal microbiota in relation to the development of asthma // BMC Microbiol, 2011, v.11, p.68.

18.Ventura M., van S.D., Fitzgerald G.F., Zink R. Insights into the taxonomy, genetics and physiology of bifidobacteria // Antonie van Leeuwenhoek, 2004, v.86, p.205-223.

19.Verhulst S.L., Vael C., Beunckens C. et al. A longitudinal analysis on the association between antibiotic use, intestinal microflora, and wheezing during the first year of life//J Asthma,2008,v.45,p.828-832.

20.Waligora-Dupriet A.J., Campeotto F., Romero K. et al. Diversity of gut *Bifidobacterium* species is not altered between allergic and non-allergic French infants, Anaerobe, 2011.

21.Woodcock A., Moradi M., Smillie F.I. et al. Clostridium difficile, atopy and wheeze during the first year of life // Pediatr Allergy Immunol, 2002, v.13, p. 357-360.

22.Young S.L., Simon M.A., Baird M.A. et al. Bifidobacterial species differentially affect expression of cell surface markers and cytokines of dendritic cells harvested from cord blood // Clin Diagn Lab Immunol, 2004, v.11, p.686-690.

23.Zuberbier T.A. Summary of the New International EAACI/GA2LEN/EDF/ WAO Guidelines in Urticaria // W. AllergyOrg. J., 2012, v.5, p.S1-S5

**Резюме**

**Микрофлора кишечника и аллергия**

**С.Г.Махмудова, Ф.В.Алирзаева**

В статье рассмотрена связь аллергических заболеваний и дисбиоза кишечника. Подчеркивается, развитие многих аллергических заболеваний, особенно у детей, протекает на фоне изме-

нения состава нормальной микрофлоры кишечника, т.е. на фоне дисбактериоза. Автором представлены результаты, основанные на данных литературы и исследованиях кафедры семейной медицины АзГИУВ им. А. Алиева, которые свидетельствует, что непосредственно с заболеваниями кожи связано 10-15% обращений к врачам общей практики. Противоречивость сведений по этой проблеме, отсутствие единого мнения по вопросам приоритета отдельных видов вирусов, бактерий и грибов, значения дисбактериоза кишечника указывают на актуальность дальнейшего изучения роли микроорганизмов в этиологии и патогенезе хронической крапивницы, бронхиальной астмы и аллергического ринита.

**Summary**

**Intestinal microflora and Allergy**

**S.H.Mahmudova, F.V.Alirzayeva**

The article says about synchronization between allergic diseases and intestinal dysbiosis. It is noted that some allergic diseases specially occurred in children grow by the reason of dysbacteriosis, in other words by the changing the normal microflora of intestine. It says in the article which has been presented by the researcher of Family department of ASIDI and was based on personal experience and appropriate literature, 10-15 percent of consulting the doctors are related to skin problems. There are denial thoughts that virus, bacterium and fungus play important role in intestinal dysbacteriosis while acute urticarial, bronchial asthma play significant role in the etiology of allergic rhinitis. Therefore, these disproving thougths asserts that researching of this problem is actual.

Daxil olub: 19 11.2015

---

# ƏMƏLİYYATDAN SONRAKI YARALARIN İRİNLƏMƏSİNİN PROQNOZLAŞDIRILMASI ÜSULU

**B.A. Ağayev, A.V. Fərzəliyev, Z.E.Cəfərli**

*Bərdə Rayon Mərkəzi Xəstəxanası; M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Bakı*

***Açar sözlər:*** laparotomiya, əməliyyatdan sonrakı yaralar, irinləmə

***Ключевые слова:*** лапаротомия, послеоперационные раны, нагноение

***Keywords:*** laparotomy, surgical wounds, suppuration

Hazırki dövrə qədər, abdominal əməliyyatlardan sonra laparotom yaraların infeksion-iltihabi ağırlaşmaları müasir təbabətin aktual problemlərindən biri olaraq qalmaqdadır [1,2].

Müxtəlif növ profilaktika və müalicə tədbirlərin aparılmasına baxmayaraq, göstərilən qeyri-spesifik ağırlaşmalar, xüsusi ilə də təxirəsalınmaz əməliyyatlardan sonra 2,8-23,5% xəstədə müəyyən edilir [3,4]. Belə ki, ədəbiyyat məlumatlarına baxmayaraq, əməliyyatdan sonrakı yaraların irinləməsi yoğun bağırsaq üzərində aparılan əməliyyatlardan sonra 11,1-60,0% xəstədə müəyyən edilir [4,5].

Son illərdə cərrahi əməliyyat zamanı istifadə edilən atravmatik sorulan və sorulmayan tikiş materialları, alətlər, müasir koaqulyasion vasitələr və müasir farmakoloji preparatlar laparotom yaraların iltihablaşmasının müalicəsində və profilaktikasına təbii ki təsir edir. Lakin insanların immun statusunun zəifləməsi, mikroorqanizmlərin antibiotiklərə və digər sanasiya vasitələrinə həssaslığının artması kimi səbəblər tədqiq edilən ağırlaşmanın hələ də yüksək rəqəmlərlə səciyyələnməsinə zəmin yaradır [1,3].

Müxtəlif müəlliflərin verdiyi məlumatlardan məlum olur ki, laparotom yaraların infeksion-iltihabi ağırlaşmaları qeyri-spesifik xarakter daşısa da, hospitalizasiya müddətinin artması və xəstələrin həyat keyfiyyətinin azalması ilə müalicə nəticələrini qənaətbəxş [6].

Ələ bu baxımdan, bir çox müəlliflərin fikrincə, qarın boşluğu orqanları üzərində aparılan əməliyyatlardan sonrakı yaraların irinləməsinin profilaktikası və müalicəsi prosesinin proqnozlaşdırılması çox mühüm əhəmiyyət kəsb edir [4]. Lakim əməliyyata gedəcək xəstələrin laparotom yaralarında cərrahi və ya hospital infeksiyanın inkişafını proqnozlaşdırmağa yardımçı olan üsulların təkmilləşdirilməsinə ehtiyac artmışdır [2]. İlk növbədə buna səbəb mövcud olan proqnostik kriterilər arasında rezistent mikroorqanizmlərin sayı və növlərinə az diqqət göstərilməməsidir [3].

**Tədqiqatın məqsədi** laparotom yaralarda infeksion-iltihabi ağırlaşmaların proqnozlaşdırılması üçün daha müasir üsulun hazırlanmasından ibarətdir.

**Tədqiqatın material və metodları**. Bu məqsədlə ilk növbədə qarın boşluğu orqanları üzərində müxtəlif növ cərrahi əməliyyatlar aparılmış 400 xəstədə (200 xəstə-aktiv kliniki material, 200 xəstə arxiv materialı) laporotom yaralar tərəfdən irinli ağırlaşmaların baş verməsinin risk faktorları analiz edilmişdir.

Hazırda təbabətdə müxtəlif patoloji halların baş verməsini və gedişini proqnozlaşdırmaq məqsədi ilə müxtəlif statistik metodlardan istifadə edilir. Bunların arasında özünün informativliyi və məna etibarilə həkim təfəkkürünə yaxın olması ilə seçilən A.Valdın (1975) ardıcıl analiz metodudur. Bunu nəzərə alaraq biz də proqnostik sistemi işləyib hazırlayarkən bu üsula istina etmişik.

Təklif edilmiş taktiki sistemin məğzi aşağıdakından ibarətdir: qarın boşluğu orqanları üzərində aparılmış əməliyyatlardan sonrakı yaralar tərəfdən irinli-iltihabi ağırlaşmaların baş verməsində müəyyən rolu olan çoxlu sayda risk faktorlarından ən böyük proqnostik əhəmiyyətə malik məhdud sayda faktorlar seçilərək onların hər birinə müəyyən proqnostik bal verilir. Bunun əsasında hər hansı konkret bir xəstədə bu faktorların rast gəlinməsi və müvafiq olaraq proqnostik balın cəminə görə irinli ağırlaşmaların meydana çıxma ehtimalı hesablanır və bunun əsasında müvafiq müalicə taktikası seçilir.

Tədqiqatın nəticələrinin $X^2$ meyarından istifadə edilmişdir. Statistik təhlillər MS EXCEL proqramında aparılmışdır [7,8].

**Alınmış nəticələr və onların müzakirəsi**. İlkin olaraq 19 risk faktoru götürülərək onların informativliyi və statistik əhəmiyyətliliyi tədqiq edilmişdir. Müxtəlif faktorların əhəmiyyətlilik dərəcəsinin müəyyən edilməsi üçün A. Valdın (1960) ardıcıl analiz metodundan istifadə edilmişdir (cədvəl 1). Tədqiqata daxil olmuş 400 xəstənin 43-də (10,8 %) stasionar müalicədə olduğu müddətdə laporotom yaraların irinləməsi baş vermişdir.

Bu metoddan istifadə etməklə az miqdar əsas kliniki əlamətin köməyi ilə xəstəliyin gedişini proqnozlaşdırmaq mümkün olmuşdur. Bu metoda əsaslanaraq bir-birinə oxşar əlamətlərlə səciyyələnən A və B kimi halları müəyyən dəqiqliklə bir-birindən differensasiya etmək mümkündür. Bunun üçün A və B vəziyyətlərində müxtəlif əlamətlərin meydana çıxma ehtimalları nisbətinin loqarifmlərini [1] cəmləməklə müəyyən informasiya toplamaq lazımdır. Əgər A halının diaqnostikası zamanı buraxılan səhvi d, B halının diaqnostikası zamanı isə b kimi qəbul etsək, onda yuxarıda qeyd edilən nisbətlərin loqarifmlərinin cəmi ln (1-d/b) -dən böyük olduqda A halı, kiçik olduqda isə B halının mövcudluğu barədə müəyyən dürüstlüklə fikir yürütmək mümkündür. Lakin loqarifmlər cəmi qeyd edilən diapazon daxilində dəyişdikdə qəti fikir söyləmək mümkün olmur. Buna görə də biz bu metoddan yalnız proqnostik baxımdan kardinal əlamətləri seçmək üçün istifadə etmişik.

1 saylı cədvəldə sadalanan hər bir əlamət üçün çəki koeffisenti hesablanmışdır. Bu məqsədlə sonra hər bir göstərici üçün stasionar müalicə müddətində residiv qanaxma baş vermiş və verməmiş xəstələrdə rast gəlmə tezliyinin nisbətinin indeksi və bu indeksin natural loqarifmi tapılır (hesablamanı sadələşdirmək xatirinə loqarifmlər 10 dəfə böyüdülərək tam ədədlərlə ş.v. əvəz edilmişdir). Alınmış rəqəmlər hər bir əlamətin proqnostik əhəmiyyətlilik nöqtəyi nəzərindən çəki koeffisientini göstərir.

Bu yolla ardıcıl analizin tətbiqi ilə əməliyyatdan sonrakı yaralarda irinləmənin baş verməsinin 19 risk faktoru içərisindən yüksək proqnostik əhəmiyyəti olan 8 faktor seçilmişdir:

1.infeksiyalaşmış yaralar və peritonitin mövcudluğu;
2.təkrari və travmatik əməliyyatların mövcudluğu;
3.xəstələrdə əməliyyatların drenajlanma ilə aparılması;
4. təcili əməliyyatlar;
5.əməliyyat vaxtı boşluqlu orqanın mənfəzi açılmış xəstələr;
6.immuniteti azalmış şəxslər;
7.yaşı 50-dən yuxarı olan piylənməli xəstələr.
8.yaranın bakterioloji çirklənməsi zamanı mikrobların sayı $>10^8$

Qeyd edilən əlamətlər seçildikdən sonra xüsusi kompyüter proqramı ilə aparılan hesablamaların köməyi ilə hər bir əlamətə xüsusi ballar (proqnostik bal) verilmişdir (cədvəl 2).

Cədvəldən göründüyü kimi əlamətlər qiymətləndirilərkən üç ballı sistemdən istifadə edilmişdir. Əməliyyat vaxtı boşluqlu orqanın mənfəzi açılmış xəstələr; immuniteti azalmış şəxslər; yaşı 50-dən yuxarı olan piylənməli xəstələrin mövcudluğu 1 balla, təcili əməliyyatlar və xəstələrdə əməliyyatların drenajlanma ilə aparılması isə 2 balla qiymətləndirilmişdir. İnfeksiyalaşmış yaralar və peritonitin mövcudluğu olduqda bu hal 3 balla, bu əlamətlərdən yalnız biri mövcud olduqda isə 2 balla qiymətləndirilir.

**Cədvəl 1**
**Qarın boşluğu orqanları üzərində aparılmış əməliyyatlardan sonrakı yaraların irinləməsinin risk faktorlarının statistik əhəmiyyətliliyi**

| Əlamət | | İrinləmə | | | | P |
|---|---|---|---|---|---|---|
| | | baş verib (n=43) | | baş verməyib (n =357) | | |
| | | müt. | % | müt. | % | |
| Əməliyyatın sayı: | ilkin | 5 | 11,6 | 278 | 77,9 | p<0,001 |
| | təkrari | 38 | 88,4 | 79 | 22,1 | |
| Yaş: | 50 yaşa qədər | 22 | 51,2 | 289 | 81,0 | p<0,001 |
| | 50 yaşdan yuxarı | 21 | 48,8 | 68 | 19,0 | |
| Qan qrupu: | 0 (1) | 36 | 83,7 | 132 | 37,0 | p<0,001 |
| | A (II) | 5 | 11,6 | 125 | 35,0 | |
| | B (III) | 2 | 4,7 | 64 | 17,9 | |
| | O (IV) | 0 | 0,0 | 36 | 10,1 | |
| Kəsiyin növü: | yuxarı orta | 8 | 18,6 | 68 | 19,0 | p>0,05 |
| | Orta orta | 14 | 32,6 | 143 | 40,1 | |
| | Aşağı orta | 12 | 27,9 | 96 | 26,9 | |
| | Koxer kəsiyi | 9 | 20,9 | 50 | 14,0 | |
| Hospitalizasiya: | təcili | 37 | 86,0 | 214 | 59,9 | p<0,001 |
| | planlı | 6 | 14,0 | 143 | 40,1 | |
| Cinsi: | kişi | 38 | 88,4 | 314 | 88,0 | p>0,05 |
| | qadın | 5 | 11,6 | 43 | 12,0 | |
| Yanaşı gedən xəstəlik: | var | 23 | 53,5 | 50 | 14,0 | p<0,001 |
| | yoxdur | 20 | 46,5 | 307 | 86,0 | |
| Əməyin xarakteri: | fiziki | 14 | 32,6 | 207 | 58,0 | p<0,005 |
| | itellektual | 29 | 67,4 | 150 | 42,0 | |
| Əməliyyatın vaxtı (fəsil): | qış | 2 | 4,7 | 14 | 3,9 | p<0,001 |
| | yaz | 33 | 76,7 | 121 | 33,9 | |
| | yay | 2 | 4,7 | 50 | 14,0 | |
| | payız | 6 | 14,0 | 172 | 48,2 | |
| Drenajlanma: | aparılıb | 41 | 95,3 | 43 | 12,0 | p<0,001 |
| | aparılmayıb | 2 | 4,7 | 314 | 88,0 | |
| İmmunitet: | azalıb | 42 | 97,7 | 207 | 58,0 | p<0,001 |
| | azalmayıb | 1 | 2,3 | 150 | 42,0 | |
| Şəkərli diabet: | var | 35 | 81,4 | 171 | 47,9 | p<0,001 |
| | yoxdur | 8 | 18,6 | 186 | 52,1 | |
| Piylənmə: | var | 39 | 90,7 | 82 | 23,0 | p<0,001 |
| | yoxdur | 4 | 9,3 | 275 | 77,0 | |
| Əm-tın təm. dər-si: | təmiz | 1 | 2,3 | 243 | 68,1 | p<0,001 |
| | Nisbi təmiz | 12 | 27,9 | 89 | 24,9 | |
| | çırkli | 30 | 69,8 | 25 | 7,0 | |
| Şəxsiyyətin tipi: | intravert | 33 | 76,7 | 200 | 56,0 | p<0,02 |
| | ekstravert | 10 | 23,3 | 157 | 44,0 | |
| Müştərək ağırlaşma: | var | 35 | 81,4 | 129 | 36,1 | p<0,001 |
| | yoxdur | 8 | 18,6 | 228 | 63,9 | |
| Yaranın bakterial çirklənməsi $> 10^8$ | Bəli | 28 | 65,1 | 5 | 1,4 | p<0,05 |
| | xeyr | 15 | 34,9 | 352 | 98,6 | |
| Tikiş materialı: | sorulan | 7 | 16,3 | 289 | 80,95 | p<0,001 |
| | sorulmayan | 36 | 83,7 | 68 | 19,05 | |
| Boşluqlu orqanın açılması: | var | 37 | 86,0 | 132 | 37,0 | p<0,001 |
| | yoxdur | 6 | 14,0 | 225 | 63,0 | |

Qeyd: p<0,05 – risk faktorudur

**Cədvəl 2**

**Yaraların irinləməsinin baş verməsinin proqnostik əlamətlərinin keyfiyyət xarakteristikası**

| Sıra | Əlamətin adı | Verilən bal |
|---|---|---|
| 1 | infeksiyalaşmış yaralar və peritonitin mövcudluğu | 2-3 |
| 2 | təkrari və travmatik əməliyyatların mövcudluğu | 1-2 |
| 3 | xəstələrdə əməliyyatların drenaclanma ilə aparılması | 2 |
| 4 | təcili əməliyyatlar | 2 |
| 5 | əməliyyat vaxtı boşluqlu orqanın mənfəzi açılmış xəstələr | 1 |
| 6 | immuniteti azalmış şəxslər | 1 |
| 7 | yaşı 50-dən yuxarı piylənməli xəstələr | 1 |
| 8 | yaranın bakterioloji çirklənməsi zamanı mikrobların sayı > $10^8$ | 2 |

Təkrarı və travmatik əməliyyat- ların mövcudluğu olduqda proqnostik bal 2-yə, bu əlamətlərdən yalnız biri mövcud olduqda isə 1-ə bərabər götürülür.

Aparılan hesablamalar göstərmişdir ki, xəstədə qeyd edilmiş əlamətlər üzrə balların cəmi 8-12 bal arasında tərəddüd edirsə bu zaman yaralarda irinləmənin baş vermə ehtimalı 75%-dən yuxarıdır və belə xəstələr qısa müddətli əməliy- yatönü hazırlıqdan sonra təxirəsalınmaz qaydada cərrahi müdaxiləyə məruz qalmalıdırlar. Bu cəm 3-8 bal arasmda tərəddüd etdikdə isə residiv qanaxmanın baş vermə təhlükəsi 35-75% arasındadır və xora xəstəliyinin müalicəsi konser- vativ qaydada aparıla bilər. Belə hallarda sklero- terapiya və planlı şəkildə cərrahi əməliyyatın aparılmasına göstərişlər digər parametrlərə əsas- lanaraq seçilir. Proqnostik balların cəmi 3-dən aşağı olduqda isə irinləmənin baş vermə ehtimalının bir faktor kimi müalicə taktikasının seçilməsinə təsiri sıfıra bərabər hesab edilə bilər.

Hal-hazırda klinikada müxtəlif ağırlaşmaların proqnozlaşdırılmasında müasir kompüter proqramları və statistik hesablamalara əsaslanaraq hazırlanmış proqnostik sistemlər mövcuddur. Bizim tərəfimizdən stifadə edilmiş üsul laparotom yaranın irinləməsinin proqnozlaşdırılması üçün səmərəli olmuş, sadəliiyi, informativliyi və müqayisə edilməz dərəcədə az vaxt tələb etməsi ilə seçilir. Eləcə də bu zaman xəstə ilə məşğul olmaq əvəzinə böyük vaxt tələb edən mürəkkəb riyazi hesablamalar aparmağa da ehtiyac qalmır.

**Yekun.** Qeyd edilənlər təklif etdiyimiz proqnotik cədvəlin səmərəli olmasını göstərərək, ümumi cərrahiyyə şöbələrində əməliyyata gedəcək xəstələrdə risk amillərini aşkara çıxarmaqla, daha adekvat müalicə-profilaktika tədbirlərinin seçimi üçün səmərəlidir.

**ƏDƏBİYYAT**

1.Калашников А.Ф., Кульберг А.Я., Бартова Л.М., Бялик И.О. Прогнозирование гнойных осложнений послеоперационных ран // Советская медицина, 1983, №2, с.22-25

2.Паевский С.А. Способ ранней диагностики инфицирования послеоперационной раны //Лабораторное дело, 1988, №8, с.55-57.

3.Рахманов Б. Прогнозирование нагноения послеоперационной раны /Актуальные проблемы современной хирургии. Сб. научных трудов под ред. проф. А.А.Вишневского.М.,1984,с71-72.

4.Милонов О.Б., Тоскин К.Д., Жибровский В.В. Послеоперационные осложнения и опасности в абдоминальной хирургии. М.: Медицина,1990, 560 с.

5.Нагибин В.И., Жакупбаев А.А., Байбатыров 3. Устройство для сведения и разведения краёв операционной раны // Открытия. Изобретения, 1986, №44, с.16.

6.Малков И.С., Шахбазова Е.Н. Прогнозирование, профилактика и лечение гнойно-воспалительных осложнений в абдоминальной хирургии // Казанский медицинский журнал, 2003, № 3, с.227-229.

7.Гублер Е.В., Генкин А.А. Применение непараметрических критериев статистики в медико-биологических исследованиях. Л.:Медицина, 1973, с. 140

8.Стентон Гланц. Медико-биологическая статистика (перевод с английского). М.:Практика, 1999, 459с.

**Резюме**

**Способы прогнозирования нагноения послеоперационных ран**

**Б.А.Агаев, А.В.Фарзалиев, З.Э.Джафарли**

Целью исследования явилось разработка более современных способов прогнозирования гнойно-инфекционных осложнение лапаротомных ран. В исследование вошли 400 больных.

Им были проведены различные хирургические вмешательства в брюшной полости. Авторами была предложена прогностическая таблица для выявления факторов риска, которая является оптимальным способом при выборе адекватных лечебно-профилактических мероприятий.

**Summary**

**The methods of forecasting suppuration of postoperative wounds**

**B.A.Agaev, A.V.Farzaliev, Z.E.Jafarli**

**Təsnifatı və proqnostik kriteriyaları**. Mielom xəstəliyində ən vacib proqnostik kriteriyalarından biri diaqnoz qoyulan zaman xəstəliyin mərhələsidir. 1975-ci ildə Durie və Salmon tərəfindən hazırlanan təsnifat indiyə qədər ən çox istifadə olunan təsnifat sistemlərindən biridir [16]. Bu təsnifatda monoklonal protein, hemoqlobin, kalsium səviyyəsi, sümük ocaqlarının sayı nəzərə alınır. Eyni zamanda serum kreatinin səviyyəsinə görə mərhələlər alt qruplara bölünür (Cədvəl1). PET və MRT müayinələrinin nəticələrinin əlavə edilməsi ilə bu sistem daha da təkminləşdirilərək Durie-Salmon PLUS sistemi kimi istifadə olunur. Sonrakı illərdə β2 mikroqlobulin və albumin səviyyəsinə görə yeni təsnifatlar təklif olunmuşdur (SWOG, İSS, İMWG).

Bu təsnifata görə orta yaşama müddəti hesablanmışdır: IA- 61ay; IIA,B-55ay; IIIA - 30 ay; IIIB - 15 ay təşkil etmişdir [16].

2003-cü ildə Beynəlxalq Mielom İşçi Qrupu (İMWG) β2-mikroqlobulin və albumin səviyyəsinə görə yeni təsnifat təklif etmişdir (Cədvəl2). β2-mikroqlobulin mielomada ən önəmli proqnostik kriteriyalardan biri olaraq şişin kütləsini və böyrək zədələnməsini göstərir. Bu təsnifata əsasən birinci mərhələdə olan xəstələrin orta yaşama müddəti 62 ay, ikinci 44 ay, üçüncü 29 ay təşkil etmişdir [17].

**Cədvəl 1**

**Durie-Salmon mərhələndirmə sistemi [16]**

| Mərhələ | Kriteriya | Təxmini şiş kütləsi |
|---|---|---|
| I | 1. Hemoqlobin>10g/dl<br>2. Kalsium normal vəya<12mg/dl<br>3. Sümük Rg normal və ya tək solitar plazmasitom<br>4. Zəyif M-protein sintezi<br>a. İgG<5g/dl<br>b. IgA<3g/dl<br>c. Sidikdə yüngül zəncir<4g/24s | <0.6x$10^{12}$hüceyrə/$m^2$ |
| II. | I və III-cü mərhələlərə uyğun olmayan xəstələr. | 0.6-1.2x$10^{12}$ hüceyrə/$m^2$ |
| III. | 1. Hb<8.5 g/dl<br>2. Kalsium>12mg/dl<br>3. çox sayda sümük ocaqları<br>4. yüksək M-protein sintezi<br>a. İgG> 7g/dl<br>b. IgA>5g/dl<br>c. sidikdə yüngül zəncir>12g/s | >1.2x$10^{12}$ hüceyrə/$m^2$ |

Qeyd: Serum kreatinin səviyyəsinə görə: A< 2mg/dl; B >2mg/dl.

**Cədvəl 2**

**Beynəlxalq mərhələndirmə sistemi (ISS) [17]**

| | |
|---|---|
| Mərhələ I | β2-mikroqlobulin < 3.5 mg/l Albümin ≥ 3.5 g/dl |
| Mərhələ II | β2-mikroqlobulin < 3.5 mg/l Albümin< 3.5 g/dl və ya β2-mikroqlobulin 3.5-5.5 mg/l |
| Mərhələ III | β2-mikroqlobulin > 5.5 mg/l |

Qeyd edilənlərlə yanaşı xəstənin ümumi vəziyyəti, yaşı, müalicə nəticəsində alınan cavab, CRP, LDH, sümük iliyində plazmatik hüceyrələrinin klonlaşmasını və bölünmə sürətini göstərən PCLİ (plazma hüceyrə işarələnmə indeksi) proqnostik kriteriyalardandır [17]. Son illər mielomun genetik faktorlara görə təsnifatları da istifadə olunmaqdadır (mSMART) [17,18]. Artıq məlumdur ki t(4;14), t(14;16), t(14;20), 17p13 delesiyası və PCLİ>3% olan xəstələr yüksək risk qrupuna aid edilirlər [18]. Bu xəstələr 25% təşkil edir və standart müalicə proto-

kollarına cavab vermirlər. 75% xəstələr əsasən t(6;20), t(11;14)-ə və yaxşı proqnoza sahibdirlər [18-22].

**Müalicə.** Mielom xəstəliyinin müalicəsi əsasən autoloji hematopoetik kök hüceyrə transplantasiyası ilə yüksək doz kimyəvi terapiya və digər müalicələrdən ibarətdir. Avropa və Amerikada yüksək doz melfalanla kök hüceyrə köçürülməsi 65 yaşdan aşağı mielomlu xəstələrdə ən çox aparılan standart müalicə üsuludur [23]. Transplantasiyadan əvvəl şiş kütləsini azaltmaq məqsədi ilə 4-6 kurs induksiya kimyəvi terapiyası aparılır. Əvvəllər induksiya məqsədi ilə aparılan VAD protokolunu son zamanlar yeni dərmanlarla müalicələr əvəz etmişdir.Bu müalicələr nəticəsində remisiya əldə edilməsi ciddi şəkildə artmışdır [24,25]. İnduksiya müalicəsindən sonra xəstələrdən iki transplantasiyaya yetəcək kök hüceyrələr toplanılır. Xəstələrə yüksək doz melfalan 200mg/m$^2$ (böyrək funksiyası normal olan xəstələrə) verilərək kök hüceyrələr köçürülür. Qeyd etmək lazımdır ki, transplantasiyadan əvvəl müalicəyə yaxşı cavab verən xəstələrdə orta yaşama müddəti digərlərinə nisbətən xeyli yüksəkdir [26].

Transplantasiyadan sonra konsolidasiyavə ya saxlayıcı müalicə aparılır. Bu məqsədlə müxtəlif dərmanlar istifadə olunur. Bunlardan daha çox proteosom inhibitoru olan bortezomib və imunomodulyatorlardan talidomid və lenalidomid işlənir. Yaxşı nəticə əldə edilməyən xəstələrdə ikinci dəfə autoloji transplantasiya aparılır [26].

Transplantasiya aparılmayan xəstələrdə müxtəlif kimyəvi terapiya protokolları ilə müalicə aparılır.Ən effektiv protokollardan VelDex, VCD, VTD, TalDex, LenDex, PAD, VTD PACE və.s göstərmək olar [27-30].

Altmış beş yaşdan yuxarıxəstələr və ya yanaşı xəstəliklərioilan gəncxəstələr üçün talidomid, lenalidomid, melfalan, prednizolon, dexametazon və bortezomib tərkibli müalicə protokolları ilə yaxşı nəticələr almaq mümkündür [31-33].

Xəstəliyi təkrarlayan (residiv) və ya müalicəyə dayanıqlı (refrakter) xəstələrin müalicəsində yuxarıda qeyd edilmiş preparatlarla yanaşı yeni nəsil imunomodulyatorlardan pomalidomid, proteosom inhibitorlarından carfilizomib, histon deasetilaz inhibitorlarının(vorinostat, panabinostat), anti CS-1 anticisim (elotuzumab) və anti CD38 monoklonal anticism (daratumumab) istifadəsi umid vericidir [34-36].

MM müalicəsi zamanı yeni dərman preparatlarının yan təsirləri nəzərə alınmalıdır.Talidomid və bortezomib tərkibli müalicə sxemlərinin ən ciddi yan təsirlərindən biri periferik neyropatiyadır, bəzi hallarda doz azaldılması və ya dərmanın kəsilməsi vacibdir [37,38]. İmmunomodulyatorların yüksək dozlu steroidlərlə birlikdə istifadəsində mütləq tromboz profilaktikası aparılmalıdır [37]. Bortezomib alan xəstələrdə herpes zoster profilaktikası məqsədi ilə asiklovir təyin olunmalıdır. Sümük destruksiyalarının qarşısını almaq və ya düzəltmək məqssədi ilə iki il müddətində vena daxili bifosfonatlar (pomidronat, klodronat, zoledron turşusu) istifadə edilməlidir, daha uzun istifadəsi isə çənədə osteonekroza gətirib çıxara bilər [36,37]. Anemiyası olan xəstələrdə (Hb<10g/dl) eritropoetin təyin olunması məsləhət görülür, ancaq burada tromboz riski nəzərə alınmalıdır [36].

MM-də aparılan müalicənin nəticəsini qiymətləndirmək məqsədi ilə bir çox Mielom araşdırma qrupları tərəfindən müalicəyə cavab və residiv kriteriyaları hazırlanmışdır (EBMT, ECOG, SWOG). Beynəlxalq Mielom İşçi Qrupu tərəfindən 2006-cı ildə EBMT kriteriyalarına əlavələr edilərək, gündəlik praktikadadaha çox istifadə olunan MM-də Beynəlxalq Cavab Kriteriyaları (İnternational Response Criteria, İRC) təklif edilmişdir (Cədvəl 3,4). Bəzi hallarda mükəmməl tam cavab alınmasına baxmayaraq residivə səbəb olan minimal qalıcı xəstəlik (MRD, minimal residual disease) daha dərin müayinə metodları ilə təyin oluna bilər . İmmunfiksasiya ilə serum sərbəst yüngül zəncir nisbətinin, çoxparametrli axım sitometriyası ilə sümük iliyində klonal plazmatik hüceyrələrin təyin edilməsi və kəmiyyət PCR-lə genetik mutasiyaların aşkar olunması MRD təsdiqi üçün aparılan müayinələrdəndir [39].

Sonda geyd etmək istəyirik ki, son illərdə MM-in molekulyar, genetik səviyyədə öyrənil - məsi və yeni dərmanların istifadəsi nəticəsində aparılan müaləcələrin effektivliyinin artması bir çox elmi işlərdə öz əksini tapmışdır [31-37]. Lakin əldə edilmiş nəticələrə baxmayaraq, bu günkü onko- hematologiyanın əsas məsələlərindən biri MM-in patogenetik mexanizmlərinin daha dərindən araşdırılması ilə xəstələrin yaşama keyfiyyətinin yaxşılaşmasına və orta yaşama müddətinin uzanmasına gətirib çıxaran yeni müalicə prinsiplərinin hazırlanma- sına nail olmaqdır.

**Cədvəl 3**
**Beynəlxalq Mielom İşçi Grupunun (İMWG) müalicəyə cavab kriteriyaları [9]**

| Nəticə | Plazma hüceyrəsi (PH) | Serum | M protein | K/λ | Yumşaq toxuma Plazmasitom |
|---|---|---|---|---|---|
| mTC | ≤5% klonal PH olmaması | İF- normal İg səviyyəsi | İF- | N | _ |
| TC | ≤5% | İF- | İF- | N | _ |
| ÇYQC | | İF+,≤90% azalma | İF+ <100mg/24s | | |
| QC | ≥30% azalma | ≥50% azalma | <200mg/24s | | |
| SX | TC,ÇYQC,QC meyarların olmaması | | | | |

Qeyd: k-kappa, λ-Lambda, mTC-mükəmməl tam cavab, TC- tam cavab, ÇYQC-çox yaxşı qismi cavab, QC-qismi cavab, SX-stabil xəstəlik , İF-İmmunfiksasiya

**Cədvəl 4**
**Beynalxalq Mielom İşçi Qrupunun (İMWG) residiv kriteriyaları [9]**

| Nəticə | Plazma hüceyrəsi | M Protein serum | M protein sidik | HgB>2g/dl azalma Hiperkalsemiya (>11.5 mg/dl)Kreatinin>2mg/dl | Yumşaq toxuma plazmasitomu və ya sümüklərdə ocaqlar |
|---|---|---|---|---|---|
| Proqressiv xəstəlik | >10% artma | ≥0.5 g/dl artma | ≥200 mg/24s | _ | + |
| Klinik residiv | | İF-/+ | İF-/+ | +* | Yeni və/və ya artma |
| Tam cavab za-manıresidiv (TCR) | ≥5% | İF+ EpH+ | İF+ EpH+ | +* | + |

Qeyd: *Hər hansı birinin olması, İF- immunofiksasiya, Eph-Elektroforez [9]

## ƏDƏBİYYAT


1.Kyle R.A., Therneau T.M., Rajkumar S.V. et al. Prevalence of monoclonal gammopathy of undetermined significance // N ENG J Med., 2006,v.354, p.1362-1369.

2. Korde N., Kristtinson S., Landgren O. Monoclonal gammopathy of undetermined significance (MGUS) and smoldering multiple myeloma (SMM): novel biological insights and development of early treatment strategies // Blood, 2011, v.117, p.5573-5581.

3. Lust J.A., Donovan K.A., Greipp P.R. Monoclonal gammopathies of undetermined significance: the transition from MGUS to myeloma. In Multiple Myeloma and Related disorders. London: Arnold, 2004, 396p.

4. Kyle R.A., Durie B.G., Rajkumar S.V. et al. International Myeloma Working Group. Monoclonal gammopathy of undetermined significance (MGUS) and smoldering (asymptomatic) multiple myeloma: IMWG concensus perspectives risk factors for progression and guidelines for monitoring and management // Leukemia, 2010, v.24, p.1121-1127.

5. Rajkumar S.V., Kyle R.A., Buadi F.K. Advances in the diagnosis, classification, risk stratification and management of monoclonal gammopaty of undetermined significance: implications for recategorizing disease entities the presence of evolving scientific evidence // Mayo ClinProc., 2010, v.85, p.945-948.

6. Rajkumar S.V. Preventive strategies in monoclonal gammopaty of undetermined significance and smoldering myeloma. (commentary) // Am J Hematol., 2012, v.87, p.453-454.

7. Fernandez de Larrea C., Kyle R.A., Durie B.G. et al. Plasma cell leukemia: consensus statement on diagnostic requirements, response criteria and treatment recommendations by the International Myeloma Working Group // Leukemia, 2013, v.27, p.780-791.

8. Weiss B.M., Abadie J., Verma P. et al. A monoclonal gammopaty precedes multiple myeloma in most patients // Blood, 2009, v.113, p.5418-5422.

9. Durie B.G., Harousseau J.L., Miguel J.S. et al. International Myeloma Working Group. International uniform response criteria for multiple myeloma // Leukemia, 2006, v.20, p.1467-1473.

10. Bird J.M., Owen R.G., D'Sa S. et al. Haemato-oncology Task Force of British Committee for Standards in Haematology (BCSH) and UK Myeloma Forum. Guidelines on the diagnosis and management of multiple myeloma 2011 // Br J Haematol., 2011, v.154, p.32-75.

11. Kyle R.A., Gertz M.A., Witzig T.E. et al. Review of 1027 patients with newly diagnosed multiple myeloma // Mayo Clinic proc., 2003, v.78, p.21-33.

12. Blade J., Cibeira M.T., Fernandez de Larrea C., Rosinol L. Multiple myeloma // Ann Oncol., 2010, v.21Suppl 7, p.313-6.
13. Sezer O., Heider U., Zavrski I., Possinger K. Differentiation of monoclonal gammopaty of undetermined significance and multiple myeloma using flow sytometric characteristics of plasma cells // Hematologica, 2001, v.86, p.837-843.
14. Durie BGM. Concice Review of the Disease and Treatment Opttions Multiple Myeloma, published by International Myeloma Foundation, 2011/2012 ed. 12650 Riverside Drive Suite 207 North Hollywood.
15. Knudsen L.M., Hippe E., Hjort M. Renal failure in multiple myeloma: reversibility and impact on prognosis // Eur J Haematol., 2000, p.175-181.
16. Durie B.G., Salmon S.E. A clinical staging system for multiple myeloma. Correlation of measured myeloma cell mass with presenting clinical features, response to treatment, and survival // Cancer, 1975, v.36, p.842-854.
17. Greipp P.R., Miguel J.S., Durie B.G.M. et al. International staging system for multiple myeloma // J ClinOncol., 2005, v.23(15), p.3412-8.
18. Blade J., Rosinol L., Cibeira M.T. Prognostic factors for multiple myeloma in the era of novel agents // Ann Oncol., 2008, v.19Suppl 7, p.117-3.
19. Dispenzieri A et al. Treatment of newly diagnosed multiple myeloma based on Mayo stratification of myeloma and risk-adapted therapy (mSMART): consensus statsment // Mayo ClinProc, 2007, v.82, p.323-41
20. Avet-Loiseau H., Attal M., Moreau P. et al. Genetic abnormalities and survival in multiple myeloma: the experience of the Intergroupe Francophone du Myelome // Blood, 2007, v.109(8), p.3489-6.
21. Lode L., Eveillard M., Trichet V. et al. Mutations in TP53 are exclusively associated with del(17p) in multiple myeloma // Haematologica, 2010, v.95, p.1973-1976.
22. Gutierrez N.C., Castellanos M.V., Martin M.L. et al. Prognostic and biological implications of genetic abnormalities in multiple myeloma undergoing autologous stem cell transplantation: t(4;14) is the most relevant adverse prognostic factor, whereas RB deletion as a unique abnormality is not associated with adverse prognosis // Leukemia, 2007, v.21(1), p.143-7.
23. Van de Velde H.J., Liu X., Chen G. et. al. Complete response correlates with long-term survival and progression-free survival in high-dose therapy in multiple myeloma // Haematologica, 2007;, v.92(10), p.1399-7.
24. Bensinger W. Stem-cell transplantation for multiple myeloma in the era of novel drugs // J Cln Oncol., 2008, v.26(3), p.480-12.
25. Stewart A.K., Richardson P.G., San-Miguel J.F. How I treat multiple myeloma in younger patients // Blood, 2009, v .114(27), .5436-7.
26. Blade J., Rosinol L., Cibeira M.T. et al. Hematopoietic stem cell transplantation for multiple myeloma beyond 2010 // Blood, 2010, v.115(18), p.3655-8.
27. Rosinol L., Cibeira M.T., Blade J. et al. Extramedullary multiple myeloma escapes the effect of thalidomide // Haematologica, 2004, v.89(7), p.832-6.
28. Facon T., Mary J.Y., Hulin C. et al. Melphalan and prednisone plus thalidomide versus melphalan and prednisone alone or reduced- intensity autologous stem cell transplantation in elderly patients with multiple myeloma (IFM 99-06): a randomised trial // Lancet, 2007, v.370(9594), p.1209-18.
29. Palumbo A., Facon T., Sonneveld P. et al. Thalidomide for treatment of multiple myeloma: 10 years later // Blood, 2008, v.111(8), p.3968-9.
30. Richardson P.G., Sonneveld P., Schuster M. et al. Extended follow-up of a phase 3 trial in relapsed multiple myeloma: final time-to-event results of the APEX trial // Blood,2007,v.110, p.3557-3.
Blade J., Rosinol L. Advances in therapy of multiple myeloma // CurrOpinOncol, 2008, v.20(6), p.697-7.
31. Tricot G., Barlogie B., Van Rhee F. Treatment advances in multiple myeloma // Br J Haematol., 2004, v.125(1), p.24-6.
32. Kumar S.K., Dispenzieri A., lacy M.Q. et al. Continued improvement in survival in multiple myeloma: changes in early mortality and outcomes in older patients // Leukemia, 2014, v.28 ,p.1122-1128.
33. Podar K., Chauhan D., Anderson K.C. Bone marrow microenvironment and the identification of new targets for myeloma therapy // Leukemia, 2009, v.23(1), p.10-14.

34. Ocio E.M., Mateos M.V., Maiso P. et al. New drugs in multiple myeloma: mechanisms of action and phase I/II clinical findings // Lancet Oncol., 2008, v.9(12), p.1157-8.
35. Blade J., Cibeira M.T., Rosinol L. Novel drugs for the treatment of multiple myeloma // Haematologica, 2010, v.95(5), p.702-4.
36. Palumbo A., Rajkumar S.V., Dimopoulos M.A., Richardson P.G. et al. Prevention of thalidomide- and lenalidomide-associated thrombosis in myeloma // Leukemia, 2008, v.22(2), p.414-9.
37. Delforge M., Blade J., Dimopoulos M.A. et al.Treatment- related peripheral neuropathy in multiple myeloma: the challenge continues // Lancet Oncol., 2010, v.11(11), p.1086-9.
38. Paiva B., Gutierrez N.C., Rosinol L. et al. High-risk cytogenetics and persistent minimal residual disease by multiparameter flow cytometry predict unsustained complete response after autologous stem cell transplantation in multiple myeloma // Blood, 2012, v.119, p.687-691.

**Xülasə**

**Çoxsaylı mielomanın klinik gedişi, diaqnostik, proqnostik və müalicəyə cavab meyarları**

**V.T. Hüseynov. G.M. Nəsrullayeva**

Çoxsaylı mieloma (Multiple myeloma, MM) zamanı, sümük iliyində plazmatik hüceyrələr anormal və nəzarətsiz çoxalaraq monoklonal immunoqlobulinlər(İg) və ya İg-in yüngül zəncirini (paraprotein, M-protein) sekresiya edirlər. Bununla əlaqədar normal İg sintezi pozulur, xəstələrdə immun çatışmazlıq, qan qatılığı, böyrək zədələnməsi, sümüklərdə destruktiv ocaqlar, hiperkalsemiya və anemiya kimi əlamətlər meydana gəlir. MM bütün hematoloji bədxassəli xəstəliklərin 10-15%-ni təşkil edir. Son illərdə nisbətən cavan xəstələrdə periferik kök hüceyrə köçürülməsi ilə aparılan yüksək dozalı melfalan müalicəsi ilə orta yaşama müddəti 5-6 ilə yüksəlmişdir ki, bunlardan cəmi 25%-i 10 il sağqalmaqdadır. Autoloji periferik kök hüceyrə transplantasiyası (APKHT) ilə yanaşı yeni preparatların istifadəsi MM-li xəstələrin proqnozunun daha da yaxşılaşmasına zəmin yaratmışdır.

**Summary**

**Clinical features, diagnostic, prognostic and response criterias of MM.**

**V.T.Huseynov, G.M.Nasrullayeva**

In Multiple Mieloma plasmatic cells abnormal and uncontrolled multiply in bone marrow and secrete monoclonal immunoglobulins (Ig) or light chains of Ig (paraprotein, M-protein). Therefore, the synthesis of normal Ig disrupts and immunodeficiency, blood hyperviscosity, kidney damage, destructive bone lesions, hypercalcemia and anemia occurs in patients. MM is 10-15% of all hematologic malignant diseases. In recent years, peripheral stem cell transplantation (PSCT) with using high-dose Melfalane in comparatively young patients has increased the average life expectancy to 5-6 years, only 25% of them has over 10 years of survival. Using of new drugs with autologus PSCT give a more favorable prognosis in patients with MM.

Finally, we want to note that learning MM in molecular, genetic levels and using of new drugs increased efficiency of MM treatment results. However, due to obtained results, one of the main issues of today's oncohematology is deeper investigation of pathogenetic mechanisms of MM to achieve development of new treatments that led to improve the life quality and prolongation of average survival of patients.

Daxil olub:14 01.2016

# XORA MƏNŞƏLİ KƏSKİN QASTRODUODENAL QANAXMALARIN KOMPLEKS KONSERVATİV MÜALİCƏSİNDƏ ANTİOKSİDANT TERAPİYANIN YERİ

**C.N.Hacıyev, V.A.Allahverdiyev, N.C.Hacıyev, M.R.Quliyev**
*Azərbaycan Tibb Universiteti, ümumi cərrahiyyə kafedrası, Bakı*

***Açar sözlər:*** qastroduodenal qanaxmalar, xora, konservativ müalicə, antioksidant terapiya
***Ключевые слова:*** гастродуоденыльные кровотечения, язва, консервативное лечение, антиоксидантная терапия
***Keywords:*** gastroduodenal bleeding ulcer, conservative therapy, antioxidant therapy

Mədə-bağırsaq traktının yuxarı şöbələrindən olan qanaxmaların 46–61%-i, qarın boşluğu üzvlərinin təcili patologiyalarının isə 18–23%-i xora mənşəli kəskin qastroduodenal qanaxmaların (KQDQ) payına düşür [5] və tibbi-iqtisadi məsələ kimi qarşıda durur [3,16]. KQDQ zamanı müalicə prosesinə kompleks şəkildə yanaşılmasına baxmayaraq ölüm halları yüksək hədlərdə (5–14%) qalır [4,11,13,15].

Bir sıra müəlliflər [6,7,8] qanaxmadan sonrakı ağırlaşmaların konservativ müalicəsinə böyük ümidlər bəsləyir. Son illərin tədqiqatları ilə xoranın və eləcə də onun hemorragik ağırlaşmalarının əmələ gəlməsi mexanizmində xlorid turşusu və pepsin sintezi faktorlarının lokal pozulmasının [9,12,14], eyni zamanda lipoperoksidləşmə proseslərinin sistem və yerli pozğunluqlarının [1,2,10] aparıcı rol oynaması sübut edilmişdir. Buna görə də endoskopik hemostaz aparılmış xəstələrdə, yaxud spontan hemostaz fonunda aparılan kompleks konservativ terapiya tədbirlərinə (infuzion – transfuzion, ümumi hemostatik, antisekretor, antihelikobakter, bərpaedici) antioksidantlar da daxil edilişdir.

**Tədqiqatın məqsədi.** KQDQ zamanı kompleks terapiya tədbirlərinə antioksidant terapiyanın daxil edilməsinin lipoperoksidləşmə proseslərinə təsirinin öyrənilməsi.

**Tədqiqatın material və metodları.** Tədqiqata KQDQ diaqnozu ilə endoskopik və spontan hemostaz fonunda konservativ terapiya aparılmış 78 xəstə daxil edilmişdir. 16 – 75 yaşlarında 61 kişi və 17 qadın olan xəstələrdən 18-də mədə, 56-da onikibarmaq bağırsaq və 4-də müştərək xora olmuşdur. Endoskopik müayinə zamanı qanaxmanın aktivliyi J. Forrest təsnifatı üzrə belə olmuşdur: aktiv qanaxma (F Ia və F Ib) 12, qeyri–stabil qanaxma (F IIa, F IIb və F IIc) 47 və baş vermiş qanaxma (F III) 19 nəfərdə.

İtirilmiş qanın həcmi A.A. Şalimov üsuli ilə qiymətləndirilmişdir: yüngül dərəcəli qanitirmə 27, orta ağır dərəcəli qanitirmə 26 və ağır dərəcəli qanitirmə isə 25 xəstədə olmuşdur.

78 xəstədən 50-də H. pilory aşkarlanmışdır: əhəmiyyətli miqdarda (+++) 26, mülayim miqdarda (++) 14 və az miqdarda (+) 10 xəstədə.

Aparılan konservativ müalicənin növündən asılı olaraq xəstələr 2 qrupa bölünmüşdür. I qrupa daxil olan 37 xəstədə ümumən qəbul edilmiş kompleks bazis terapiya (infuzion–transfuzion, hemostatik, antisekretor, antihelikobakter, bərpaedici) aparılmışdır. II qrupun 41 xəstəsində isə yuxarıda sadalanan bazis terapiya tədbirləri kompleksinə betaleykinlə immunstimulyasiya və 5%-li meksidolla antioksidant terapiya əlavə edilmişdir.

Antioksidant 5%-li meksidolun dozası və antioksidant terapiyanın aparılma müddəti qanitirmənin ağırlığından və orqanizmin antioksidant statusunun pozulmasının dərinliyindən asılı olaraq müəyyən edilmişdir.

Tədqiqatlar dinamikada xəstələr klinikaya daxil olarkən, müalicənin 1-3, 5-7 və 10-14-cü sutkalarında aparılmışdır. Xəstələrdə antioksidant statusun vəziyyəti plazmada dien konyuqatları (DK), malon dialdehidi (MDA) və katalaza (KAT) aktivliyinin, eritrositlərdə qlutation peroksidazanın (QP), reduksiya olunmuş qlutationun (QSH) və ümumi antioksidant aktivliyin (ÜAA) səviyyəsinə əsasən qiymətləndirilmişdir. Endogen intoksikasiyanın səviyyəsini aşkarlamaq üçün plazmada orta molekullu peptidlərin (OMP) miqdarı öyrənilmişdir.

15 sağlam şəxsin yuxarıda sadalanan göstəriciləri norma kimi götürülmüşdür. Tədqiqatın gedişində alınan rəqəmlər variasion statistika və qeyri–parametrik üsullarla statistik işlənilmişdir.

**Nəticələr və onların müzakirəsi.** Hər iki qrup xəstələrdə müalicənin növündən asılı olaraq ümumilikdə lipidlərin peroksidləşməsi (LPO)-antioksidant müdafiə (AOM) sistemində gedən dəyişikliklərin müqayisəli dinamikası cədvəldə verilmişdir.

Cədvəldən göründüyü kimi I qrupun xəstələrində klinikaya daxil olarkən normaya nisbətən DK miqdarı 2,7 dəfə ($p<0,001$), MDA-2,0 dəfə ($p<0,001$), KAT-14,9%, QP-5,3%, ÜAA-12,6% artsa da QSH 25,8% ($p<0,001$) azalmışdır.

**Cədvəl**

**Konservativ terapiyanın növündən asılı olaraq xəstələrdə LPO-AOM sistemi göstəricilərinin və OMP miqdarının müqayisəli dəyişməsi**

| Göstərici | Qanitirmənin dərəcəsi | Tədqiqatın müddəti (sutka) | | | | Norma |
|---|---|---|---|---|---|---|
| | | ə/q | 3 | 7 | 14 | |
| DK, $D_{233}$/ml | I | 1,22±0,07<br>0,48-2,1<br>*** | 1,11±0,07<br>0,45-1,8<br>*** | 0,94±0,06<br>0,44-1,53<br>***; ^^ | 0,68±0,04<br>0,43-1,2<br>***; ^^^ | 0,45±0,01<br>0,4-0,5 |
| | II | 1,14±0,07<br>0,48-2,2<br>*** | 0,96±0,06<br>0,44-1,8<br>*** | 0,76±0,04<br>0,44-1,4<br>***;^^^; # | 0,51±0,02<br>0,33-0,85<br>*; ^^^; ### | |
| MDA, nmol/ml | I | 7,7±0,4<br>4,3-12,3<br>*** | 7,3±0,4<br>4,1-11<br>*** | 6,0±0,3<br>3,8-9,6<br>***; ^^ | 5,0±0,3<br>3,6-8,7<br>**; ^^^ | 3,8±0,1<br>3,3-4,2 |
| | II | 6,9±0,4<br>4,1-1,8<br>*** | 6,4±0,4<br>3,7-10,6<br>*** | 5,3±0,3<br>3,6-8,5<br>***;^^^;### | 4,2±0,1<br>3,5-6,8<br>*; ^^^; ### | |
| KAT, mkat/l | I | 19,0±1,4<br>6,1-30,2 | 18,3±1,3<br>7,5-30,2 | 17,5±1,0<br>8,6-25,7 | 17,3±0,7<br>8,6-23,5 | 16,5±0,5<br>11,5-19 |
| | II | 20,3±1,4<br>6-42,5 | 19,4±1,1<br>8,5-30,5 | 17,8±0,7<br>9,1-25 | 16,5±0,4<br>10,3-20,3^ | |
| GSH, mkmol/l | I | 1,6±0,0<br>1,1-2,1<br>*** | 1,7±0,1<br>1,15-2,35<br>*** | 1,8±0,0<br>1,21-2,4<br>***; ^^^ | 1,9±0,1<br>1,36-2,4<br>*;^^^ | 2,1±0,1<br>1,7-2,6 |
| | II | 1,6±0,0<br>1-2,1<br>*** | 1,8±0,0<br>1,1-2,3<br>***; ^^ | 2,0±0,0<br>1,4-2,5<br>^^^; # | 2,1±0,0<br>1,6-2,7<br>^^^; # | |
| QP, mkmol/dəq/Hb | I | 341,4±16,6<br>201-560 | 330,8±14,7<br>212-520 | 325,9±12,4<br>226-470 | 322,2±10,7<br>230-450 | 321,0±12,3<br>250-397 |
| | II | 354,9±14,3<br>201-565 | 337,7±11,6<br>215-480 | 331,1±9,0<br>230-415 | 321,0±6,6<br>245-395^ | |
| ÜAA, % | I | 46,5±2,1<br>25-65 | 44,4±1,8<br>28-61 | 43,6±1,5<br>31-58 | 42,8±1,0<br>33-51 | 40,5±0,7<br>36-44 |
| | II | 47,3±1,8<br>24-65* | 45,4±1,4<br>28-60* | 43,3±0,8<br>33-51* | 41,1±0,5<br>35-48^^ | |
| OMP, q/l | I | 1,32±0,07<br>0,64-2*** | 1,22±0,07<br>0,61-1,8*** | 1,07±0,06<br>0,561,66<br>***; ^ | 0,84±0,04<br>0,45-1,21***;<br>^^^ | 0,51±0,02<br>0,42-0,61 |
| | II | 1,22±0,07<br>0,61-2,1<br>*** | 1,09±0,06<br>0,58-1,8<br>*** | 0,85±0,05<br>0,46-1,4<br>***; ^^^; ## | 0,61±0,02<br>0,41-1<br>*; ^^^; ### | |

Qeyd: cədvəldə göstəricilər arasında fərqin dürüstlüyü: 1.mal göstərici ilə * - $p<0,05$; ** -$p<0,01$; *** - $p<0,001$; 2.İlkin göstərici ilə: ^-$p_0<0,05$; ^^- $p_0<0,01$; ^^^ -$p_0<0,001$; I qrupun göstəricisi ilə: #-$p_1<0,05$; ## - $p<0,01$; ### - $p_1<0,001$

Plazmada OMP miqdarı isə normadan 2,6 dəfə ($p<0,001$) yüksək bir həddə qalxmışdır. Aparılan kompleks müalicə tədbirləri LPO - AOM sistemindəki bu disbalans halına müsbət təsir göstərsə də müşahidənin sonuna normadan DK-53,1% ($p<0,001$), MDA 32,5% ($p<0,01$) və OMP -63,7% ($p<0,001$) yüksək, QSH isə 10% ($p<0,05$) az olaraq qalır. Bu fonda KAT, QP və ÜAA normaya yaxınlaşır.

Antioksidant meksidolun II qrup xəstələrdə kompleks müalicəyə daxil edilməsi hesabına isə I qrupun analoji göstəriciləri ilə müqayisədə tədqi= qatın sonuna DK miqdarı 25,8% ($p_1<0,001$), MDA- 15,9% ($p_1<0,01$) və OMP-27,4% ($p_1<0,001$) az olur, digər göstəricilər isə (KAT, QSH, QP və QAA) norma daxilinə enir.

Aparılan tədqiqatlar LPO -AOM sistemindəki dəyişikliklərin dərinliyinin qanitir-mənin həcmindən birbaşa asılı olduğunu və bütün hallarda antioksidant terapiyanın lipoperok-sidləşmə proseslərinin intensivliyini əhəmiyyətli dərəcədə azaltdığını göstərmişdir. Belə ki, yüngül dərəcəli qanitirmələr zamanı I qrupdan fərqli olaraq II qrupa daxil olan xəstələrdə meksidolla aparılan antioksidant terapiya tədqiqatın sonuna öyrənilən bütün göstəriciləri tam normallaşdıra bilir.

Orta ağırlıq dərəcəsində qanitirməsi olan xəstələrdə də kompleks bazis terapiya və betaleykinlə sitokinoterapiya fonunda 5%-li meksidolun tətbiqinin antioksidant status pozğunluqlarına tənzimləyici təsiri özünü qabarıq biruzə verir (şək. 1).




**Şək. 1. Orta ağır dərəcəli qanitirmə zamanı meksidolun plazmada MDA konsentrasiyasının dəyişməsinə təsiri**

1 saylı şəkildən göründüyü kimi müalicənin 10-14-cü sutkalarında I qrupun xəstələrində plazmada MDA miqdarı normadan 19,9% ($p<0,05$), II qrupda isə cəmi 6,8% çox olmuşdur.

Ağır dərəcəli qanitirməsi olan I qrupun xəstələrində daxil olarkən eritrositlərdə normadan 34,2% ($p<0,001$) az olan QSH səviyyəsi ənənəvi bazis konservativ terapiya fonunda dinamikada artaraq 10-14-cü sutkada ilkin göstəricidən 27,7% ($p_0<0,01$) çox, lakin sağlam şəxslərin göstəricisindən isə 16,1% ($p<0,05$) az bir həddə çata bilir. II qrupun analoji ağırlıq dərəcəsində olan xəstələrində isə 5%-li meksidolun müalicəvi təsiri QSH səviyyəsini tədqiqatın sonuna normaya tam yaxınlaşdıra bilir (şək. 2).

Meksidolla aparılan antioksidant terapiya lipoperoksidləşmə metabolitlərinin miqdarını əhəmiyyətli dərəcədə azaltdığından plazmada OMP səviyyəsinə də pozitiv təsir göstərir (şək. 3).

**Nəticə:** 1. KQDQ zamanı LP-AOM sistemindəki dəyişikliklərin dərinliyi qanitirmənin həcmindən asılı olur və ənənəvi bazis konservativ terapiya bu pozğunluqları tam aradan qaldıra bilmir.




**Şək. 2. Ağır dərəcəli qanitirməsi olan xəstələrdə müalicənin növündən asılı olaraq QSH səviyyəsinin müqayisəli dəyişmə dinamikası.**




**Şək. 3. Ağır dərəcəli qanitirmə fonunda aparılan müalicə növünün plazmada OMP miqdarına təsiri**

2.Bazis konservativ terapiya tədbirlərinə antioksidant meksidolun daxil edilməsi lipoperoksidləşmə proseslərinin intensivliyini və endogen intoksikasiyanın dərinliyini əhəmiyyətli dərəcədə azaltmaqla müalicənin nəticələrini yaxşılaşdırmağa imkan verir.

**ƏDƏBİYYAT**

1.Амирасланов Э.Г. Клинико–прогностическая значимость местных и системных показателей перекисного окисления липидов и антиоксидантной защиты при хирургическом лечении гастродуоденальных кровотечений язвенной этиологии: Автореф. дис. …канд. мед.наук. Баку, 2008, 21с.

2.Hacıyev C.N., Allahverdiyev V.A., Quliyev M.R. və b. Xora mənşəli qastroduodenal qanaxmalar zamanı cərrahi müdaxilənin orqanizmin antioksidant statusuna təsiri // Cərrahiyyə, 2015, №3, c.16-20.

3.Казымов И.Л. Лечение язвенных гастродуоденальных кровотечений // Хирургия, 2007, №4, с.22-27

4.Багненко С.Ф., Вербицкий В.Г., Синенченко Г.И., Курыгин А.А. Применение протоколов организации лечебно- диагностической помощи при язвенных кровотечениях в клинической практике // Вест.хирургии, 2007, №4, с.71-76.

5.Багненко С.Ф., Синенченко Г.И. Вербицкий В.Г. Применение протоколов организации лечебно – диагностической помощи при язвенных кровотечениях в клинической практике // Вест. хир. гастроентерол. 2006, №1, с.57-60.

6.Брискин Б.С., Гарсия Х.С. Возможности использования ингибитора протонной помпы омепрозола для лечения кровоточащих дуоденальных язв // Фарматека, 2005, №4-5, с.18-21

7.Кондратенко П.Г., Раденко Е.Е. Эффективность эндоскопических методов в лечении больных с язвенными гастродуоденальными кровотечениями // Український Журнал малоінвазивноі та ендоскопічноі Хірургіі, 2007, №1, с.35-36.

8.Передерий В.Г., Ткач С.М., Скопиченко С.В. Язвенная болезнь. Прошлое, настоящие, будущее. Киев, 2005, 256 с.

9.Тогузова Д.А. Медикаментозная профилактика рецидивов гастродуоденальных кровотечений при язвенной болезни: Автореф. дисс. … канд. медиц. наук.М., 1997, 23с.

10. Хуцишвили М.П., Рапопорт С.И. Свободнорадикальные процессы и их роль в патогенезе некоторых заболеваний органов пищеварения // Клиническая медицина, 2002, №10, с.10-16.

11. Barkun A., Sabbah S., Enns R et al. The Canadian Registry on Nonvariceal Upper Gastrointestinal Bleeding and Endoscopy (RUGBE): Endoscopic hemostasis and proton pomp inhibition are associated with improved outcomes in a real-life setting // Am J. Gastroen., 2004, v.99, p.1238-1246.

12. Fennerty M.B. Pathophysiology of the upper gastrointestinal tract in the critically ill patient: Rationale for therapeutic benefits of acid suppression // Crit. Care Med, 2002, №30, p.351-355.

13. Lanos A., Upper G. Bleeding – associated mortality: challenges to impoving a rezistant outcome // Am J. Gastroenteral., 2010, v.105, p.90-92.

14. Lau J.Y.W., Sung J.Y., Lee K.K. et al. Effekt of intravenous omeprazole on recurrent bleeding after endoscopic treatment of bleeding peptic ulcers // Gut, 1989, №30, p.1704-1707.
15. Sung J.J., Tsoi K.K., Ma T.K.et al. Causcs of mortality in patients with peptic ulcer bleeding: a prospective cohort study of 10428 cases //Am J. Gastroenteral., 2011, v.110, p.138-144.
16. Viviane A., Alan B. Estimates of costs of hospital stay for variceal and nonvariceal upper gastrointestinal bleeding in the United Stayes // Value Health, 2008, v.11, p.1-3.

**Резюме**

**Место антиоксидантной терапии в комплексном консервативном лечении острых гастродуоденальных кровотечений язвенного генеза.**

**Дж.Н. Гаджиев, В.А. Аллахвердиев, Н.Дж. Гаджиев, М.Р. Кулиев**

В статье в сравнительной оценке анализируются результаты лечения 78 больных с острыми язвенными гастродуоденальнымикровотечениями (ОЯГДК). У 18 больных была язва желудка, у 57 больных язва двенадцатиперстной кишки и у 4-х сочетанная язва. Из 78 больных интенсивность кровотечения у 12 больных выявлено активное кровотечение (FIa, FIb), у 47 больных нестабильный гемостаз (FIIa, FIIb, FIIc) у 19 больных - FIII. Кровопотеря легкой степени отмечена у 27, седней тяжести- у 26 и тяжелая- у 25 больных. H.pylori в значительном количестве (+++) выявлен у 26 больных, умеренном (++)- у 14 больных и незначительном (+)- у 10, не выявлен у 28 больных. В зависимости от метода консервативной терапии больные были разделены на 2 группы. 37 больные I группы получали общепринятую базисную комплексную интенсивную терапию, а 41 больным II группы в комплексную терапию допольнительно включили иммуностимулятор беталейкина и антиоксидант 5% мексидола. Для оценки перекисного окисления липидов – антиоксидантной защиты (ПОЛ-АОЗ) в крови больных в динамике изучали показатели процессов липопероксидации и эндогенной интоксикации. Проведенные исследования показали, что глубина изменений в системе ПОЛ-АОЗ зависела от тяжести кровопотери: чем больше степень кровопотери, тем глубже дисбаланс. Проводимая общепринятая комплексная базисная терапия не может полностью устранить в системе ПОЛ-АОЗ. Результаты исследований позволяют заключить, что на фоне общепринятой комплексной терапии и иммуностимуляциибеталейкином проведенная антиоксидантная терапия мексидолом позволяет значительно ускорить устранения дисбаланса в антиоксидантной системе и в значительной степени улучшить результаты лечения.

**Summary**

**The place of antioxidant therapy in complex conservative treatment of acute gastroduodenal bleeding ulcer genesis**

**J.N. Hajiyev, V.A. Allahverdiyev, N.J. Hajiyev, M.R. Kuliyev**

In this article is analyzed the comparative evaluation of results of treatmentin 78 patients with acuteulcerative gastroduodenal hemorrhage. In 18 patientshad a stomachulcer, 57 patientsduodenalulcer and 4 concomitantulcer. 12 patients of the 78 revealedactivebleeding (F Ia, F Ib), 47 patients unstablehemostasis (F IIa, F IIb, F IIc), 19 patients - FIII. Mildbloodloss was observedin 27, moderate - in 26 and severe- in 25 patients. H.pyloriinsignificantnumbers (+++) wasdetectedin 26 patients, moderate (++) - in 14 patients, and minor (+) - at 10, was not detectedin 28 patients. The patients depending on themethod of conservative treatment were divided into 2 groups. 37 patients of 1st group received conventional basic complex intensive therapy, and 41 patients of 2nd group in the combined therapy received immunstimulator betaleukin and antioxidant - 5% mexidol. To evaluate the lipidperoxidation - antioxidant protection (LPO-AOP) inblood of patients in dynamics was studied indicators of lipid peroxidation and endogenousin toxication. Studies have shown that the depth of changesinthe LPO - AOP depended on the Common complex basic therapy can not completely eliminate the LPO - AOP. There search results suggest that on the background of common complex therapy and immunostimulation with Betaleukin and antioxidant therapy with mexidol can significantly facilitate elimination of imbalances in antioxidant system and greatly improve treatment outcomes.

Daxil olub: 04 02.2016

# PERİTONİT ZAMANI QARIN BOŞLUĞUNUN SUPEROKSİDİSMUTAZA MƏHLULU İLƏ SANASİYASININ BÖYRƏYİN FUNKSİONAL VƏZİYYƏTİNƏ TƏSİRİ

**E.Y.Nəsibov**
*Azərbaycan Tibb Universiteti, II Cərrahi xəstəliklər kafedrası, Bakı*

***Açar sözlər***: peritonit, böyrək çatışmazlığı, superoksiddismutaza
***Ключевые слова:*** перитонит, почечная недостаточность, супероксиддисмутаза
***Key words:*** peritonitis, renal function, superoxide dismutase

Peritonit qarın boşluğunun cərrahi xəstəlikləri arasında ən təhlükəli nazoloji vahidlərdən birincisi olub, yüksək ölüm faizi ilə nəticələndiyinə görə (5-50%) cərrahlar və reanimatoloqlar arasında bu gün də öz aktuallığını qoruyub saxlamışdır [1,2,6]. Peritonit zamanı ölümə səbəb olan əsas amillər inkişaf edən endogen intoksikasiya fonunda poliorqan çatışmazlığıdır [2,6,7]. Bildiyimiz kimi həzm traktından periton boşluğuna düşmüş mikroorqanizmlər və onların ifraz etdiyi toksinlərin, bioloji aktiv maddələrin və s. qana və limfa sisteminə rezorbsiyası zamanı həyati vacib orqanların mofrofunksional vəziyyətində ciddi dəyişikliklər əmələ gətirməklə həmin orqanların (qaraciyər və böyrəklər) funksiyasının zəifləməsinə və tamamilə itirilməsinə səbəb olur ki, bu da sonrakı dövrdə letallıqla nəticələnir [3,4,5,6] Peritoneal intoksikasiya fonunda daha tez funksional fəaliyyətinin pozulmasına səbəb olan üzvlərdən biri və birincisi böyrəklərdir. Perit-o nitin patogenezini daha da dərindən öyrənmək və böyrək çatışmazlığının qarşısını almaq məqsədilə biz aşağıda qeyd etdiyimiz qaydada tədqiqat işi aparmışıq.

**Tədqiqtaın məqsədi.** Peritonitli xəstələrin müalicəsində ənənəvi üsulla yanaşı qarın boşluğunun superoksidismutaza sanasiyasından sonra böyrəklərin funksional fəaliyyətini göstərən laborator göstəricilərin təyini və müalicə mərhələlərində dəyişilməsinin öyrənilməsidir.

**Tədqiqatın material və metodları.** Hazırki tədqiqat M.Ə.Əfəndiyev adına 2 saylı Bakı şəhər Kliniki xəstəxanasında və akad. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzin cərrahiyyə şöbələrində peritonitin terminal fazasında klinikaya daxil olmuş 40 nəfər xəstələrin müalicəsinin nəticələrinin öyrənilməsinə və müqayisəli təhlilinə əsaslanmışdır.

Xəstələr klinikaya xəstəlik başladıqdan 24-48 saat sonra müraciət etmişdir. Tədqiq edilən 8 xəstədə peritonitin yaranması iltihablaşmış soxulcanabənzər çıxıntının perforasiyası, 10 xəstədə iltihablaşmış öd kisəsinin perforasiyası, 10 xəstədə nazik bağırsaq keçməzliyi nəticəsində, 6 xəstədə mədə xorasının perforasiyası, 5 xəstədə isə pankreonekroz nəticəsində inkişaf etmişdir (cədvəl 1). Ənənəvi üsulla sanasiya ilə bərabər qarın boşluğunun superoksidismutaza preparatı ilə sanasiyasının böyrəklərin funksional fəaliyyətinə göstərdiyi təsirin effektivliyini təyin etmək məqsədilə xəstələri 2 qrupa bölmüşük.

Nəzarət qrupuna 19 xəstə daxil edilmişdir ki, bu qrup xəstələrin müalicəsində qarın boşluğu ənənəvi sanasiya olunmuşdur və yanaşı olaraq standart müalicə üsullarından istifadə edilmişdir.

Əsas qrupa 20 xəstə daxil olunmuşdur ki, nəzarət qrupundan fərqli olaraq, bu qrup xəstələrin müalicəsində yalnız əməliyyat vaxtı qarın boşluğu ənənəvi üsulla sanasiya olunmaqla yanaşı superoksidismutaza tərkibli məhlulla (3000 vah/ml superoksidismutaza preparatı 500 ml fizioloji məhlulla həll olunub) sanasiya olunmuşdur.

**Cədvəl 1**
**Etioloji amillərdən asılı olaraq xəstələrin qruplara bölünməsi**

| № | Etioloji amillər | Xəstələrin sayı | | | |
|---|---|---|---|---|---|
| | | Nəzarət qrup | | Əsas qrup | |
| | | Müt.r. | % | Müt.r. | % |
| 1 | İltihablaşmış soxulcanabənzər çıxıntının perforasiyası | 4 | 21,05 | 4 | 20 |
| 2 | İltihablaşmış öd kisəsinin perforasiyası | 5 | 26,32 | 5 | 25 |
| 3 | NKB | 4 | 21,05 | 6 | 30 |
| 4 | Mədə xorasının perforasiyası | 3 | 15,79 | 3 | 15 |
| 5 | Pankreonekroz | 3 | 15,79 | 2 | 10 |
| 6 | Cəmi: | 19 | 100 | 20 | 100 |

**Cədvəl 2**
**Əməliyyatdan əvvəlki dövrdə qan zərdabında sidik turşusu, sidik cövhəri, kreatinin, ümumi bilirubin və C-reaktiv zülalın təyini**

| № | Etioloji amillər | Əməliyyatdan əvvəl | | | | |
|---|---|---|---|---|---|---|
| | | Sidik turşusu | Sidik cövhəri | Kreatinin | Ümumi bilirubin | C-reaktiv zülal |
| 1 | İltihablaşmış soxulcanabənzər çıxıntının perforasiyası (İSÇP) | 8 172.0±12,6 | 8 13,0±0,7 | 8 165,0±8,7 | 8 46,0±2,3 | 8 26,8±2,2 |
| 2 | Mədə xorasının perforasiyası (MXP) | 6 183,3±5,1 | 6 11,4±1,1 | 6 137,0±4,5 | 6 47,7±1,4 | 6 18,5±0,8 |
| 3 | İltihablaşmış öd kisəsinin perforasiyası (İÖKP) | 10 181,3±7,2 | 10 10,8±0,5 | 10 147,4±3,7 | 10 45,4±2,6 | 10 20,3±1,6 |
| 4 | NBK | 10 157,5±10,1 | 10 12,5±1,0 | 10 158,0±7,7 | 10 44,3±2,6 | 10 26,1±2,7 |
| 5 | Pankreonekroz | 6 156,7±8,8 | 6 12,5±0,5 | 6 165,0±7,6 | 6 48,5±1,2 | 6 23,0±0,6 |
| 6 | Norma | 200-430 mkmol/l | 2,8-7,5 mmol/l | 74-110 mkmol/l | 5-21 mkmol/l | 5 mg/l |
| 7 | Xəstələrin sayı | 40 | 40 | 40 | 40 | 40 |

Müalicə mərhələlərində hər bir xəstəyə müvafiq standart müayinələrlə yanaşı daxil olarkən və müalicənin 3 günündə qan zərdabında sidik turşusu, sidik cövhəri, kreatinin, ümumi bilirubin, C-reaktiv zülalın təyini müqayisəli şəkildə öyrənilmişdir. Müayinələr Azərbaycan Tibb Universitetinin Elmi Tədqiqat Mərkəzinin biokimya laboratoriyasında icra olunmuşdur.

**Alınmış nəticələr və onların müzakirəsi.** Əməliyyatdan əvvəlki aparılan müşahidələr göstərmişdir ki, etioloji amillərdən asılı olmayaraq sidik turşusunun qatılığı daxil olmuş peritonitli xəstələrin hamısında normadan aşağı olmuşdur (2 xəstə istisna olmaq şərtilə). Ən aşağı göstərici isə pankreonekroz səbəbindən törənmiş peritonitli xəstədə müşahidə olunmuşdur. İltihablaşmış soxulcanabənzər çıxıntının perforasiyasından (İSÇP) yaranmış peritonitli xəstələrdə sidik cövhərinin qatılığı 2,5 dəfə, kreatinin qatılığı 1,8 dəfə, ümumi bilirubinin qatılığı 3,5 dəfə, C-reatik zülalın qatılığı isə 5,4 dəfə normadan yüksək olmuşdur. Mədə xorasının perforasiyası (MXP) nəticəsində əmələ gəlmiş peritonitli xəstələrinin qanında sidik cövhərinin qatılığı 2,2 dəfə, kreatinin qatılığı 1,5 dəfə, ümumi bilirubinin qatılığı 3,7 dəfə, C-reatik zülalın qatılığı isə 3,7 dəfə normadan yüksək olmuşdur. İltihablaşmış öd kisəsinin perforasiyası (İÖKP) nəticəsində əmələ gəlmiş peritonitli xəstələrin qanında sidik cövhərinin qatılığı 2,1 dəfə, kreatinin qatılığı 1,6 dəfə, ümumi bilirubinin qatılığı 3,5 dəfə, C-reatik zülalın qatılığı isə 4,1 dəfə normadan yüksək olmuşdur. Nazik bağırsaq keçməməzliyi (NBK) səbəbindən törənmiş peritonitli xəstələrin qanında sidik cövhərinin qatılığı 2,4 dəfə, kreatinin qatılığı 1,7 dəfə, ümumi bilirubinin qatılığı 3,4 dəfə, C-reatik zülalın qatılığı isə 5,2 dəfə normadan yüksək olmuşdur. Pankreonekroz səbəbindən yaranmış peritonitli xəstələrin qanında sidik cövhərinin qatılığı 2,4 dəfə, kreatinin qatılığı 1,8 dəfə, ümumi bilirubinin qatılığı 3,7 dəfə, C-reatik zülalın qatılığı isə 4,6 dəfə normadan yüksək olduğu aşkarlanmışdır.

Sidik turşusunun ən aşağı göstəricisi 1 nəfə İSÇP nəticəsində əmələ gəlmiş peritonitli xəstədə müşahidə olunmuşdur (109mmol/l). Ən yüksək göstəricidə bu qrupda olan 1 nəfə xəstədə müəyyən edilmişdir (230mkmol/l). Sidik cövhərinin qatılığı 2 xəstədə (MXP və İÖKP) ən aşağı həddə olsa da (8,2mmol/l), bu göstərici normadan 1,6 dəfə yüksəkdir. Sidik cövhərinin ən yüksək həddi isə NBK fonunda əmələ gəlmiş 1 nəfər peritonitli xəstədə müşahidə olunmuşdur (18,2mmol/l). Bu da normadan 3,5 dəfə çoxdur. Qanda kreatinin səviyyəsi bütün qruplarda normadan yüksək olsa da, ən aşağı göstərici MXP nəticəsində törənmiş 1 nəfər xəstədə aşkar olunmuşdur (120mkmol/l) ki, bu da normadan 1,3 dəfə yüksəkdir. Ən yuxarı göstərici isə İSÇP nəticəsində əmələ gəlmiş 1 nəfər peritonitli xəstədə müşahidə olunmuşdur (200mkmol/l) ki, bu da normadan 2,2 dəfə yüksəkdir. Ümumi bilirubinin ən aşağı göstəricisi NBK səbəbindən törənmiş 1 nəfər peritonitli xəstədə müşahidə olunmuşdur (34mkmol/l) ki, bu da normadan 2,6 dəfə yüksəkdir.

Ən yüksək göstərici də eyni qaydada NBK səbəbindən yaranmış 1 nəfər peritonitli xəstədə aşkar olunmuşdu (62mkmol/) ki, bu da normadan 4,8 dəfə çoxdur. C-reaktiv zülalın göstəricisinin ən aşağı həddi NBK səbəbindən yaranmış 1 nəfər peritonitli xəstədə aşkarlanmışdır (10mg/l). Ən yüksək göstərici isə 1 nəfər İSÇP nəticəsində, 1

nəfər isə NBK nəticəsində törənmiş peritonitli xəstələrdə (hər ikisində eyni olaraq 37mg/l təşkil etmişdir) aşkarlanmışdır ki, bu da normadan 7,4 dəfə çoxdur.

**Cədvəl 3**
**Ənənəvi üsulla aparılan detoksikasiyadan sonra qan zərdabında sidik turşusu, sidik cövhəri, kreatinin, ümumi bilirubin və C-reaktiv zülalın peritonitin müalicəsinin 3-cü günündə təyini**

| № | Etioloji amillər | Sidik turşusu | | Sidik cövhəri | |
|---|---|---|---|---|---|
| | | I | II | I | II |
| 1 | İltihablaşmış soxulcanabənzər çıxıntının perforasiyası | 4<br>197,5±15,5 | 4<br>160,0±15,2 | 4<br>11,7±1,1 | 4<br>13,4±1,0 |
| 2 | Mədə xorasının perforasiyası | 3<br>191,7±1,7 | 191,0±14,3 | 3<br>9,3±0,9 | 3<br>12,1±2,3 |
| 3 | İltihablaşmış öd kisəsinin perforasiyası | 5<br>201,0±9,8 | 5<br>179,6±10,1 | 5<br>9,5±0,7 | 5<br>10,8±0,4 |
| 4 | Nazik bağırsaq keçməməzliyi | 4<br>167,5±16,7 | 6<br>156,7±15,0 | 4<br>12,5±1,5 | 6<br>11,4±1,6 |
| 5 | Pankreonekroz | 3<br>153,3±18,6 | 2<br>157,5±7,5 | 3<br>12,8±0,8 | - |
| 6 | Xəstələrin sayı | 19 | 20 | 19 | 18 |

**Cədvəl 3-ün ardı**

| № | Etioloji amillər | Kreatinin | | Ümumi bilirubin | | C-reaktiv zülal | |
|---|---|---|---|---|---|---|---|
| | | I | II | I | II | I | II |
| 1 | İltihablaşmış soxulcanabənzər çıxıntının perforasiyası | 4 xəstə<br>171,3±12,6 | 4 xəstə<br>143,0±15,0 | 4 xəstə<br>44,0±3,9 | 4 xəstə<br>40,3±3,4 | 4 xəstə<br>27,0±2,4 | 4 xəstə<br>21,8±3,8 |
| 2 | Mədə xorasının perforasiyası | 3 xəstə<br>123,3±3,3 | 3 xəstə<br>129,3±5,8 | 3 xəstə<br>45,0±2,1 | 3 xəstə<br>43,7±3,2 | 3 xəstə<br>18,7±1,5 | 3 xəstə<br>11,3±0,3 |
| 3 | İltihablaşmış öd kisəsinin perforasiyası | 5 xəstə<br>142,4±4,9 | 5 xəstə<br>140,2±7,1 | 5 xəstə<br>39,6±2,7 | 5 xəstə<br>44,6±5,1 | 5 xəstə<br>18,0±3,1 | 5 xəstə<br>15,8±2,4 |
| 4 | Nazik bağırsaq keçməməzliyi | 4 xəstə<br>146,8±15,8 | 6 xəstə<br>160,2±8,9 | 4 xəstə<br>35,0±2,7 | 6 xəstə<br>43,0±3,7 | 4 xəstə<br>16,3±4,0 | 6 xəstə<br>28,0±1,8 |
| 5 | Pankreonekroz | 3 xəstə<br>155,0±11,0 | - | 3 xəstə<br>49.3±2,2 | - | 3 xəstə<br>20,0±0,6 | - |
| 6 | Xəstələrin sayı | 19 | 18 | 19 | 18 | 19 | 18 |

Beləliklə, klinikaya daxil olmuş xəstələrdə əməliyyatdan əvvəl apardığımız təhlillər göstərmişdir ki, qan zərdabında sidik cövhəri, kreatinin, ümumi bilirubin və C-reativ zülalın qatılığı etioloji amillərdən asılı olmayaraq bütün xəstələrdə normadan yuxarı həddə olduğu aşkarlanmışdır.

Klinikaya daxil olmuş xəstələrin hamısı cərrahi əməliyyata məruz qalmış və əməliyyatdan sonrakı dövrdə xəstələr 2 qrupa bölünmüşdür.

I qrupa aid xəstələrdə qarın boşluğu ənənəvi qaydada sanasiya olunmuş, cədvəl 3-dən göründüyü kimi müalicə dövrünün 3-cü günündə qan zərdabında sidik turşusu, sidik cövhəri, kreatinin, ümumi bilirubin və C-reaktiv zülalın qatılığı öyrənilmiş, müqayisəli təhlil olunmuşdur. Əməliyyatdan sonrakı 3-cü gün ümumilikdə nəzarət qrupuna aid 19 xəstə müayinə olunmuşdur.

Sidik turşusunun qatılığı 2 xəstə İSÇP, 1 xəstə NBK səbəbindən, 3 xəstə isə İÖKP-dan törənmiş peritonitli xəstələrdə norma daxilində olmuşdur. Yerdə qalan 13 xəstədə sidik turşusunun qatılığı normadan aşağı olmuşdur. Ən yüksək göstərici 1 nəfər İSÇP nəticəsində əmələ gəlmiş peritonitli xəstədə (240mkmol/l), ən aşağı göstərici isə NBK və pankreonekroz səbəbindən yaranmış 2 nəfər peritonitli xəstədə hər ikisində də eyni olmaqla 130mkmol/l olmuşdur. Sidik turşusunun qatılığı ümumilikdə daxil olan xəstələrdə 1,8 dəfə aşağı olmuşdursa, ənənəvi üsulla aprılan detoksikasiyadan sonra müalicə dövrünün 3-cü günü normadan 1,7 dəfə aşağı olduğu aşkarlanmışdır.

Sidik cövhərinin qatılığı etioloji faktorlardan asılı olmayaraq müalicə dövrünün 3-cü günü bütün xəstələrdə normadan yüksəkdir. Ən yüksək göstərici NBK səbəbindən törənmiş 1 nəfər peritonitli xəstədə (16,3mmol/l), ən aşağı göstərici isə 1 nəfər MXP nəticəsində əmələ gəlmiş peritonitli xəstədə (7,8mmol/l) müşahidə edilmişdir. Sidik cövhərinin qatılığı orta hesabla stasionara daxil olmuş xəstələrdə normadan 2,2 dəfə yüksəkdirsə, ənənəvi detoksikasiyadan sonrakı müalicənin 3-cü günü 2,1 dəfə yüksək olduğu aşkarlanmışdır.

Kreatinin qatılığı da bütün xəstələrdə normadan yüksək olmuşdur. Belə ki, ən yüksək göstərici İSÇP səbəbindən törənmiş 1 nəfər peritonitli xəstədə (200mkmol/l, normadan 2,2 dəfə yüksəkdir) müəyyən olunmuşdur. Ən aşağı göstərici isə 1 nəfər NBK və 2 nəfər MXP-dan əmələ gəlmiş peritonitli xəstələrdə, hər ikisində də eyni 120mkmol/l olmuşdur ki, bu da normadan 1,3 dəfə yüksəkdir. Ümumilikdə kreatinin qatılığı daxil olan xəstələrdə normadan 1,7 dəfə, ənənəvi detoksikasiyadan sonrakı müalicənin 3-cü günü isə 1,6 dəfə yüksək olmuşdur.

Ümumi bilirubinin qatılığı da etioloji faktorlardan asılı olmayaraq bütün xəstələrdə normadan yüksək olmuşdur. Ən yüksək göstərici İSÇP səbəbindən əmələ gəlmiş 1 nəfər peritonitli xəstədə (54mkmol/l, normadan 4,2 dəfə yüksək), ən aşağı göstərici isə NBK səbəbindən əmələ gəlmiş 1 nəfər peritonitli xəstədə (29mkmol/l, normadan 2,2 dəfə yüksək) müşahidə olunmuşdur. Ümumi bilirubinin qatılığı daxil olan xəstələrdə 3,3 dəfə, detoksikasiyadan sonrakı müalicənin 3-cü günü isə 3,2 dəfə yüksək olduğu müəyyən edilmişdir.

C-reaktiv zülalın qatılığı da etiologiyasından asılı olmayaraq nəzarət qrupuna aid xəstələrin hamısında normadan yüksək olmuşdur. Ən yüksək göstərici İSÇP-dan əmələ gəlmiş 1 nəfər peritonitli xəstədə (31mg/l, normadan 6,2 dəfə yüksəkdir), ən aşağı göstərici isə NBK səbəbindən əmələ gəlmiş 1 nəfər peritonitli xəstədə (8mg/l, normadan 1,6 dəfə yüksəkdir) müşahidə olunmuşdur. C-reaktiv zülalın qatılığı daxil olan xəstələrdə normadan 4,4 dəfə yüksək olmuşdursa, ənənəvi üsulla aparılan detoksikasiyadan sonrakı müalicənin 3-cü günü 3,9 dəfə yüksək olduğu müəyyənləşdirilmişdir.

II qrupa aid xəstələrdə qarın boşluğu yuyulub, təmizləndikdən sonra superoksidismutaza fermenti ilə sanasiya aparılmışdır. Cədvəl 3-dən göründüyü kimi müalicə dövrünün 3-cü günündə qan zərdabında sidik turşusu, sidik cövhəri, kreatinin, ümumi bilirubin və C-reaktiv zülalın qatılığı təyin edilmiş və alınmış nəticələr nəzarət qrupu ilə müqayisəli şəkildə təhlil edilmişdir.

Əməliyyatın 3-cü günü əsas qrupda 20 xəstədə sidik turşusunun qatılığı yoxlanılmışdır. Müalicənin bu dövründə 4 xəstədə (2-MXP, 1-İÖKP, 1-NBK) sidik turşusunun qatılığı norma daxilində olmuşdur. Yerdə qalan 16 xəstədə sidik turşusunun qatılığı normada olmuşdur. Ümumilikdə götüründə isə nəzarət qrupuna aid olan xəstələrdə sidik turşusunun qatılı 1,7 dəfə, əsas qrupda isə 1,9 dəfə normadan aşağı olduğu aşkar edilmişdir. Sidik cövhərinin qatılığı 18 xəstədə təyin olunmuşdur. 1 xəstə (NBK) istisna olmaqla yerdə qalan xəstələrdə bu göstərici normadan yüksək olmuşdur. Sidik cövhərinin qatılığı demək olar ki, əsas qrupda eyni olmuşdur ki, bu da normadan 2,2 dəfə yüksəkdir. Kreatinin qatılığı əsas qrupda 18 xəstədə təyin olunmuşdur. 1 nəfər İSÇP nəticəsində əmələ gəlmiş peritonitli xəstədə 110mkmol/l təşkil etmişdir (norma daxilindədir), yerdə qalan xəstələrdə isə normadan yüksək olmuşdur. Lakin nəzarət qrupunda xəstələrdə müalicənin 3-cü günü kreatinin normadan ≈1,7 dəfə yüksək olmuşdursa, əsas qrupda bu göstərici 1,5 dəfəyə qədər düşmüşdür. Ümumi bilirubinin qatılığı əsas qrupda 18 xəstədə təyin olunmuşdur. Müalicənin bu dövründə də bilirubinin qatılığı normadan yüksək olmuşdur. Lakin müqayisə edəndə bəlli oldu ki, nəzarət qrupunda ümumi bilirubinin qatılığı normadan 3,2 dəfə yüksək olmuşdursa, əsas qrupda bu göstərici bir qədər də azalaraq 3,1 dəfə təşkil etmişdir.

C-reaktiv zülalın qatılığı 18 xəstədə təyin olunmuş və bütün xəstələrdə normadan yüksək olduğu aşkar olmuşdur. Lakin ənənəvi üsulla detoksikasiyadan sonra müalicənin 3-cü günü C-reaktiv zülalın qatılığı normadan 3,9 dəfə yüksən olmuşdursa, bizim təklif etdiyimiz detoksikasiyadan sonra bu göstəricinin orta hesabla normadan 3,8 dəfə yüksək olduğu aşkar olunmuşdur.

Beləliklə, apardığımız tədqiqat nəticəsində məlum olmuşdur ki, qarın boşluğunun superoksidismutaza məhlulu ilə sanasiyasından sonra qanda sidik turşusu, sidik cövhəri, kreatinin, ümumi bilirubin və C-reaktiv zülalın qatılığı ənənəvi üsulla detoksikasiya ilə müqayisədə normaya daha yaxın olmuşdur. Bu da peritonitin terminal fazasında baş vermiş orqan yetməməzliyinin qarşısının alınmasında bir qədər də olsa effektiv sayılmışdır və patogenetik müalicənin bir hissəsini təşkil etmişdir.

## ƏDƏBİYYAT

1. Abdinov E.Ə. Peritonitin müalicəsində qarın boşluğunun sanasiyasının və drenləşdirilməsinin təkmilləşdirilməsi: T.e.n. diss. Avtoreferatı. Bakı, 2006, 22 s.
2. Vəliyev N.Ə., Həmzəyev S.M. Abdominal sepsis. Bakı 2013
3. Qarayev Q.Ş., Həsənov M.C. Peritoneal intoksikasiya sindromu və onun inkişaf fazalarından asılı olaraq periton qişasında baş verən dəyişikliklər // Sağlamlıq, 2005, № 6, s. 7-11.
4. Hacıyev C.N., Quliyev M.R., Allahverdiyev V.A., Hacıyev N.C. //Kəskin bağırsaq keçməməzliyi zamanı lipidlərin peroksidləşməsi proseslərinin vəziyyəti // Cərrahiyyə, 2006, № 1, s. 53-56.
5. Ахунбейли А.А., Алиев В.М., Садыгова Т.Т., Магеррамбейли И.Ш. Современные преставления о роли перекисного окисления липидов и антиоксидантной защиты организма в патогенезе разлитого перитонита // Sağlamlıq, 2009, № 8, с. 10-14
6. Саенко В.Ф., Десятерик В.И., Перцова Т.А., Шаповалюк В.В. //Сепсис и полиорганная недостаточность. Кривой Рог: Минерал, 2005, 466 с.
7. Черданцев Д.В., Первова О.В., Дятлов В.Ю. и др. Современные возможности санации брюшной полости при распространенном гнойном перитоните // Хирургия, 2009, № 8, с. 10-14.

**Summary**

**İnfluence of rehabilitation of the abdominal cavity with a solution of superoxide dismutase on renal function in patients with peritonitis**

**E.Y.Nasibov**

As is known, the most sensitive organ in the morphofunctional against peritonitis are the kidneys. Although many authors and show the high efficiency of rehabilitation of the abdominal cavity with a solution of superoxide dismutase in peritonitis, data on its impact on renal function, we have not found. Observed patients were divided into 2 groups (I-control group (19 patients), II of-primary (20 patients). The study is based on a study of a number of indicators (uric acid, urea, creatinine, total bilirubin, C-reactive protein), characterizing the functional renal dynamics of surgical treatment in patients with peritonitis at the admission and after 3 days after surgery. The results showed that the sanitation in peritonitis abdominal cavity with a solution of superoxide dismutase contributed to the normalization of the studied parameters in the final stage of the study. Although a positive trend was observed among the patients of the control, however, it was not evident in patients of the main group. Thus, the results have proved highly effective sanitation of the abdominal cavity with a solution of superoxide dismutase on impaired renal function in patients with peritonitis.

**Резюме**

**Влияние санации брюшной полости раствором супероксиддисмутазы на функциональное состояние почек у больных перитонитом**

**Э.Я.Насибов**

Как известно, наиболее чувствительным в морфофункциональном отношении органом при перитоните являются почки. Хотя многие авторы и показывают о высокой эффективности санации брюшной полости раствором супероксиддисмутазы при перитоните, данных о ее влиянии на функциональное состояние почек мы не обнаружили. Наблюдаемые больные мы разделили на 2 группы (I-группа контроля (19 больных), II-основная (20 больных). Исследование основано на изучении ряда показателей (мочевая кислота, мочевина, креатинин, общий билирубин, С-реактивный белок), характеризующих функциональное состояние почек в динамике хирургического лечения больных перитонитом при поступлении, а также через 3 дня после операции. Результаты показали, что санация при перитоните брюшной полости раствором супероксиддисмутазы способствовало нормализации изучаемых показателей на конечном этапе исследования. Хотя положительная динамика наблюдалась и среди больных контрольной группы, однако она не была наглядной как у пациентов основной группы. Таким образом, полученные результаты доказали высокую эффективность санации брюшной полости раствором супероксиддисмутазы на нарушенное функциональное состояние почек у больных перитонитом.

Daxil olub: 27 01.2016

# QREYPFRUT MEYVƏLƏRİNİN TULLANTILARINDAN MAYE EKSTRAKTIN ALINMASI VƏ ONUN BƏZİ KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN ÖYRƏNİLMƏSİ

**K.Y. Əliyeva, S.Ə.Tağıyev**
*Azərbaycan Tibb Universiteti, əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası*

***Açar sözlər:*** qreypfrut, tullantı, ekstrakt, antimikrob, antivirus
***Ключевые слова:*** грейпфрут, отходы, антимикробный, антивирусный
***Keywords:*** grapefruit, waste, anti-microbial, anti-virus

Müasir təbabətdə müxtəlif mənşəli yoluxucu xəstəlikləri müalicə etmək üçün geniş farmakoloji təsir spektrinə malik olan antibiotiklərdən və antivirus preparatlarından müvəffəqiyyətlə istifadə olunur. Lakin qeyd etmək lazımdır ki, bu preparatların yüksək terapevtik effektlərinə malik olduqlarına baxmayaraq, patogen bakteriyaların onlara qarşı davamlılığı və buna görə də həmin vasitələrdən uzun müddət və təkrar istifadə edildikdə istənilən nəticələr alınmır. Bununla yanaşı həmin preparatlar orqanizmə əlavə təsirlər göstərirlər. Bu nöqteyinəzərdən infeksion xəstəliklərin müalicəsində onların istifadəsi xeyli məhdudlaşır. Buna görə də bitki mənşəli antimikrob və antivirus preparatlarının hazırlanması və klinik praktikada istifadə olunması çox aktual və perspektivlidir. Bunun əsas səbəblərindən biri odur ki, bitki mənşəli preparatlar təkcə antimikrob və ya virus əleyhinə təsir göstərən individual komponent olmayıb, kompleks bioloji fəal maddələr qrupundan ibarətdir. Buna görə də bitki mənşəli preparatlar antibiotiklərdən və antivirus maddələrdən fərqli olaraq, uzun müddət istifadə olunduqda orqanizmdə digər patoloji proseslərin meydana çıxmasına səbəb olmurlar. Son illərin tədqiqatları nəticəsində qreypfrut meyvəsinin və ondan alınan preparatların ilkin bakteriya və virus mənşəli infeksion xəstəliklərin müalicəsində mühüm əhəmiyyətə malik olduqları müəyyən edilmişdir [1,2,4,5]. Buna görə də qreypfrut meyvəsinin texnoloji cəhətdən öyrənilməsi və tədqiqatlar əsasında onun yeni dərman preparatlarının yaradılması çox aktual və vacib məsələlərdən biridir.

Tədqiqatın **məqsədi** qreypfrut meyvəsinin müxtəlif hissələrindən (qabıq, pərdə, toxumundan) maye ekstraktların alınması və onun bəzi keyfiyyət göstəricilərini öyrənməkdən ibarətdir.

Əvvəlki işlərimizdə qreypfrut meyvəsinin, həmçinin onun tullantı məhsullarının tibbdə istifadəsi haqqında qeyd edilmişdir [1].

**Material və metodlar**. Tədqiqat məqsədilə qreypfrut meyvələri Lənkəran rayonunda 2015-ci ilin sentyabr-oktyabr aylarında tədarük edilmişdir. Ekstraksiya məqsədilə perkolyasiya üsulundan istifadə edilmişdir. Ekstraktlarda flavonidlərin müəyyən edilməsi nazik təbəqədə xromatoqrafiya üsulu ilə (Silufol lövhə, həlledicilər sistemi: n-butanol-sirkə turşusu-su 4:1:5 və n-butanol-sirkə turşusu-su 4:1:1; aşkarlayıcı: qatı amonyak məhlulu, standart nümunə: naringin), alınmış maye ekstraktlarda quru qalığın miqdarı və sıxlıqları isə XII DF-ə əsasən müəyyən edilmişdir.

Qreypfrut meyvəsinin hissələrindən alınan maye ekstraktların miqdarı cəhətdən standartlaşdırılması naringinə görə (naringin qreypfrut meyvəsinin əsas flavonoidi olduöuna görə) həyata keçirilmişdir. Bu məqsədlə Yüksək Effektivli Maye Xromatoqrafiya (YEMX) üsulundan istifadə olunmuşdur [3].

*Reagent və məhlullar.*

-Naringin standartı (naringenin-7-neohesperedin)
-Asetonitril, HPLC Grade (Merck/Almaniya, seriya nömrəsi: I674930 308)
-Sirkə turşusunun sulu məhlulu (ГОСТ 61. к.т)
-90 %-li etil spirti

*Avadanlıq.* Eksperimental tədqiqatlar UB-detektorlu HPLC Agilent-1100 (ABŞ) xromatoqrafında aparılmışdır. Hərəkətsiz faza zorbax SB-C18 borusu, hissəciklərin ölçüsü 5 mkm. Borunun temperaturu 25-30$^0$C, həlledicinin verilmə sürəti 1 ml/dəqiqə, nümunə həcmi 20 mkl-dır. Analizin aparılma müddəti 13 dəqiqədir.

*Məhlulların hazırlanması.*

*Hərəkətli fazanın hazırlanması.* YEMX üçün hərəkətli faza sirkə turrşusunun sulu məhlulunun və asetonitrilin 80:20 nisbətində hazırlanır və ultrasəsli su hamamı ilə deqazasiya olunur.

*Tədqiq edilən məhlulu hazırlamaq* üçün 25,0 ml qreyfrutun ekstraktı 100 ml həcmə malik ölçülü kolbaya yerləşdirilir, üzərinə həlledici əlavə edilərək çalxalanmaqla həll edilir, sonra 15 dəq müddətində ultrasəs hamamında saxlanılır, həcmi həlledici ilə ölçüyə çatdırılır və qarışdırılır.

*Standart məhlulu hazırlamaq üçün* 10 mq naringin 50 ml həcmə malik ölçülü kolbaya yerləşdirilir, üzərinə 20 ml həlledici əlavə edilərək çalxalanmaqla həll edilir, sonra məhlulun həcmi həlledici ilə ölçüyə çatdırılır və qarışdırılır.

**Eksperimental hissə**. Tədqiqat üçün Lənkəranda becərilən qreypfrut meyvələrinin

müxtəlif hissələrindən istifadə olunmuşdur, 1 kq qreypfrut meyvələri əvvəlcə qabıqdan azad edilir, sonra onun ətli hissəsi xırda-xırda doğranılır, toxumlardan təmizləndikdən sonra qarışdırıcı cihaz – Philips HR 1071/D tipli qarışdırıcıya keçirilir və sıyıq halına düşənə qədər qarışdırılır.

Alınmış kütlə ağ parçadan hazırlanmış torbaya keçirilir, şirə tam azad olana qədər preslənir. Torbada qalan pərdə hissə, ilkin ayrılmış qabıq hissə və toxumlar 60-70°C-də quruducu şkafda qurudulur. Bundan sonra həmin hissələrdən maye ekstraktın alınması həyata keçirilir. Qreypfrut qabığı, pərdəsi və toxumları hər biri ayrı-ayrılıqda xırdalanır və diametri 3 mm olan ələkdən ələnirlər. Ölçüləri eyni olan xırdalanmış qabıq, cecə və toxumların hər birindən 25 qr götürülür, uyğun kimyəvi stəkanlara keçirilir və hər birinin üzərinə ayrı-ayrılıqda 30 ml 70%-li etil spirti məhlulu əlavə edilir, qarışdırılır və ağızları bağlanılıb, otaq şəraitində 4-6 saat saxlanılır. Bu müddət keçdikdən sonra islanmış xammallar ilkin hazırlanmış perkolyatorlara keçirilir. Perkolyatordakı xammal sıxılır və axan maye qəbulediciyə tökülür. Sıxılmış xammalın üzərinə dairə formasında kəsilmiş filtr kağızı yerləşdirilir. Ağırlıq yaratmaq məqsədilə kağız filtrin üzərinə şüşə və ya metal kürəciklər qoyulur. Bundan sonra perkolyatorun kranını açıq saxlamaq şərtilə təzə ekstragent o vaxta qədər əlavə olunmalıdır ki, onun qalınlığı xammalın səthindən 2-3 sm hündürlüyündə olsun. Bundan dərhal sonra perkolyatorun kranı bağlanır və qəbulediciyə keçmiş ilkin maye təkrarən perkolyatora daxil edilir. 48 saat keçdikdən sonra perkolyatın alınması başlanır. Bu belə həyata keçirilir. Əvvəlcə perkolyatorun işlək həcmi aşağıdakı düsturla hesablanılır:

$V = \pi r^2 H$

Burada, V- perkolyatorun işlək həcmi, sm; r- perkolyatorun radiusu, 2,5 sm; H- perkolyatorun işlək həcminin hündürlüyü, 8 sm.

V = 3,14 x 6,25 sm x 8 sm = 157 sm

Perkolyatorun işlək həcmi müəyyən edildikdən sonra perkolyatordan çıxarışın axma sürəti təyin edilir.

$$P = \frac{V}{24x60\ dəq} = \frac{157}{1440} = 0{,}109\ ml/dəq$$

Əgər 1 ml-də olan damcıların sayının orta hesabla 60 qəbul etsək, bu zaman

P = 0,109 x 60 = 6,54 ≈ 7 ml olacaqdır.

Perkolyatorun rezervuarına təzə ekstragent əlavə etdikdən sonra çıxarışın alınmasına başlanılır. Bu zaman elə nizamlanma aparılır ki, perkolyatordan qəbulediciyə bir dəqiqədə nə qədər damcı (və ya ml) çıxarış düşürsə, o qədər də rezervuardan perkolyatora təzə ekstragent daxil olsun.

Perkolyatın alınması iki mərhələdə həyata keçirilir. 1-ci mərhələdə ilkin olaraq 21,25 ml (I) çıxarış alınır. 2-ci çıxarış o vaxta qədər aparılır ki, xammalın tərkibindən bütün maddələr maksimal miqdarda izolə olunsun (xüsusilə flavonoidlər). 2-ci çıxarış (150 ml) çini kasaya yerləşdirilir və 3,75 ml (II) qatı kütlə alınana qədər qatılaşdırılır. 2-ci çıxarışdan alınan qalıq ilkin çıxarışla birləşdirilir (21,5+3,75=25 ml) və 1:1 nisbətində maye ekstrakt alınır.

Alınan ekstraktları 7 gün sərin yerdə (8-10$^0$C) saxladıqdan sonra onları süzgəc kağızdan həcmi 30 ml olan narıncı rəngli təmiz flakonlara süzüb, ağızlarını möhkəm bağlayıb sərin, qaranlıq yerdə saxlayırıq.

Qreypfrut meyvəsinin qabığından alınan ekstrakt sarı, pərdə hissəsindən və toxumlarından alınan ekstraktlar isə uyğun olaraq açıq sarımtıl-çəhrayı və açıq-sarı olurlar.

Məlumdur ki, qreypfrut meyvələrinin bütün hissələrində flavonoidlərin olması haqqında kifayət qədər məlumatlar vardır. Buna görə də alınan ekstraktlarda flavonoidlərin olduğunu müəyyən etmək üçün nazik təbəqədə xromatoqrafiya üsulundan (Silufol lövhə) və həlledicilər sistemi kimi n-butanol-sirkə turşusu-su (4:1:5) və n-butanol-sirkə turşusu-su (4:1:1) istifadə edilmişdir (standart nümunə kimi – narıngindən istifadə olunmuşdur). Alınan nəticələr cədvəldə verilmişdir.

Müqayisəli xromatoqrafik tədqiqatlar nəticəsində qabıqdan, pərdədən və toxumlardan alınan ekstraktlarda 3 ləkə olduğu aşkar edilmişdir. Xromatoqrafik tədqiqatın nəticələrindən görünür ki, maye ekstraktların hər birində flavonoid təbiətli 3 maddə mövcuddur ki, bunlardan flavonoid "C"-nin $R_f$-i standart narınginin $R_f$ ilə eynidir. Digər flavonoidlərin (A və B) eyniliyi təyin edilməmişdir.

Quru qalığın miqdarını təyin etmək üçün həmin ekstraktların hər birindən 5 ml götürüb, əvvəlcədən çəkisi məlum olan çini kasacığa yerləşdirilir və qaynar su hamamı üzərində quru qalıq alınana qədər qatılaşdırılır. 100-105°C-də 2 saat qurudulduqdan sonra çini kasacığın içərisindəki qalıqla birlikdə çəkilir. Quru qalığın miqdarı aşağıdakı düsturla müəyyən edilir.

$$x = \frac{(m - m_1)x100}{P}$$

**Cədvəl**
**Maye ekstraktların müqayisəli xromatoqrafik tədqiqi**

| Maye ekstraktlar | Həlledicilər sistemi | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | n-butanol-sirkə turşusu-su (4:1:1) | | | | n-butanol-sirkə turşusu –su (4:1:5) | | | |
| | Flavonoidlərin $R_f$–nin qiyməti | | | | | | | |
| | $R_{f1}$ | $R_{f2}$ | $R_{f3}$ | $R_{fst}$ | $R_{f1}$ | $R_{f2}$ | $R_{f3}$ | $R_{fst}$ |
| I qreypfrut meyvəsinin qabığından alınan maye ekstrakt | 0,25 | 0,40 | 0,60 | 0,60 | 0,43 | 0,62 | 0,79 | 0,79 |
| II pərdədən alınan maye ekstrakt | 0,25 | 0,40 | 0,60 | 0,60 | 0,43 | 0,62 | 0,79 | 0,79 |
| III toxumlarından alınan maye ekstrakt | 0,25 | 0,40 | 0,60 | 0,60 | 0,43 | 0,62 | 0,79 | 0,79 |

Aşkarlayıcı: qatı amonyak məhlulu

Burada, m- çini kasacığın quru qalıqla birlikdə kütləsi, qr; m1-çini kasacığın kütləsi, qr; P-ekstraktın miqdarı, ml-lə; X- quru qalığın miqdarı, %-lə.

$$X_1 = \frac{(30{,}190-29{,}315)x100}{5} = 17{,}5 \text{ (qabıq)}$$

$$X_2 = \frac{(30{,}080-29{,}315)x100}{5} = 15{,}3 \text{ (pərdə)}$$

$$X_3 = \frac{(30{,}027-29{,}315)x100}{5} = 14{,}24 \text{ (toxum)}$$

Quru qalığın miqdarı təyin edilərkən fərqli nəticələrin alındığı aşkar olunmuşdur. Meyvə qabığından alınan maye ekstraktda 17,5%, pərdədən və toxumlardan alınan ekstraktlarda isə bu miqdar uyğun olaraq 15,3 və 14,2% təşkil etmişdir.

Ekstraktların sıxlığını təyin edərkən aşağıdakı nəticələr alınmışdır:

$$\mathcal{P} = \frac{B-C}{A-C}$$

Burada, C – qabın çəkisi; A – su ilə qabın çəkisi; B – ekstraktın çəkisi.

$$\mathcal{P}_1 = \frac{3{,}79-3}{3{,}9-3} = 0{,}87;$$

$$\mathcal{P}_2 = \frac{3{,}78-3}{3{,}9-3} = 0{,}86;$$

$$\mathcal{P}_3 = \frac{3{,}75-3}{3{,}9-3} = 0{,}83;$$

**Nəticə.** Qreypfrut meyvələrinin qabığından, pərdəsindən, toxumlarından perkolyasiya üsulu ilə maye ekstraktlar alınmışdır. Nazik təbəqədə xromatoqrafiya üsulundan istifadə etməklə aparılan tədqiqatlar nəticəsində qabıq, pərdə və toxumlardan alınan ekstraktlarda müxtəlif sys-temlərdə 3 maddənin, onlardan birinin narıngin olduğu müəyyən edilmişdir. Alınmış maye ekstraktlarda quru qalığın miqdarı və sıxlıqları təyin edilmişdir. Həmçinin YEMX vasitəsilə ekstraktların tərkibində narınginin miqdarının uyğun olaraq 0,13%, 3,76%, 4,65% olduğu müəyyən edilmişdir.

Beləliklə, meyvə toxumlarından alınan maye ekstraktın sıxlığı 0,87, qabığından və pərdəsindən alınan ekstraktın sıxlığı uyğun olaraq 0,86 və 0,83 olmuşdur.

Tədqiq edilən məhlullar və standart nümu-nənin hərəsindən 5 sayda xromatoqramlar alınmışdır (şək. 1). Xromatoqramların zirvə sahəsinin orta göstəricilərinə əsasən maddənin miqdarı müəyyən edilmişdir.

Preparatda naringinin miqdarı (X) aşağıdakı formula əsasən hesablanır.

$$X = \frac{S\ Ms\ V_{in} \cdot 100\%}{S_o \cdot Mn \cdot V_{in}}$$

Burada: S - nümunənin zirvə sahəsinin orta göstəricisi, nisbi vahidlə; $S_o$ - standartın zirvə sahəsinin orta göstəricisi, nisbi vahidlə; Ms – standartın kütləsi, mq-la; Mn – nümunənin kütləsi, mq-la, V – həcm, ml-lə.

$$X_1 = \frac{2424{,}96 \cdot 0{,}0109 \cdot 100 \cdot 100\%}{3991{,}39 \cdot 50 \cdot 25} = 0{,}13\%$$

(toxum)

$$X_2 = \frac{68948{,}7 \cdot 0{,}0109 \cdot 200 \cdot 100\%}{3991{,}39 \cdot 50 \cdot 25} = 3{,}76\%$$

(qabıq)

$$X_3 = \frac{85189{,}6 \cdot 0{,}0109 \cdot 100 \cdot 100\%}{3991{,}39 \cdot 50 \cdot 40} = 4{,}65\%$$

(pərdə)




(Standart naringin)




**(A)**




**(B)**




**(C)**

**Şək. 1. Qreypfrut meyvələrinin toxumlarından (A), qabıqlarından (B), pərdələrindən (C) alınan ekstraktlar və standart naringinin YEMX spektrləri. Həlledici sistem: asetonitril və sirkə turşusu (80:20)**

## ƏDƏBİYYAT


1. Əliyeva K.Y., Tağıyev S.Ə., Əliyeva S.Ş. Pektin əsasında furasilin süngərinin alınma texnologiyasının işlənib hazırlanması // Azərbaycan Əczaçılıq və Farmakoterapiya Jurnalı, 2014, №2, s.35-38.
2. Əliyeva K.Y. Bəzi sitrus bitkilərinin meyvələrinin və onların tullantı məhsullarının tibbdə istifadəsi // Sağlamlıq, 2015, №4, s.156-162.
3. Национальный Стандарт Российской Федерации, Продукция Соковая, ГОСТ Р 54742-2011. Определение нарингина и неогесперидина в апельсиновом соке методом высокоэффективной жидкостной хроматогра- фии, ОКС 67. 080. 10, ОКСТУ 9109, 05.06.2015, 12 с.
4. Экстракт семян грейпфрута. Автор: др. Аллан Сакс, перевод: Александр И. Копий, 2010, 64 с., Электронная версия книги др. А.Сакса © Happinesslife.com.ua.
5. Нижарадзе Этери. Проблема фальсификации цитрусовых соков и методы её обнаружения. Батуми, 2011, 198 с.



**Резюме**

**Получение жидкого экстракта из отходов плодов грейпфрута и определение некоторых показателей его качества**

**К.Я. Алиева, С.А.Тагиев**

Методом перколяции были получены жидкие экстракты из кожуры, перегородок и семян плодов грейпфрута. С помощью тонкослойной хроматографии, проведенных на полученных экстрактах, в различных системах (БУВ 4:1:1, БУВ 4:1:5), были обнаружены три вещества, одно из которых соответствует стандарту нарингина. В полученном жидком экстракте были опреде-

лены количество сухого остатка и плотность. Также нами методом ВЭЖХ в полученных экстрактах из кожуры, перегородок и семян был обнаружен нарингин в количестве 0,13%, 3,76%, 4,65% соответственно.

**Summary**

**Preparation of liquid extract of grapefruit fruit waste and the definition of some indicators of its quality**

**K.Y. Aliyeva, S.A.Tagiyev**

With the method of percolation were obtained liquid extracts from the peel, septa and seeds of grapefruit. With the help of paper chromatography of present extracts in different systems three substances were determined, one of them was comply to standard of naringin. Obtained liquid extracts were analyzed by parameters of density and residue on ignition. Assay of naringin in proportions of 0.13%, 3.76%, 4.65% in extracts from the peel, septa and seeds of grapefruit were determined with the help of HPLC.

Daxil olub: 13 01.2016

# TALASSEMİYA OLAN QADINLARDA REPRODUKTİV FUNKSİYASININ GÖSTƏRİCİLƏRİNƏ DAİR

**S.H. İsrafilbəyli, M.S. Musayeva**

*Ə. Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə institutu, mamalıq və ginekologiya kafedrası, Bakı*

***Açar sözlər:*** talassemiya, reproduktiv funksiya, hamiləlik, düşük

***Ключевые слова:*** талассемия, репродуктивная функция, беременность, выкидыш

***Keywords:*** thalassemia, reproductive function, pregnancy, miscarriage

Qadının reproduktiv funksiyasının pozulması bir çox səbəblər nəticəsində əmələ gəlir. Bu səbəblərdən biri də somatik xəstəliklərin olmasıdır [3]. Talassemiyadan əziyyət çəkən qadlnların reproduktiv funksiyasında əmələ gəlmiş pozulmalar orqanizmin dəmirlə yükləməsi və endokrin sistemində olan dəyişikliklər nəticəsində ola bilsin [1,4,5,6]. Lakin talassemiya və onunla bağlı ağırlaşmalarin qadın reproduktiv vəziyyətinə əhəmiyyətli dərəcədə təsiri məlum deyil.

Tədqiqatımızın **məqsədi** talassemiya olan qadınların reproduktiv funkiyasının vəziyyətinin öyrənilməsidir.

**Tədqiqatın material və metodları.** Ə.Əliyev ad. AzDHTİ-nun mamalıq və ginekologiya kafedrasında və akad. M. Mir-Qasımov ad. RKX hamiləliyin patologiya şöbəsində 2005-2009-ci il ərzində 76 qadının (əsas qrup) reproduktiv funksiyası öyrənilmişdir. Müayinə edilmiş pasiyentlərin arasında 30-da (39,47%) aralıq heteroziqot beta-talassemiya, 25-də (32,89%)- böyük homoziqot beta-talassemiya, 11-də (14,47%)- heteroziqot beta-talassemiya minor, 5 (6,58%) qadında isə müvafiq alfa- və drepanotalassemiya (Hbs/q) rast gəlmişdir. Pasiyentlər talassemiyaya görə hemontansfuziya müalicə qəbul etmiş, 12 (15,78%) qadın isə uşaqlıq və yeniyetmə dövrdə splenektomiyaya məruz qalmışdır. Belə ki, splenektomiya böyük beta-talassemiya ilə olan 4 (5,26%) və aralıq heteroziqot beta-talassemiya ilə 8 (10,53%) qadınlarda olmuşdur. Böyük və aralıq beta-talassemiya ilə qadınlarda müvafiq olaraq 6,58 və 3,95% hallarda hepatomeqaliya qeyd edilmişdir. Aralıq beta-talassemiya ilə 5 (6,58%), böyük beta-talassemiya ilə 3 (3,95%), həmçinin drepano- və alfa-talassemiya ilə müvafiq olaraq 2 (2,63%) xəstədə splenmeqaliya diaqnozu ilə olmuşdur.

Nəzarət qrupu 16 yaşdan 32 yaşa qədər talassemiya olmayan 42 qadın təşkil etmişdir.

Alınmış nəticələr nisbi və orta kəmiyyətdən istifadə edərək riyazi təhlil tətbiq edilmişdir. Müqayisə olunmuş göstəricilərin doğruluğu Styudent əmsalının (t) və nisbi ehtibarlı fərqinin köməyi ilə təyin edilmişdir [2].

*Nəticələr və müzakirə.* Müayinə olunmuş qadınların yaşı 16-ı yaşından 34- yaşına qədər idi. Orta yaş 24,8±4,7 olnuşdur, nəzarət qrupda isə orta yaş 24,3±3,5 təşkil etmişdir. 16-19 yaş diapazonunda əsas qrupda 14 (18,42%), nəzarət qrupda isə 9 (21,43%), 20-24 yaş diapazonunda əsas qrupda 32 (42,11%), nəzarət qrupda- 15

(35,71%), 25- 29 yaş diapazonunda müvafiq 18 (23,68%), 11 (26,19%) və 30-34 yaş diapazonunda əsas qrupda 12 (15,79%), nəzarət qrupda isə 7 (16,67%) qadın olmuşdur. Görünür ki yaşda böyük fərq olmamışdır.

Menarxenin başlanmasının orta yaşı əsas qrupda 12,2±1,1, nəzarət qrupda isə 13,1±1,7 yaş olmuşdur. Müayinə zamanı əsas qrupda 39 (51,31%) qadın nigahda, 22 (28,95%) isə subay və 15 (19,74%) boşanmış idi. Nəzarət qrupda 20 (47,6%) qadın nigahda, 13 (30,95%)- subay və 9 (21,4%) qadın boşanmış idi.

İlkhamilələr və ilkdoğanlar əsas qrupda 27,63% (21), nəzarət qrupda- 73,81% (31) təkrarhamilə və ilkdoğanlar 36,84% (28), nəzarət qrupda isə 26,19% (11) qadın təşkil etmişdir.

Talassemiya ilə olan qadınların anamnezindən məlum olmuşdur ki, uşaq salma tibbi göstərişi ilə 16 (21,05%), öz başına düşük- 12(15,79%), inkişaf etməmiş hamiləlik 5 (6,58%), hamiləliyin öz-özünə kəsilməsi 4 (5,55%) təkrarhamilə olan qadınlarda baş vermişdir. İlkhamilə qadınlarda düşüklər 11,11% (8) hallda qeyd edilmişdir. Nəzarət qrupunda bu kimi ağırlaşmalar aşkar olunmamışdır. Yalnız 3 (7,14%) qadında arzu olunmamış hamiləliyə görə qadının öz xahişi ilə hamiləliyin kəsilməsi baş vermişdir.

Nəzarət qrupunun qadınların hamısında vaxtında doğuş baş vermişdir. Əsas qrupun pasiyentlərinin anamnezində vaxtında doğuş ilk- və təkrardoğanların əksəriyyətində (43 ya 56,58%), vaxtından əvvəl 4-də (5,26%), vaxtı ötmüş doğuş 2-də (2,63%) baş vermişdir.

Əsas qrupda təbii doğuş yolları ilə olunmuş doğuş 52 (68,42%), qeysər kəsiyi ilə 7 (9,21%) ilk- və təkrardoğanların anamnezində qeyd edilmişdir. İki (2,63%) talassemiya ilə olan qadında, doğuşun II dövrdə hestozun ağırlıq dərəcəsinin artması səbəbinə görə mamalıq maşası istifadə edilmişdir.

Nəzarət qrupda doğuş əsas təbii yolla olmuşdur, yalnız 4 (9,52%) qadında onların arzusu ilə doğuş qeysər kəsiyi ilə aparılmışdır. Bu qrupda mamalıq-ginekoloji anamnezi ağırlaşmamışdır. Əsas qrupda isə ağırlaşmış mamalıq-ginekoloji anamnez 65 (85,53%) qadınlarda aşkar olunmuşdur. Keçirilmiş ginekoloji xəstəliklərin arasında daha çox xroniki salpinqit- 27 (35,53%), xroniki salpingooforit- 23 (30,26%) pasiyentlərdə rast gəlmişdir. 18 (23,68%) müayinə olunmuş qadında iltihab prosesi ikitərəfli, 32 (42,10%) pasiyentdə isə birtərəfli olmuşdur. Habelə 19,74% (15) hallarda vaqinit və uşaqlıq boynu ektopiyası da rast gəlmişdir.

Daxil olan zaman pasiyentlər oynaqda ağrılara (44,74%), zəifliyə (48,68%), artmış yorğunluğa (38,16%), başgicəllənməsinə (28,95%), fiziki gərginlik zamanı təngnəfəsliyə (21,05%), iştahanın olmamasına (42,10%), ürəkdöyün- məsinə (14,47%) şikayət etmişdir. Lakin 76 qadının hamısının xəstəxanaya müraciət etdiyin əsas səbəbi aybaşı siklinin pozulması idi. Menstrual funksiyasının aşağıdaki pozulmaları rast gəlmişdir: menarxenin erkən və gecikmiş başlanması- müvafiq 11(14,47%) və 24 (31,58%) qadında, 5-13 günlə qeyri-müntəzəm aybaşı sikli 35 (46.05%) pasiyentlərda təşkil etmişdir. Böyük talassemiya ilə olan qadınların arasında 8-də (10,53%) ilkin amenoreya, 7-də (9,21%)- ikincili amenoreya, 4 (5,26%) qadında isə oliqomenoreya rast gəlmişdir. Nəzarət qrupda menstrual sikl fizioloji həddə (6 aya qədər) müəyyən edilmiş və müntəzəm olmuşdur. Belə ki, aybaşının sürəkliyi 3-5 gün, siklin davamlığı 26-30 gün idi.

Müayinə altında olmuş 76 qadından yarısı, yəni 38 (50,0%) disfunksional uşaqlıq qanaxmalardan (DUQ) şikayətlənmişdir. Aşkar olmuşdur ki, bu xəstələrdə menstrual qanaxmanın davamlığı nəzarət qrupdakindən dürüstlü çox olmuşdur və 7,3±0,51 gün, $p \leq 0,05$ (6 gündən 10 günə kimi) təşkil etmişdir. Bununla belə, 5,25% (4 pasiyent) hallarda aybaşı 2-4 gün, 11,84% (9) hallarda 5-7 gün, 17,10% (13) hallarda 8-10 gün, 11,84% (9) hallarda isə 10-13 gün davam etmişdir. 18 (23,68%) qadın sarı cismin persistensiya ilə şərtləşdirilmiş DUQ qeyd etmişdir (cədv.). Aybaşıarası intervalı 1 aydan 1,5 aya qədər təşkil etmişdir. Belə ki,10,53% (8) hallarda interval 1,5 ay, 13,16% (10) hallarda- 1 ay davam etmişdir. 20 (26,31%) qadında aybaşıarası DUQ təyin edilirdi.

Cədvəldən göründüyü kimi sarı cismin persistensiya ilə şərtləndirilmiş DUQ daha çox 25-29 yaşda olan qadınlarda, ovulyator DUQ isə 20-24 yaşda olan qadınlarda qeyd edilmişdir. 30-34 yaş diapazonda olan pasiyentlərdə DUQ-nın iki forması eyni tezlikdə rast gəlmişdir. Müxtəlif forma talassemiyalı qadınlarda DUQ-nın olmasında əhəmiyyətli fərq aşkar olunmamışdır. Ovulyator və sarı cisimlə şərtləşmiş DUQ maksimal halları aralıq və böyük beta-talassemiya ilə olan pasiyentlərdə rast gəlmişdir. Yalnız kiçik yaxud yüngül talassemiya zamanı ovulyator DUQ-ın minimal faiz halları qeyd edilmişdir.

19 (25,0%) pasiyentlərdə qanaxmalar birinci dəfə, 8 (10,53%) qadınlarda isə onlar təkrar əmələ gəlmişdir. Siklik qanaxmalar 10 (13,16%), asiklik- 6(7,89%) pasiyentlərdə müşahidə edilmişdir. 38 pasiyentlərin hamısında ağrılı aybaşıdan əlsvə qarın nahiyəsinin aşağı hissələrində sancıxarakterli daimi ağrılar qeyd

edilmişdir.

Müayinə zamanı aşkar olunmuşdur ki, uşaq yaşlarında və yeniyetmə dövrdə splenektomiyaya məruz qalmış qadınlarda hamısında menstrual ritmin pozulmaları aşkar edilmişdir. Belə ki, amenoreya ilə olan 15 qadınlardan 8-də və oligomenoreya olan qadınların hamısında splenektomiya əməliyyatı aparılmışdır.

Məlumdur ki, DUQ yumurtalıqların hormonal funksiyasının pozulmalarının nəticəsidir və qadın həyatının müxtəlif yaş dövrlərdə rast gəlinir: pubertat yaxud yuvenil dövr- 12-18 yaş, reproduktiv dövr- 18-45 yaş və s. [2,6]. DUQ-nın belə geniş yaş hüdudları onları qadın reproduktiv sisteminin daha çox rast gələn hormonal patologiya kimi hesab etməyə imkan verir. DUQ-ın inkişaf mexanizminin əsasında bütün yaş dövrlərində yumurtalıqların hormonal (və reproduktiv) funksiyasını tənzimləyən honadotrop hormonların əmələ gəlməsi və ifrazatının pozulması təşkil edir [2,4,5].

Anamnestik məlumatların təhlili qanaxmanın səbəblərini aydınlaşdırmağa imkan yaratmışdır. DUQ bir çox xəstəliklər fonunda əmələ gəlir: infeksion xəstəliklərdən, uşaqlıq artımlarının iltihabi proseslərdən sonraki vəziyyət, gecikmiş menarxe.

Beləliklə, talassemiya ilə qadın və qızlarda menstrual siklin intervalında dəyişikliklər, ağrılı aybaşı və həmçinin reproduktiv sisteminin dəyişklik baş verir. Bunu menstruasiyaların qeyri-müntəzəmliyi, DUQ-ın olması sübüt edir. Biz hesab edirik ki, bu xəstəlik ilə pasiyentlərə tibbi-genetik məsləhətləşmə mütləqdir. Bununla belə menstrual funksiyanın pozulmalarının xarakterini nəzərə almaq lazımdır.

**Cədvəl**

**DUQ ilə olan pasiyentlərin xarakteristikası**

| Parametrlər | DUQ ilə qadınların sayı (n=38) | | | |
|---|---|---|---|---|
| | Sarı cismin persistensiyası (n=18) | | Ovulyator (n=20) | |
| | Mütləq vah. | % | Mütləq vah | % |
| Yaş | | | | |
| 20-24 | 5 | 6,57 | 9 | 11,84 |
| 25-29 | 8 | 10,53 | 6 | 7,89 |
| 30-34 | 5 | 6,57 | 5 | 6,57 |
| Talassemiyanın formaları | | | | |
| Böyük β-talassemiya | 8 | 10,53 | 7 | 9,21 |
| Kiçik β- talassemiya | - | - | 1 | 1,31 |
| Aralıq β- talassemiya | 8 | 10,53 | 8 | 10,53 |
| Drepanotalassemiya | 1 | 1,31 | 1 | 1,31 |
| α- talassemiya | 1 | 1,31 | 3 | 3,95 |

**ƏDƏBİYYAT**

1. Həsənova A. Talassemiya Azərbaycanda - əsas mərhələlər / Mater. of International conference “Actual problems of thalassemia’. Baku, 2007, p.162.

2. Гланц Ст. Медико-биологическая статистика / Пер. с англ. Под ред. Н.Е. Бузикашвили и Д.В.Самойлова. М.: Практика, 1999, 200 с.

3. Сидельникова В.М. Эндокринология и беременность в норме и патологии. М.: МЕД-пресс-информ., 2007, 351 с.

4. Psihogois V., Rodda Ch., Reid E., Clark M. et al. Reproductive health in individuals with homozygous β-thalassemia: knowledge, attitudes, and behavior // Fertil Steril., 2002, v.77, p.119-127

5. Skordis N., Petrikkos L., Toumba M., Hadjigavriel M. Et al. Update on fertility in thalassemia major // Pediatric Endocrinol. Rev., 2004, v.2, Suppl 2, p.296-302

6. Tuck S.M. Fertility and pregnancy in thalassemia major // Ann NY Acad. Sci., 2005, v.1054, p.300-307

**Резюме**

**О показателях репродуктивной функции у женщин с талассемией**

**С.Г. Исрафилбейли, М.С. Мусаева**

С целью исследования состояния репродуктивной функции у женщин с талассемией в период 2005-2009гг. проведено исследование репродуктивной функции 76 пациенток. В 39,47% случаев встречалась промежуточная гетерозиготная бета-талассемия, в 32,89% случаев - большая гомозиготная бета-талассемия, в 14,47% случаев- гетерозиготная бета-талассемия минор, в 6,58% случаев соответственно альфа-талассемия и дрепаноталассемия (Hbs/q). Главной причиной обращения всех 76 обследованных явилось нарушение менструального цикла. 38 пациен-

ток жаловались на ДМК. Выявлено, что длительность менструального кровотечения достоверно превышала таковую в контрольной группе и составила 7,3±0,51 дня (от 6 до 10 дней), причем 2-4 дня менструация продолжалась у 5,26%, 5-7 дней-у 11,84% , 8-10 дней- у 17,10%, 10-13 дней-у 11,84% женщин. В 23,68% случаев отмечались ДМК, обусловленные персистенцией желтого тела. Таким образом, у женщин и девушек с талассемией наблюдались изменения менструального цикла, интервала между ними и болезненные менструации, также имела место неустойчивость репродуктивной системы, о чем свидетельствовали нерегулярность менструаций, ДМК.

**Summary**

**About the performance of reproductive function in women with thalassemia**

**S.G. Israfilbeyli, M.S. Musayev**

In order to study the state of reproductive function in women with thalassemia in ne-period 2005-2009. studied 76 patients of reproductive function. In 39.47% of cases met the intermediate heterozygous beta-thalassemia, in 32.89% of cases- a large homozygous beta-thalassemia in 14.47% sluchaev- heterozygous beta-thalassemia minor, in 6.58% of cases, respectively, alpha-thalassemia and drepanotalassemiya (Hbs /q). The main reason for the conversion of all 76 surveyed was a violation of the menstrual cycle. 38 patients complained of MQM. It was found that the length of the menstrual Cro-votecheniya significantly higher than that in the control group and was 7,3±0,51 days (from 6 to 10 days), and 2-4 days menstruation continued at 5.26%, 5-7 days- at 11.84%, 8-10 days- at 17.10%, 10-13 days, at 11.84% of women. In 23.68% of cases were observed DMC-OCU conditionality persistence of the corpus luteum. Thus, women and girls with thalassemia, she observed changes in the menstrual cycle, the interval between them and painful menstruation, also took place reproductive system instability, as witness isting menstrual irregularities, DMK.

Daxil olub: 16 12.2015

---

# YOL-NƏQLİYYAT HADİSƏLƏRİ ZAMANI ÖLÜMLƏ NƏTİCƏLƏNƏN KƏLLƏ-BEYİN TRAVMALARININ MƏHKƏMƏ-TİBBİ XÜSUSİYYƏTLƏRİ

**M.O.Bunyatov, E.İ.Ələkbərov, Z.M.Məmmədov, S.Ç.Cəfərov**

*Azərbaycan Tibb Universitetinin Məhkəmə təbabəti kafedrası*

***Açar sözlər:*** kəllə-beyin zədələnmələri, müştərək travma, ölümün səbəbi.

***Ключевые слова:*** черепно-мозговые травмы, сочетанные травмы, причины смерти

***Keywords:*** head injuries, combined injuries, cause of death

Son illərdə Respublikamıza çox saylı müxtəlif markalı avtomobillərin gətirilməsi, ölkəmizdə onların istehsalı və nəqliyyat vasitələrinin geniş yayılması öz növbəsində yol-nəqliyyat hadisələrinin çoxalmasına, bu isə avtomobil travmalarının sayının əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə hər il dünyada yol-nəqliyyat hadisələri zamanı travmadan ölənlərin sayı təxminən 1,25 milyon, yaralananların sayı isə 20-50 milyon nəfər arasında müəyyən edilir ki, onların da çoxunda travmalar sonda əlilliyə səbəb olur.

Bir sıra ölkələrdə avtomobil travmatizmi hətta milli fəlakət səviyyəsinə gəlib çatmışdır. Bütün dünyada yol-nəqliyyat qəzaları nəticəsində 59% ölüm hadisələri 15-44 yaş arasında olan şəxslərin payına düşür. Ölkəmizdə də nəqliyyat travmalarından ölənlərin sayının son illərdə artması məhkəmə-tibb ekspertlərinin praktik fəaliyyətində özünü biruzə verir.

Dünyada ürək-damar sistemi və onkoloji xəstəliklərdən sonra ölümlə nəticələnməsinə görə travmalar üçüncü yeri tutur [2,3,4,7,11,15]. Nəqliyyat travmaları dedikdə məhkəmə-tibbi baxımdan nəqliyyat vasitəsinin hərəkəti zamanı onun xarici və daxili hissələrinin bədənə yetirdiyi mexaniki xəsarətlər və yaxud nəqliyyat vasitəsindən yıxılma nəticəsində əmələ gələn xəsarətlər başa düşülür. Nəqliyyat və xüsusən də avtomobil travmaları zorakı ölümün bütün səbəbləri arasında ilk yerlərdən birini tutur. Buna görə də həmin travmaların məhkəmə-tibbi müayinəsi və ölümün əsas səbəbinin təyini məhkəmə-tibb ekspertlərinin fəaliyyətində həll olunması zəruri olan əsas məsələ kimi öndə durur. Avtomobil

travmalarının əsas xüsusiyyətlərindən biri həmin zədələnmələrin əmələ gəlmə mexanizminin mürəkkəbliyi və onların yaranma üsullarının çox olmasıdır. Həmin xəsarətlərin xarakteri qüvvənin təsir mexanizmindən, onun gücündən, təsir etdiyi nahiyədən, eləcə də bədən səthinin sahəsindən asılı olur. Göstərilən amillər hər bir hadisəni törətmiş avtomobilin konstruktiv xüsusiyyətlərindən, markasından, sürətindən və zərərçəkənin hadisə baş verdiyi anda pozasından asılıdır [1,2,8,9,10,13].

Avtomobil travmaları zamanı ölümün əsas səbəbi çox vaxt kəllə-beyin travmaları və ya müştərək travmalar olur. Travmatizm statistikasında kəllə-beyin travmaları 25-30% təşkil edir, ölümlə nəticələnən zədələnmələrin yarıdan çoxu da həmin səbəbdən baş verir, müştərək travmalar içərisində isə onun payına 80% düşür [5,8,9,12,14]. Həmçinin, Rusiya Federal neyrocərrahiyyə mərkəzinin məlumatına əsasən 60% hallarda kəllə-beyin zədələnmələrinin səbəbi avtomobil travmaları olur ki, bu da onun tədqiq edilməsinin nə qədər əhəmiyyətli olmasını bir daha sübut edir [3,4,5,6]. Kəllə-beyin travmalarının öyrənilməsi həmişə aktuallığını saxlamış, travmatoloqların, neyrotravmatoloqların, eləcə də məhkəmə-tibb ekspertlərinin diqqət mərkəzində olmuşdur. Avtomobil travmaları zamanı digər xəsarətlərin də əmələ gəlməsi və bəzən həmin xəsarətlərin ölümə və ya əlilliyə səbəb olması, şübhəsiz olaraq problemin sosial tibbi əhəmiyyət kəsb etdiyini göstərir.

**Tədqiqatın məqsədi** yol-nəqliyyat hadisələri zamanı kəllə-beyin travmalarının rast gəlmə tezliyinin öyrənilməsi və ölümün əsas səbəbinin təyin edilməsi olmuşdur.

**Qarşıya qoyulan məsələlər:**

1.Avtotravma hadisələrinin rast gəlmə tezliyinin öyrənilməsi;

2.Avtotravmalar zamanı ölümün səbəbinin təyin edilməsi;

3. Müştərək travmalar zamanı ölümlə nəticələnən kəllə-beyin zədələnmələrinin müəyyən edilməsi.

**Tədqiqatın material və metodları.** Qarşıya qoyulan məsələləri həll etmək üçün Azərbaycan Respublikasının bir rayonu üzrə iki il müddətində (2014-2015-ci illər) baş verən yol-nəqliyyat hadisələri zamanı ölümlə nəticələnmiş kəllə-beyin travmaları araşdırılmışdır. Bunun üçün hüquq-mühafizə orqanlarının qərarları əsasında tərtib edilmiş 319 ekspert rəyi tədqiq edilərək öyrənilmişdir. Bu zaman statistik müayinə metodundan istifadə edilmişdir.

**Alınmış nəticələrin müzakirəsi.** 2014-2015-ci illər ərzində hüquq-mühafizə orqanlarının qərarları əsasında müayinədən keçirilmiş 319 meyitin məhkəmə-tibbi ekspertizası rəylərinin retrospektiv təhlili aparılmışdır. Müəyyən edilmişdir ki, 2014-cü ildə müayinə olunmuş 170 meyitin 147-si zorakı və 23-ü qeyri-zorakı ölüm, 2015-ci ildə isə 149 hadisənin 84-ü zorakı və 65-i qeyri-zorakı ölümə aid olmuşdur. Onların arasında ölümlə nəticələnən kəllə-beyin travmaları, eləcə də müştərək travmalar müəyyənləşdirilərək öyrənilmişdir. Həmin ölümlərdə nəqliyyat travmalarının rast gəlmə tezliyi ayırd edilmişdir. Müəyyən edilmişdir ki, 2014-cü illə müqayisədə 2015-ci ildə nəqliyyat travmalarının sayı 47%-dən 31%-ə qədər azalmışdır. Buna səbəb 2015-ci ildə yol-nəqliyyat hadisələrinin qarşısının alınması üçün daha çox profilaktik tədbirlərin aparılması olmuşdur (Cədvəl 1).

**Cədvəl 1**

**Bir il müddətində yol-nəqliyyat hadisələrinin rastgəlmə tezliyi**

| İllər | Tərtib edilmiş rəylərin sayı | Meyitlər | | Ölümün növü | | Nəqliyyat travmalarının ümumi sayı |
|---|---|---|---|---|---|---|
| | | kişi | qadın | zorakı | qeyri-zorakı | |
| 2014 | 170 | 65 | 14 | 147 | 23 | 79 (47%) |
| 2015 | 149 | 37 | 9 | 84 | 65 | 46 (31%) |

2014-2015- ci illər ərzində yol-nəqliyyat hadisələri zamanı piyada, sərnişin və sürücülərin ölümü ilə nəticələnmiş və məhkəmə-tibbi müayinəsindən keçmiş şəxslər müəyyən edilmiş və onların neçəsinin kişi və qadın cinsli olmaları öyrənilmişdir (Cədvəl 2).

Cədvəldən göründüyü kimi yol-nəqliyyat hadisələri zamanı piyadaların vurulması üstünlük təşkil edir və bununla əlaqədar, 59 hadisə qeydə alınmışdır, onlardan 45-i kişi, 14-ü qadın olmuşdur. Ölümlə nəticələnmiş avtotravmalar arasında ikinci yerdə sürücülər üstünlük təşkil etmiş, bununla bağlı 36 hadisənin hamısında ölən sürücülər kişi cinsli olmuş və bu zaman qadın cinsindən bir nəfər də olsun aşkar edilməmişdir. Bu isə çox güman ki, qadınların sürət həddini çox keçməməsi və avtomobili çox ehtiyatla idarə etmələri ilə əlaqələndirilə bilər. Ölən sərnişinlər 30 nəfər olmuşdur ki, bunların da 21 nəfəri kişi, 9 nəfəri isə qadın cinsli olmuşdur.

**Cədvəl 2**
**Ölümlə nəticələnən yol-nəqliyyat hadisələri zamanı piyada, sürücü və sərnişinlərin ayırd edilməsi**

| İllər | Nəqliyyat travmalarının sayı | | Zərərçəkmişlərin ayırd edilməsi | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | piyada | | sürücü | | sərnişin | |
| 2014 | 79 | | 33 | | 23 | | 23 | |
| | Kişi,65 | Qadı, 14 | Kişi, 25 | Qadın, 8 | Kişi, 23 | Qadın, 0 | Kişi, 17 | Qadın, 6 |
| 2015 | 46 | | 26 | | 13 | | 7 | |
| | Kişi, 37 | Qadın, 9 | Kişi, 20 | Qadın, 6 | Kişi, 13 | Qadın, 0 | Kişi, 4 | Qadın, 3 |

**Cədvəl 3**
**Yol-nəqliyyat hadisələri zamanı ölümlə nəticələnən kəllə-beyin travmaları**

| İllər | Nəqliyyat travmalarının ümumi sayı | Kəllə beyin travmaları | Kəllə beyin travmaları ilə müşayiət olunan müştərək tarvmalar | Kəllə beyin travmaları ilə əlaqəsi olmayan travmalar |
|---|---|---|---|---|
| 2014 | 79 (47%) | 49 (62,03%) | 25 (31,64%) | 5 |
| 2015 | 46 (31%) | 13 (28%) | 23 (50%) | 10 |

İki il müddətində yol-nəqliyyat hadisələri zamanı ölümlə nəticələnən kəllə-beyin travmaları tədqiq edilərək öyrənilmişdir. Bunun üçün 125 ekspert rəyinin retrospektiv analizi aparılmışdır. Araşdır- malar nəticəsində müəyyən edilmişdir ki, yalnız kəllə-beyin travmalarından həlak olan şəxslər 2014-cü ildə daha çox təsadüf edilmiş (49 hadisə) və bu nəqliyyat travmalarının 62%-ni təşkil etmişdir. 2015-ci ildə isə baş vermiş 46 nəqliyyat hadisəsindən 13-də kəllə-beyin travmaları ölümə səbəb olmuşdur. Kəllə-beyin travmaları ilə müşayiət olunan müştərək travmalar təxminən hər iki ildə bərabər (2014-cü ildə 25 və 2015-ci ildə 23 nəfər) olmuşdur (Cədvəl 3).

Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, kəllə-beyin travmaları zamanı ən çox ölümə səbəb beyin qişaları altına, mədəciklərə və beyin toxumasına qansızmalar olmuşdur. Epidural qansızmalar çox az hallarda müşahidə edilmiş və məhdud sahələri əhatə etmişdir. Daha çox təsadüf edilən subdural və subaraxnoidal qansızmalar məhdud ocaqlı və diffuz şəklində təsadüf edilmişdir. Məhdud qansızmalar əsasən kəllə qapağı sümüklərinin xətti sınıqları və çatı olan nahiyələrdə rast gəlinmiş, diffuz qansızmalar isə kəllə qapağı və kəllə əsası sümüklərinin daha geniş sahəli sınıqları olan yerlərdə təsadüf edilmişdir. Müştərək travmalar araşdırılarkən müəyyən edilmişdir ki, nəqliyyat travmaları içəri-sində kəllə-beyin travmaları üstünlük təşkil etmişdir. 2014-cü ildə ümumi nəqliyyat travma-larının 32%-ni və 2015-ci ildə isə 50%-ni müştərək travmalar təşkil etmişdir ki, bunların da çox hissəsi kəllə-beyin travmaları ilə müşayiət olunmuşdur. Kəllə-beyin travmaları ilə əlaqədar olmayan ölümə səbəb olan digər travmalar nəqliyyat travmalarının az bir qismini təşkil etmişdir. Belə ki, 2014-cü ildə 5 hadisə, 2015-ci ildə isə 10 hadisə qeydə alınmışdır.

**Yekun** Beləliklə, apardığımız araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, son dövrlərdə yol-nəqliyyat hadisələrinin sayı əhəmiyyətli dərəcədə artmışdır və bu hadisələrin çoxunda ölümə səbəb kəllə-beyin travmaları olmuşdur.

**Nəticələr:**

1.Yol-nəqliyyat hadisələrində avtomobil travmaları zamanı piyadaların vurulması üstünlük təşkil etmiş və bu zaman çox vaxt ölümə səbəb kəllə-beyin travmaları olmuşdur.

2.Nəqliyyat travmaları zamanı hadisəni törətmiş və həlak olmuş sürücülərin hamısı kişi cinsli olmuşdur.

3.Müştərək travmalar içərisində ölümün əsas səbəbi kəllə-beyin travmaları olmuşdur.

## ƏDƏBİYYAT

1.Bunyatov M.O. Məhkəmə təbabəti (dərslik). Bakı: Təbib, 2010.

2. Громов А.П., Науменко В.Г. Судебная медицинская травматология. М.: Медицина, 1977

3.Дралюк М.Г. Черепно-мозговая травма. Учебное пособие. Ростов-на дону: Феникс, 2006.

4.Крюков В.Н. Судебная медицина: учебник для студ. / Под ред., М.: Медицина, 1998.

5.Лихтерман Л.Б., Потапов А.А. Черепно-мозговая травма. Краткая Медицинская Энцикло-педия. М. Изд-во Советская Энциклопедия, 1995.

6.Попов В.Л. Черепно-мозговая травма. Ленинград, «Медицина», 1988

7.Di Maio VJM, Di Maio D. Forensic Pathology. 2nd ed. Boca Raton, FL: CRC Press; 2001

8.Gurdjian E.S., Webster J.E., Lissner H.R. The mechanism of skull fracture // Radiology, 1950, v.54, p.313-339..

9.Langlois J.A., Rutland-Brown W., Thomas K.E. Traumatic Brain Injury in the United States: Emergency Department Visits, Hospitalizations, and Deaths. Centers for Disease Control and Prevention, National Center for Injury Prevention and Control, Atlanta, GA, 2004.

10.Ludwig J. Handbook of Autopsy Practice, Third Edition. Humana Press, Totowa, NJ, 2002.

11.Mammadov V.G. Forensic medicine. Baku. 2012.

12.Miltner E., Kallieris D., Schmidt G., Muller M. Injuries of the occipital condyles in fatal traffic accidents // J. Legal Med., 1999, v.103, p.523-528

13.Passalacqua N.V., Fenton T.W. Developments in skeletal trauma: blunt force trauma. In: Dirkmaat DC, editor. A Companion to Forensic Anthropology. Oxford: Blackwell; 2012, p.400-412.

14.Shkrum M.J., Green R.N., McClafferty K.J., Nowak E.S. Skull fractures in fatalities due to motor vehicle collisions // J. Forensic Sci., 1994, v.39, p.107-122

15.Spitz W.U., Spitz D.J., Clark R. Spitz and Fisher's Medicolegal Investigation of Death: Guidelines for the Application of Pathology to Crime Investigation. 4th ed. Springfield, IL: Charles Thomas Publisher, Ltd; 2006.

**Резюме**

**Судебно-медицинские особенности черепно-мозговых травм приводящих к смерти при дорожно-транспортных происшествиях**

**М.О. Бунятов, Е.И. Алекперов, З.М.Мамедов, С.Ч.Джафаров**

Было исследовано 319 судебно-медицинских заключений по постановлениям судебно-следственных органов в связи с дорожно-транспортными происшествиями произошедшим за 2014-2015 годы в Азербайджанской Республике. Проведенный ретроспективный анализ показал что количество дорожно- транспортных происшествий сильно увеличилось. Преимущественно это были наезды и столкновения с пешеходами и причиной смерти в основном было черепно-мозговое травма. Водителем совершившим происшествие и к тому же погибшим в основном были лица мужского пола. При сочетанных травмах основной причиной смерти также являлось черепно-мозговая травма.

**Summary**

**The forensic medical characteristics of fatal traumatic brain injuries in road traffic accidents**

**M.O.Bunyatov, E.İ.Alekberov, Z.M.Mammadov, S.C.Cafarov**

Ruling by forensic investigation bodies, 319 forensic medical reports were examined in connection with road accidents those have occurred in one of the districts for period 2014-2015 in the Republic of Azerbaijan.The conducted retrospective analysis showed that the number of traffic accidents has increased dramatically. Mostly these were hits and collisions with pedestrians and the cause of death was mainly traumatic brain injury. The drivers who have committed the incidents and also the dead were mostly males. When combined injuries as the main cause of death was traumatic brain injury.

Daxil olub: 27.11.2015

# ПРЕНАТАЛЬНАЯ ДИАГНОСТИКА Y БЕРЕМЕННЫХ СТАРШЕГО ВОЗРАСТА

**И.А.Тагиева, С.А.Алиева, А.М.Рзаева, Ш.М.Аскерова**
*Азербайджанский медицинский университет, кафедра акушерства-гинекологии II, г.Баку*

***Açar sözlər:*** perinatal diaqnostika, böyük yaşlı hamilələr
***Ключевые слова:*** перинатальная диагностика, беременные старшего возраста
***Key words:*** perinatal diagnosis, pregnant older

Пренатальная диагностика- наиболее эффективный способ профилактики наследственных нарушений. Первородящие старшего возраста относятся к группе высокого риска по поводу рождения больного ребенка. Объективная оценка анеуплоидии даже с использованием новейших методов обследования представляет значительные трудности. Однако пренатальный скрининг в I триместре, особенно у лиц старше 35 лет, позволяет выявить наследственную патологию уже в раннем сроке беременности [2,3,4].

**Целью** настоящего исследования явилось комплексное обследование беременных старшего возраста для выявления генетически обусловленной патологии.

**Материал и методы обследования**. Обследовано 28 беременных в возрасте старше 35 лет. Из них у 21 беременность наступила спонтанно, в 3 случаях- после стимуляции овуляции прямыми и непрямыми индукторами овуляции, в 4 случаях- после вспомогательных репродуктивных технологий (ЭКО).

